# Ermənistanın sülh pərdəsi arxasında ərazi iddialarını gizlətmək oyunu

**Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibinin bütün vasitələrlə hücum silahları ilə təchiz olunan, konstitusiyasında və digər hüquqi aktlarında Azərbaycana qarşı ərazi iddialarını davam etdirən Ermənistanın sülhsevər mövqeyi ilə bağlı açıqlamaları beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi daşıyan manipulyasiyadır.**



Maraqlıdır ki, indi də XİN-in mətbuat katibi bu ölkənin Konstitusiya Məhkəməsinin Ermənistan və Azərbaycan arasında sərhədlərin delimitasiyası üzrə komissiyalarının birgə fəaliyyətini tənzimləyən reqlamentin Ermənistan konstitusiyasına uyğunluğu barədə bu yaxınlarda qəbul etdiyi qərara onların konstitusiyasında "qonşularına qarşı ərazi iddialarının mövcud olmadığının" "təsdiqi" kimi istinad edir.

*(ardı 2-ci səhifədə)*

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 219 (30623) 6 oktyabr 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# "Bizimlə heç kim zarafat etməsin, səbrimizlə də oynamasın!"

## *Prezident İlham Əliyevin Cəbrayılda səsləndirdiyi bu xəbərdarlıq bədxahlarımızı ayıltmalıdır*



**Prezident İlham Əliyevin oktyabrın 4-də Cəbrayıl şəhərində yeni evlərinə köçən sakinlərə mənzillərin açarlarının təqdim edilməsi ilə bağlı mərasimdəki çıxışı da əvvəlkilər kimi dolğun məzmunlu idi. Ölkəmizin liderinin bildirdikləri istər yerli ictimaiyyətə, istərsə də beynəlxalq aləmə mesaj notlarının zənginliyi baxımından diqqət çəkirdi.**

Əvvəlcə dövlətimizin başçısının Cəbrayılın azad edilməsinin 44 günlük müharibədəki önəmi barədə səsləndirdiyi fikirlərə nəzər salaq. Prezident İlham Əliyev vurğulayıb ki, bu qədim diyarımızın düşmən tapdağından qurtarılması Ermənistanın 10 noyabr 2020-ci il tarixli kapitulyasiyasına aparan yolda həlledici amil idi. Ölkəmizin lideri, habelə, həm Cəbrayılın, həm də digər müqəddəs yurd yerlərimizin düşmən tapdağından xilasını Vətən övladlarının misilsiz şücaətinin nəticəsi kimi qiymətləndirib: "Beləliklə, İkinci Qarabağ müharibəsi tarixi Zəfərimizlə başa çatdı. Bu gün bütün Azərbaycan xalqı qəhrəman övladlarımıza minnətdarlıq hissi ilə yaşayır, vətənpərvərlik ruhunda yetişmiş gənc nəsil vaxtilə itirilmiş torpaqlarımızı xalqımıza, dövlətimizə qaytara bilmişdir".

Prezident İlham Əliyevin üzərində dayandığı ikinci məsələ Cəbrayılın hazırkı inkişafı fonunda işğaldan azad edilmiş digər ərazilərimizin dirçəldilməsi idi. Həqiqətən, bu gün vaxtilə düşmən tapdağında inləyən, ruhsuz görkəmə sahib bölgələrimiz tam bir quruculuq meydanıdır. Meydanın hər nöqtəsində böyük işlər görülür, nəhəng layihə və təşəbbüslər reallaşdırılır. Bütün bunlar böyük iradə ilə geri qaytardığımız Vətən torpağına sahiblənmək əzmimizin misilsiz, nəsillərə miras qalacaq nümunələridir. Dövlətimizin başçısı mövcud istiqamətdəki fəaliyyətdən söz açaraq bəzi detalları diqqətə çatdırıb.

"Deyə bilərəm ki, azad edilmiş torpaqlarda aparılan işlər öz miqyasına görə xüsusi xarakter daşıyır. Heç bir başqa yerdə işğaldan, müharibələrdən əziyyət çəkmiş ölkələr bu sürətlə və bu keyfiyyətlə bərpa işlərini bu günə qədər aparmamışlar. Çünki bu işlər genişmiqyaslı və çox dəqiq planlar əsasında görülür. Hər bir şəhərin baş planları təsdiq edilib. Hər bir kəndin bütün lazımi infrastrukturu nəzərdə tutulur", – deyən Prezident İlham Əliyev insan amilinin üzərində dayanıb, işğaldan azad edilmiş bölgələrimizdə məşğulluğun önəmini vurğulayıb. Yəni, dövlətimiz üçün təkcə yurd yerlərimizi məskunlaşdırmaq deyil, eyni zamanda, oradakı əhalinin iş yerləri ilə təminatı da prioritet vəzifədir. Bu yerdə bir faktı diqqətə çatdırmaq istərdik.

*

Qəzetimizin müxtəlif saylarında ermənilərin keçmiş SSRİ zamanında Azərbaycana iddialarından, torpaq peşkəşləri hesabına ərazilərini genişləndirmələrindən, konkret olaraq, 1929-cu ildə Ermənistan SSR tərkibində Meğri rayonunun yaradılmasından, beləliklə Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən quru yolun bağlanmasından bəhs etmişik. 1969-cu ildə ulu öndər Heydər Əliyevin respublikamızda rəhbərliyə başlamasından sonra sözügedən ərazi hədiyyələrinə son qoyulmasından da həmçinin.

Əlavə edək ki, erməni millətçiləri ötən əsrin 50-60-cı illərində "cənfəşanlıq" göstərir, imperiya rəhbərliyindəki şəxslərin, bəzən isə sapı özümüzdən olan baltaların əli ilə ən müxtəlif vasitələrə əl atırdılar. Məsələn, o zamanlar sonradan işğal edilmiş rayonlarımızın əhalisinə bildirilirdi ki, yaşadıqları yerlərə yol çəkmək və sair həyati vacib tədbirləri gerçəkləşdirmək mümkün olmadığından, onların Aran yerlərində məskunlaşmaları daha münasibdir. Belə deyimlər insanları aldatmağa hesablanmışdı. Necə deyərlər: insan yoxdursa, problem də yoxdur. Düşüncə və plan bu idi. Deməli, indi işğaldan azad edilmiş ərazilərimizi təkcə məskunlaşdırmamalı, eyni zamanda, həmin torpaqlarda qərar tutmalıyıq. Bu isə maddi gəlirli, sosial rifahlı və təminatlı məşğuliyyətdən asılıdır ki, dövlətimiz mövcud istiqamətdə də müstəsna səylər göstərməkdədir.

*(ardı 3-cü səhifədə)*

# Milli Məclisin bir qrup deputatı xarici işlər naziri Ceyhun Bayramova müraciət edib



**Azərbaycan Respublikası VII çağırış Milli Məclisinin bir qrup depuatı xarici işlər naziri Ceyhun Bayramova müraciət edib.**

**Müraciəti təqdim edirik:**

İlk öncə qeyd etmək istərdik ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi ilə regionda uzunmüddətli sülh və sabitlik üçün əsas yaranmışdır. Otuz illik işğala və haqsızlığa son qoymuş Azərbaycan təkcə öz milli maraqlarını deyil, həm də beynəlxalq hüququn aliliyini təmin etmişdir.

Yaranmış bu vəziyyət ölkəmizi ümumbəşəri problemlərin həllinə töhfələrini daha fəal şəkildə həyata keçirməyə imkan yaradır. 2023-cü il sentyabrın 20-də Azərbaycanın öz suverenliyini bərpa etməsindən az sonra həmin il dekabrın 9-da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəf Dövlətlərinin 29-cu görüşünə (COP29) Azərbaycanın ev sahibliyi etməsi barədə qərarın yekdilliklə dəstəklənməsi dünya dövlətlərinin Azərbaycanın beynəlxalq sülh və inkişaf məsələlərinə dair baxışına böyük dəstək verməsinin sübutudur.

Azərbaycan tərəfinin COP29-a yüksək səviyyədə davam edən hazırlığı, bütövlükdə, bəşəriyyəti narahat edən iqlim dəyişmələri üzrə fundamental məsələlərin həllinə nə dərəcədə ciddi yanaşmasının göstəricisidir.

Təəssüflə qeyd etmək istərdik ki, bir sıra dairələr Azərbaycanın COP29-a ev sahibliyi edəcəyindən istifadə edərək, Azərbaycana hansısa məsələni qəbul etdirmək fikrinə düşüblər. ABŞ Senatının və Nümayəndələr Palatasının bir qrup üzvünün 2024-cü il oktyabrın 3-də bu ölkənin dövlət katibi Entoni Blinkenə göndərdiyi müraciət də bu qəbildəndir.

Açıq şəkildə bildirmək lazımdır ki, sözügedən müraciətin Dövlət Departamenti tərəfindən təşkil edildiyinə dair şübhəmiz yoxdur. Prezident İlham Əliyevin oktyabrın 4-də Cəbrayıl şəhərində vurğuladığı kimi, Dövlət Departamentində Azərbaycanı hədələmək üçün özləri özlərinə məktub yazırlar.

Azərbaycana qarşı irqi ayrı-seçkiliyi ehtiva edən, böhtanla dolu, dialoq ruhuna zidd olan, müharibə cinayətkarlarının azadlığa buraxılmasına və Ermənistanın hərbiləşdirilməsinə çağırış edən bu müraciət qəbuledilməzdir, beynəlxalq hüquqa ziddir və ABŞ-nin ikitərəfli münasibətlərin rəvan şəkildə davam etdirilməsində maraqlı olmadığını göstərir.

Saxta əsaslarla insan hüquqları və beynəlxalq humanitar hüquqa riayət edilməsi sahəsində Azərbaycana iradlar irəli sürən müraciətin müəlliflərinə ABŞ-nin İraq, Əfqanıstan və dünyanın digər müxtəlif bölgələrində törətdiyi müharibələr zamanı milyonlarla dinc insanın həlak olduğunu, çoxlu sayda insanın işgəncəyə məruz qalmasını və hüquqi proses olmadan onlara cəza verilməsini xatırlatmaq istərdik. İnsan hüquqlarından dəm vuran ABŞ ən mühüm insan hüquqları konvensiyalarına qoşulmamışdır. BMT-nin İşgəncələrə qarşı xüsusi məruzəçisini uzun illər Quantanamoya buraxmayan həmin ABŞ-dir.

Minsk qrupunun həmsədri olan ABŞ heç vaxt öz məsuliyyətini dərk etməmiş, Fransa ilə birlikdə Azərbaycan torpaqlarının işğal altında qalmasına çalışmışdır. ABŞ-nin gözü qarşısında vaxtilə işğal edilmiş ərazilərdə Azərbaycan xalqının mədəni irsi, məscidləri, tarixi abidələri dağıdılmış, təhqir edilmiş, bütöv şəhərlər və kəndlər yer üzündən silinmişdir. ABŞ Ermənistanın bu barbarlıq əməllərini heç vaxt pisləməmişdir.

2020-ci il Vətən müharibəsindən sonra başlanan və ötən ildən intensivləşən bu hücumlar, ABŞ-nin Azərbaycan Respublikasının ərazi bütövlüyünü və suverenliyini bərpa etməsini qəbul etməməsindən, Azərbaycan xalqına qarşı dini və etnik ayrı-seçkilik göstərməsindən və regionda yenidən münaqişə yaratmaq niyyətindən irəli gəlir. Saxta ittihamlarla dünyanın müxtəlif ölkələrini işğal etmiş ABŞ nəyə görə Azərbaycanın öz ərazisini işğaldan azad etmək, separatizmə son qoymaq üçün həyata keçirdiyi əməliyyatı "hərbi təcavüz" kimi dəyərləndirir? Daim Ermənistanın suverenliyi və ərazi bütövlüyündən dəm vuran konqresmenlər bircə dəfə olsun Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörmətdən danışmamışlar.

Azərbaycanı "etnik təmizləmə"də ittiham edən konqresmenlər nədən Ermənistandan bütün azərbaycanlıların deportasiya edilməsinə, Qərbi Azərbaycan İcmasının elə həmin Entoni Blinkenə ünvanladığı müraciətlərə heç bir reaksiya vermir?

Konqresmenlər o səviyyəyə eniblər ki, erməni müəllifin məqaləsini Azərbaycana qarşı "sübut" kimi istifadə edirlər. Azərbaycanı sülh müqaviləsini imzalamağı istəməməkdə ittiham edən konqresmenlər nədən sülh müqaviləsi təşəbbüsünün məhz Azərbaycandan gəldiyini, elə onun mətninin də məhz Azərbaycan tərəfindən tərtib edildiyini "yaddan" çıxarır, Ermənistan Konstitusiyasında hələ də ölkəmizə qarşı ərazi iddiasının yer almasını pisləmirlər?

*(ardı 4-cü səhifədə)*

## Qarabağ və Şərqi Zəngəzur "yaşıl" enerji ilə nurlanır



Səhifə ⇨ 7

## Unudulmaz xeyriyyəçi Zeynalabdin Tağıyevin ekran obrazı



Səhifə ⇨ 9

## Sənət sənət üçündürmü?



Səhifə ⇨ 11

# “Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (I kitab), maddə 1685 (Cild I); 2024, № 4, maddə 373, № 5 (I kitab), maddə 526; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 iyul tarixli 118 nömrəli Fərmanı) 1-ci hissəsindəki cədvəlin 1.11.3.2.1-ci abzasında hər iki halda “249,100,000.0” rəqəmləri “70,000,000.0” rəqəmləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 5 oktyabr 2024-cü il**

# S.K.Hacıyevin “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Sabir Kamal oğlu Hacıyev “Şöhrət” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 5 oktyabr 2024-cü il**

# 2024–2025-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında” 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. 2024–2025-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abbaslı Səma Hüseyn qızı
Abbasov Orxan Taleh oğlu
Abdullayeva Rəna Natiq qızı
Ağakişiyeva Aysu Asif qızı
Ağazadə Nərmin Teymur qızı
Axundov Nurlan Saleh oğlu
Bababəyli Semral Aprel qızı
Baxşalıyev Azər Natiq oğlu
Bədəlova Aytac Rasim qızı
Bədəlova Nərgiz Cəlal qızı
Dəmirçiyev Ayxan Ramin oğlu
Elyazov Şükür Şakir oğlu
Eyvazlı Əsmər Elmar qızı
Eyvazov Maarif Seymur oğlu
Eyyubov Samur Şirvan oğlu
Əbilov Ziya Namiq oğlu
Əhmədova Nəzrin Ramil qızı
Əliyev Məhəmməd Vüsal oğlu
Əliyev Ömər İlqar oğlu
Əliyev Turan Anar oğlu
Əliyeva Amalya Tural qızı
Əliyeva Aytac Xəqani qızı
Əlizadə Rəbiyyə Həsən qızı
Əlizadə Ülvi Rövşən oğlu
Əmirov Coşqun Rafiq oğlu
Əsədov Rüfət Raqif oğlu
Əsədullayev Amin Arif oğlu
Əsgərzadə Hikmət Ramin oğlu
Garayzadə Kənan Rafiq oğlu
Gülməliyeva Sevil Rövşən qızı
Gülməmmədov Məhəmməd Akifoviç
Hacıbabayeva Gülafət Anar qızı
Hacıyeva Nuray Hafis qızı
Hacıyeva Zeynəb Hünər qızı
Həbibli Ülvi Vahab oğlu
Həmzəli Suat Zahir oğlu
Həsənli Əsmər Səxavət qızı
Həsənov Fizuli Vüqar oğlu
Həsənzadə Səma Ələsgər qızı
Hüseynli Murad Vidadi oğlu
Hüseynov Elcan Rüfət oğlu
Hüseynov Nurlan Fizuli oğlu
Hüseynova Nuray Emin qızı
Hüseynova Pakizə Namil qızı
Hüseynzadə Nəzrin Fuad qızı
Xəlilzadə Amin Yavər oğlu
Xəlilzadə Əkrəm Samir oğlu
İlyasova Zərifə Elmaz qızı
İsaqov Elvin Ceyhun oğlu
İsmayıllı Kənan Mehman oğlu
Kərimli Qəhrəman Elsevər oğlu
Kərimov Fuad Daşqın oğlu
Qaçabəyova Həlimə Yaşar qızı
Qafarlı İlkin Elçin oğlu
Qafarzadə Zəhra Zaur qızı
Qasımova Fatimə Elxan qızı
Qənbərova İnci Rauf qızı
Qurbanova Ləman Sənan qızı
Mahmudzadə Nihad Mahmud oğlu
Məcidov Əşkəbuz Zamin oğlu
Məhərrəmova Nigar Mübariz qızı
Məhərrəmzadə İlahə Rəşad qızı
Məmmədli Ceyhun Azər oğlu
Məmmədli Fatimə Faiq qızı
Məmmədli Məhəmməd Vaqif oğlu
Məmmədli Murad Gəray oğlu
Məmmədli Röya Əlizamin qızı
Məmmədli Saleh Babək oğlu
Məmmədova Lalə Ramiz qızı
Məmmədzadə Mələk Cabir qızı
Məmmədzadə Şərafət Nüsrət qızı
Mərdanlı Xədicə Sərkər qızı
Miriyeva Nəzrin Miriş qızı
Mirzalıyev Fuad Yaşar oğlu
Muradov Cəlal Murad oğlu
Mustafazadə Afiq Arzu oğlu
Namazov Nihad Ruslan oğlu
Nəsirova Zenfira Rəşadət qızı
Novruzova Şəbnəm Ramin qızı
Nuruyev Elgün Akif oğlu
Orucov Fəxri Faiq oğlu
Rəhimova Səidə Ruhib qızı
Rüstəmli Fidan Ayət qızı
Rüstəmova Validə Elçin qızı
Rzayev Yaqub Aqil oğlu
Sadıqova Aytac Elnur qızı
Salmanov Ayxan Sərdar oğlu
Səfərli Ayişə Bəxtiyar qızı
Səfərli Yunis Elxan oğlu
Səfərova Leyla Abuzər qızı
Səlimova Aysel Ehtiram qızı
Səmədli Pərviz Hafiz oğlu
Süleymanov Nəsib Asif oğlu
Şəkərov Zaur Əvəz oğlu
Şirinli Raul Rəşid oğlu
Şirinov Nicat Seymur oğlu
Tahirli Lalə Cahangir qızı
Vəliməmmədov Fərid Musa oğlu
Vəliyeva Şəms Azər qızı
Yusibov Elşən Səfa oğlu
Yusifov Fərid Güloğlan oğlu
Yusifova Səbinə Vüqar qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 5 oktyabr 2024-cü il**

# Baş nazir Əli Əsədov Minskin Novaya Okolitsa massivində



**Oktyabrın 4-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov belaruslu həmkarı Roman Qolovçenkonun müşayiəti ilə Minsk vilayətinin Novaya Okolitsa azmərtəbəli yaşayış massivində olub.**

Bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, hökumət başçılarına layihə çərçivəsində istifadə olunan fərdi tikintiyə dair yeni yanaşmalar və texniki həllər barədə məlumat verilib, mikrorayonda yaşayış binalarına, mühəndis, nəqliyyat və sosial infrastruktur obyektlərinə baxış keçirilib.

# Ermənistanın sülh pərdəsi arxasında ərazi iddialarını gizlətmək oyunu

*(əvvəli 1-ci səhifədə)*

Bu iddiaya dair faktları yoxlayarkən Ermənistan tərəfinin hələ 2010-cu ilin yanvarında Türkiyə ilə münasibətlərinin normallaşdırılmasına dair protokolların onun konstitusiyasına uyğunluğu ilə bağlı Konstitusiya Məhkəməsinin qərarının təfərrüatlı şəkildə əsaslandırıldığı zaman qondarma “Qərbi Ermənistan” iddialarından əl çəkmədiyini xatırlamaq kifayətdir.

Bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan XİN-in mətbuat katibinin bu ölkənin hərbiləşdirilməsinə bəraət qazandırması və Azərbaycandan iddia olunan təhdidlər barədə söylədiyi fikirlərə dair şərhində yer alıb.

A.Hacızadə, həmçinin qeyd edib: “Eyni məntiq və yanaşma məhkəmənin Azərbaycanla Ermənistan arasında sərhəd komissiyalarının reqlamentinin Ermənistan konstitusiyasına uyğunluğu ilə bağlı 2024-cü il 26 sentyabr tarixli qərarının qəbulu zamanı da tətbiq edilib. Məhkəmə qərarında hazırda Ermənistana məxsus olan rayonların sadalanmasına baxmayaraq, Azərbaycan ərazilərinə iddianı ehtiva edən Ermənistanın Müstəqillik Bəyannaməsinə istinadın əks olunduğu preambulanın konstitusiyanın ayrılmaz hissəsi kimi əhəmiyyəti vurğulanıb. Xüsusən də məhkəmə qərarında preambula və dolayısı ilə Müstəqillik Bəyannaməsi “erməni dövlətçiliyinin əsas prinsipləri” kimi səciyyələndirilib və onların dəyişilməz müddəalar olduğu qeyd edilib ki, bu da Ermənistanın Azərbaycan ərazilərə qarşı iddialarından irəli gələn təhdidi daha da artırır.

Alma-Ata Bəyannaməsi məsələsinə gəlincə, məlumdur ki, Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında 1991-ci il 8 dekabr tarixli Sazişində və 1991-ci il 21 dekabr tarixli Alma-Ata Bəyannaməsində nəzərdə tutulan ərazi bütövlüyünə və sərhədlərin toxunulmazlığına hörmətlə bağlı müddəalarda MDB-yə üzv dövlətlər arasında faktiki sərhədlərin hansı olduğu və ya hər bir dövlətin tərkibinə hansı ərazilərin daxil olması məsələsinə aydınlıq gətirilmir. Beləliklə, Alma-Ata Bəyannaməsi Ermənistanın “xoş niyyəti”nin təsdiqi sayıla bilməz.

Ermənistanın 1992-ci il fevralın 18-də MDB-nin yaradılması haqqında sazişi qeyd-şərtlə ratifikasiyasını inkar etmək olmaz. Üstəlik, Ermənistan qeyd-şərtlər etmək niyyətini hələ 1991-ci il dekabrın 26-da Ermənistan Ali Soveti MDB-nin yaradılması haqqında sazişə dair Protokolu ratifikasiya edəndə rəsmən bəyan edib. MDB-nin yaradılması haqqında sazişin ratifikasiyasına dair Ali Sovetin 1992-ci il 18 fevral tarixli qərarının 10-cu bəndində aydın şəkildə göstərilir ki, Ermənistan Respublikası qondarma “Dağlıq Qarabağ Respublikasını MDB-yə daxil olmaq hüququ olan müstəqil dövlət hesab edirdi”.

Ali Sovetin bu qərarından sonra Ermənistan heç vaxt “Dağlıq Qarabağı” Azərbaycanın tərkib hissəsi kimi tanımayıb, bu mövqe Ali Sovetin 1992-ci il 8 iyul tarixli Qərarında bir daha təsdiqlənib və Ermənistanın 1995-ci il 5 iyul tarixli Konstitusiyası ilə daha da möhkəmlənib. O zaman qeyd-şərtin müqaviləyə tərəf digər ölkələrin nəzərinə çatdırılmasının zəruri olub-olmaması və Ermənistanın belə tədbir görüb-görmədiyindən asılı olmayaraq, hər hansı bir mühakimə yürütmədən, qeyd-şərtlər Ermənistan qanunvericiliyinin bir hissəsidir və inkar edilə bilməz.

Beləliklə, həmçinin Ermənistanın Alma-Ata Bəyannaməsinə qoşulan zaman konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə qarşı artıq mövcud olan iddiasını və onun qeyd-şərtlərini nəzərə alaraq, Ermənistan “Dağlıq Qarabağın” Azərbaycanın tərkib hissəsi kimi tanınmasını istisna edib. Odur ki, Ermənistan öz konstitusiyasına dəyişikliklər edənə, Azərbaycana qarşı iddiasını əks etdirən bütün hüquqi və siyasi aktlardan imtina etməyənədək bu ölkənin Azərbaycanın ərazi bütövlüyü və suverenliyini tanıması barədə bəyanatların heç bir hüquqi əsası yoxdur.

Həmçinin Alma-Ata Bəyannaməsinə qoşularkən Ermənistanın Azərbaycana qarşı təcavüz tarixini nəzərə alaraq, “keçmiş Sovet İttifaqının respublikalarının inzibati sərhədləri boyunca bir-birinin ərazi bütövlüyü və suverenliyinin tanınması” dedikdə Ermənistanın 1992-ci ildə və indi nə nəzərdə tutduğuna aydınlıq gətirməsinin vaxtı çatıb.

Bütün bunların fonunda və Ermənistan siyasətinin gözlənilməz xarakteri nəzərə alınaraq, kütləvi militarizasiyaya bəraət qazandıran özünümüdafiə hüquqları ilə bağlı arqumentlər həm uydurma, həm də təhlükəlidir.

Bundan əlavə, Ermənistan XİN-in Azərbaycanın COP29-dan guya Ermənistana hücuma hazırlıq məqsədilə “tüstü pərdəsi” kimi istifadə etdiyini iddia edərək, Azərbaycanda COP29-a səfər etməkdən çəkinməyə çağıran yalan dolu təbliğatı təəssüf doğurur.

Erməni tərəfinin bu problemlərə məhəl qoymamaq məntiqi onu göstərir ki, bu ölkə davamlı sülhdə maraqlı deyil və gələcəkdə Azərbaycana qarşı növbəti dəfə təcavüzə başlamaq üçün bu vəziyyəti ehtiyat variant kimi saxlamağa çalışır.

Ermənistan ziddiyyətli bəyanatlardan, təxribat xarakterli addımlardan çəkinməli, beynəlxalq hüququn norma və prinsiplərinə hörmət etdiyini öz fəaliyyəti, həmçinin real addımları ilə nümayiş etdirməlidir”.

***XQ***

# Bakı Təşəbbüs Qrupu Frankofoniya Təşkilatını ədalətli olmağa çağırıb

**Fransanın Villers-Cotterêts və Paris şəhərlərində keçirilən Beynəlxalq Frankofoniya Təşkilatının Zirvə görüşü çərçivəsində Fransanın birbaşa dəstəyi ilə Azərbaycan əleyhinə birtərəfli, qərəzli və təhriflərlə dolu təhrikçi ifadələrin olduğu sənədlər qəbul edilib.**




Mədəniyyət profilli qurum olan Beynəlxalq Frankofoniya Təşkilatının ona üzv olmayan suveren ölkə əleyhinə və ümumiyyətlə, mandatından kənar mövzuya dair sənədlər qəbul etməsi bu təşkilatın nüfuzuna ciddi xələl gətirməklə yanaşı, onun Fransa tərəfindən digər dövlətlərə qarşı təzyiq vasitəsi kimi istifadə olunduğunu, siyasi alət rolunu oynadığını nümayiş etdirir. Bu fikirlər Bakı Təşəbbüs Qrupunun bəyanatında bildirilib.

Qeyd olunub ki, beynəlxalq hüquqa hörmət çərçivəsində dünyada dekolonizasiya prosesinin irəlilədilməsi və (neo) müstəmləkəçiliklə mübarizə sahəsində fəaliyyət göstərən Bakı Təşəbbüs Qrupu Beynəlxalq Frankofoniya Təşkilatına fransız əsarəti altında olan dənizaşırı ərazilərdə Fransa hökuməti tərəfindən törədilən cinayətlərə diqqət yetirməsinə çağırış edir.

Bakı Təşəbbüs Qrupu xatırladır ki, Kanakidə (Yeni Kaledoniya) kanak xalqının hüquq və azadlıqlarının Fransa hökuməti tərəfindən kobudcasına pozulmasına etiraz məqsədilə keçirilən dinc etiraz aksiyalarına cavab olaraq 10-dan artıq mülki şəxs Fransa təhlükəsizlik qüvvələri tərəfindən qətlə yetirilib, yüzlərlə şəxs həbs edilib. Aksiyaların 10-a yaxın iştirakçısı siyasi məhbus kimi Fransa metropoliyasının həbsxanalarında təzyiqlərə məruz qalır.

Fransa hökuməti Mao`hi Nui-də (Fransız Polineziyası) azadlıq və yerli adət-ənənələrin səsi olan “Tefana Radio”-sunun hər vəchlə bağlanmasına çalışır.

Fransa Korsika adasında dövlət müəssisələrində Korsika dilinin istifadəsi qadağan edir.

Fransa hökuməti qeyri-qanuni şəkildə ilhaq etdiyi Qəmərin Mayot adasında Balladur vizası tətbiq edir, Mayotun Qəmərin digər qardaş adaları ilə əlaqə saxlamasının qarşısını alır və bununla da Mayotun yerli xalqının öz mədəniyyətini, dilini və adət-ənənəsini unutmağa və Fransa mədəniyyətinin qaydaları ilə yaşamağa məcbur edir:

*– Fransa hökuməti Fransız Qvianası, Martinika və Qvadelupada assimilyasiya siyasətini tətbiq edərək yerli dilləri ikinci plana atır və aborigen uşaqlara yerli tarixi, coğrafiyasını, mədəniyyətini nəzərə almayan Fransanın tədris sistemi üzrə təhsil almağa məcbur edir. Bu, Fransanın dənizaşırı ərazilərində törətdiyi və bu gün də törətməyə davam etdiyi saysız-hesabsız cinayətlərinin kiçik siyahısıdır. Fransa keçmiş və indiki müstəmləkələrində məqsədli şəkildə milli kimliyin məhv edilməsi siyasəti yürüdür və təəssüf ki, böyük ölçüdə buna nail olmuşdur.*

**Yuxarıda qeyd olunanları nəzərə alaraq Bakı Təşəbbüs Qrupu Beynəlxalq Frankofoniya Təşkilatına aşağıdakı çağırışları edir:**

*– Beynəlxalq Frankofoniya Təşkilatının Baş katibi tərəfindən Fransa hökumətinin bu cinayətlərini pisləyən bəyanatın verilməsi;*

*– Beynəlxalq Frankofoniya Təşkilatının Zirvə görüşü zamanı Fransanın törətdiyi cinayətlərlə əlaqədar xüsusi sessiyanın keçirilməsi;*

*– Fransanın əsarəti altında qalmağa davam edən ərazilərdə törədilən cinayətlərlə əlaqədar xüsusi araşdırma komissiyasının göndərilməsi; Komissiya tərəfindən tərtib ediləcək hesabatın BMT-nin dekolonizasiya üzrə xüsusi komitəsinə təqdim edilməsi. Bakı Təşəbbüs Qrupu ərazilərə göndəriləcək komissiyanın işinə ekspert dəstəyi verməyə hazırdır.*

*– Fransa koloniyalarında dövlət orqanlarında, rəsmi yazışmalarda, məhkəmələrdə və s. ictimai yerlərdə fransız dilinin məcburi istifadəsindən imtinaya dair Fransa hökumətinə çağırış etməsi.*

***XQ***

# “Bizimlə heç kim zarafat etməsin, səbrimizlə də oynamasın!”

(əvvəli 1-ci səhifədə)



Bir sözlə, erməni vandallarının xarabazara çevirdikləri və hazırda göz oxşayan mənzərələrdə insan nəfəsi duyulmalıdır. Bu nəfəs Şuşa, Laçın Zəngilan və sair yerlərdə olduğu kimi, Cəbrayılda da duyuldu. Ancaq ən yaxın tarixi unutmaq olmaz. Həm də ona görə olmaz ki, həmin tarixi bizə yenidən yaşatmaq istəyənlər öz əməllərini gerçəkləşdirmək üçün, bir növ, fürsət axtarışındadırlar. Prezident İlham Əliyevin də vurğuladığı kimi, azacıq büdrəməyimizi gözləyirlər. Bu barədə söz açacaq, Ermənistanın və havadarlarının anti-Azərbaycan kampaniyasının hazırkı motivlərinə nəzər salacağıq. Hələlik isə dövlətimizin başçısının Ermənistanın sırf Cəbrayıl rayonunda həyata keçirdiyi vəhşiliyi xarakterizə edən bir fikrinin üzərində dayanaq: “Mən tarixi Zəfərimizdən sonra birinci dəfə Cəbrayıla gələndə dəhşətə gəldim. Biz bilirdik ki, ermənilər bizim torpaqlarımızda öz vəhşiliyini hər yerdə göstərmişlər. Bilirdik ki, ərazilərimizin böyük əksəriyyəti dağıntılar içindədir. Amma bu dərəcədə vəhşiliyi, qeyri-insani hərəkətləri təsəvvür etmək mümkün deyildi. Cəbrayılda, demək olar ki, cəmi iki bina qalmışdı. Orada da erməni hərbçiləri yerləşmişdilər”.

Yeri gəlmişkən, ermənilər işğal illərində Ağdamda cəmi bir məscid saxlamışdılar. Onu da məscid olduğuna görə yox, hərbi məqsədlərlə, daha doğrusu, ətrafa nəzarət etmək üçün. Həmçinin, hazırda yüksək səviyyədə bərpası həyata keçirilmiş müqəddəs İmarət kompleksini murdarlamışdılar. Ümumən, işğaldan azad edilmiş yurd yerlərimizin hər birində onların vandal xislətinin nişanələri var. Təəssüf ki, dünya birliyi bunu görmür, onun bəzi qütbləri Ermənistana dəstək yolu tuturlar ki, dövlətimizin başçısı Cəbrayıl sakinləri ilə görüşündə bu məqama da əhatəli yer verib. Həmçinin, beynəlxalq miqyasda Azərbaycana münasibətdə ittiham ritorikasının seçildiyini, sanksiya hədələrinin eşidildiyini diqqətə çatdıran Prezident İlham Əliyev Ermənistana adekvat yanaşılmadığını deyib. “Hansısa Qərb dövlətinin rəsmi nümayəndəsi bir dəfə onlara irad tutubmu? Xeyr. Onlar hətta dünyanın bir nömrəli təşkilatı olan BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə də məhəl qoymurdular. Halbuki Təhlükəsizlik Şurasının qətnamələri mütləq icra edilməlidir. 1993-cü ildə dörd qətnamə qəbul edilmişdir. Kimsə 2020-ci ilə qədər onlara bir söz dedi ki, sən o torpaqları işğal etmisən, oradan çıxmalısan?”

*

Ölkəmizin lideri uğradığımız tarixi ədalətsizliyin ATƏT-in Minsk qrupu seqmenti üzərində də dayanıb. Bildirib ki, bu təsisat otuz ilə yaxın müddətdə işğal faktını malalamaqla, ona bəraət qazandırmaqla və ölkəmizi alçaldıcı sülhə təhrik etməklə məşğul olub: “Minsk qrupunun fəaliyyəti bundan ibarət idi. Biz bütün beynəlxalq platformalarda öz haqq səsimizi ucaldanda bizə deyirdilər ki, sizin sözləriniz çox kəskindir. Bu kəskin ritorika sülhü yaxınlaşdırmır, sülhü uzaqlaşdırır. Ermənistanla dil tapmalısınız, barışmalısınız, müharibəni uduzmusunuz, bununla barışın. Bax, bütün bunları biz eşitmişik, həm rəsmi çıxışlarda, həm bağlı qapılar arxasındakı təmas əsnasında. Bizim isə mövqeyimiz birmənalı, qətiyyətli idi və dəyişməz idi: bir qarış torpaq işğal altında qala bilməz! Məsələ sülh yolu ilə həllini tapmasa, biz məsələni müharibə yolu ilə həll edəcəyik. Mənim sözlərim bütün arxivlərdə vardır. Buna nə desələr yaxşıdır?! Müharibənin, bu münaqişənin hərbi həlli yoxdur. Yəni, Qərb dövlətləri, ilk növbədə, bizi məğlubiyyətlə barışdırmaq üçün bütün çirkin əməllərdən istifadə edirdilər ki, təki biz torpaqları işğaldan azad etməyək. Bu işğalı əbədi etmək üçün Fransa və onun kimi Qərb dövlətləri əllərindən gələni edirdilər. Bu ədalətsizliyin dərəcəsinə baxın ki, bizim torpaqlarımızı Ermənistana bağışlamaq istəyən ölkələr bu münaqişənin, guya, həlli ilə məşğul olurdular”.

Bəli, Prezidentin adını çəkdiyi beynəlxalq dairələr üçün bir milyon insanımızın evsiz-eşiksiz vəziyyətdə, vaqonlarda, yataqxanalarda, uşaq bağçalarında, çadırlarda məskunlaşması heç bir əhəmiyyət daşımırdı. Bu gün onlar həmin insanların özlərinin, övladlarının doğma yurdlarına qayıdışlarından, ərazilərimizin çiçəklənməsindən, tərəqqisindən qeyzlənirlər, ürək açan mənzərələrimizi gözləri götürmür və hər imkandaca ölkəmizə arxadan bıçaq sancmağa çalışırlar. Təəssüf ki, erməniпərəstliyə söykənmiş riyakarlığın müxtəlif “nümunələri” günümüz üçün aktuallığını qorumaqdadır. Ancaq artıq təəssüflənməkdən keçib. Zaman mübarizə zamanıdır. Dövr geridə qalan atların güllələndiyi dövrdür. Ona görə ayıq olmalıyıq. Prezident İlham Əliyevin son zamanlardakı çıxışlarında vurğuladığı ən mühüm məqamlardan biri də elə budur.

Yaxşı görürük ki, müxtəlif beynəlxalq dairələr Ermənistanın 44 günlük müharibə ilə itirdiklərini ona geri qaytarmağa, erməni avantürizmini diri saxlamağa girişiblər. Dövlətimizin başçısı Cəbrayıl sakinləri ilə görüşündəki çıxışında bu barədə, kifayət qədər, detallı söz açıb. Nəzərə alaq ki, Prezidentin açıq ritorikaya üstünlük verməsi adi sayıla bilməz. Axı ölkəmizin liderinin bütün fikirləri reallıqla ciddi fiksasiya təbiətinə malikdir. Buna əminik. Elə isə cənab İlham Əliyevin kollektiv Qərb riyakarlığının ABŞ seqmenti barədə nələri bildirdiyinə diqqət yetirək: “Bu gün səhər mənə məlumat verildi. Amerika Konqresinin 60 ermənipərəst konqresmeni Azərbaycana növbəti sanksiyalar tətbiq etmək üçün Amerika hökumətinə müraciət etmişdir. Səhər mən o müraciəti vərəqlədim, çirkin bir müraciətdir, bizim iradəmizə təsir edə bilməz. Ancaq bu, nəyi göstərir, bizə qarşı olan düşmənçilik siyasəti dayanmır. O müraciətə baxdıqda mən təxmin etdim ki, bunun müəllifi də, ünvanı da birdir. Çünki bunun ünvanı Amerika Dövlət Departamentinin Dövlət katibidir. Amma məndə bir zərrə qədər şübhə yoxdur ki, bu müraciət Amerika Dövlət Departamentində də yazılır. Yəni, özləri özlərinə məktub yazırlar, bizi hədələmək üçün, bizi ittiham etmək üçün. Axı, biz nə etmişik? Biz öz doğma torpaqlarımızı azad etmişik. Burada erməni yaşayıb?”

Göründüyü kimi, Azərbaycan Prezidenti Birləşmiş Ştatların son zamanlar Bakı-İrəvan münasibətlərinin nizamlanması fonundakı fəallığının, saxta bitərəflilik mahiyyətini ortaya qoyur. ABŞ başda olmaqla, dünya birliyinin riyakarlığını və ikiüzlülüyünü də həmçinin. Qeyd edək ki, hazırda bu “dəstxətin” ölkəmizə qarşı sanksiya mahiyyəti gündəmdədir. O mahiyyət ki, hələ torpaqlarımızın işğala məruz qaldığı 1992-ci ildə də özünü göstərib. Söhbət “Azadlığa dəstək aktı” deyilən sənədə 907-ci düzəlişdən gedir.

Yada salaq ki, həmin düzəliş təxminən on ilə yaxın müddətdə öz qüvvəsini saxladı. Nəticədə Azərbaycan Vaşinqtonun yardımından məhrum duruma düşdü. Sanki işğalçı biz idik, Ermənistan yox! Sonra Birləşmiş Ştatlar Prezidenti sözügedən sənədin qüvvəsini dayandırmaq hüququ əldə etdi ki, bunun nəyə hesablandığını dövlətimizin başçısı Cəbrayıl sakinləri ilə görüşdə tam açıqlığı ilə vurğulayıb: “Amerika 1992-ci ildə bizə qarşı sanksiya tətbiq etmişdir, o vaxt ki, torpaqlarımız əldən gedirdi. Sonra sanksiyalar 2001-ci ildə aradan qaldırıldı. Nə üçün? Çünki onların Əfqanıstandakı işğalçılıq fəaliyyəti başlamışdı, işğalçılıq müharibəsi başlamışdı və bizə ehtiyacları var idi. Nə qədər ki, onlar Əfqanıstanda qalmışdılar, hər il bu sanksiya Amerika Prezidenti tərəfindən qaldırılırdı. Onlar ki, Əfqanıstandan qaçdılar, – özü də bütün dünyanın gözü qarşısında, - bu sanksiyalar yenidən bizə qarşı tətbiq edildi. Bu nankorluğun dərəcəsi var, yoxsa yox?! Yəni, biz sizə lazım olanda sən bu sanksiyaları aradan qaldırırsan, biz sizə lazım olmayanda yenidən bərpa edirsən. Nə üçün? Bax buna görə, buna görə, bu binaya görə. Bunun kimi bütün bölgələrdə inşa etdiyimiz, bərpa etdiyimiz keçmiş köçkünlərimizin yaşayış yerlərinə görə. Bax, onların gözü bunu götürmür, bu günü götürmür. Bugünkü gün anti-Azərbaycan qüvvələr üçün yas günüdür, matəm günüdür”.

Göründüyü kimi, Prezident İlham Əliyev hazırda anti-Azərbaycan, ermənipərəst qüvvələrin, dünya erməniliyinin düşdüyü durumla bağlı son dərəcə doğru təsbit müəyyənləşdirib. Onlar, sözün əsl mənasında, yas və matəm içərisindədirlər. Onlar, həmçinin Azərbaycanın heç kəsdən icazə almadan öz əzmini ortaya qoymasını həzm edə bilmirlər, hiddətləri yerəgöyə sığmır. Dövlətimizin başçısı bununla əlaqədar məqamları da açıqlayıb və xalqa həqiqəti görmək, dərk etmək və düzgün nəticə çıxarmağın, dostu düşməndən ayırmağın vacibliyi mesajını verib: “Bizim dostumuz odur ki, bu günə sevinir. Mən bunu bir neçə gün bundan əvvəl demişəm. Bu günə məyus olan və bu günü qəbul etməyən heç vaxt bizim dostumuz ola bilməz, bunu Azərbaycan xalqı bilməlidir. Açıq demək lazımdır, yəni diplomatik dillə qoy, diplomatlar danışsın. Mən Azərbaycan xalqına həmişə həqiqətləri demişəm, bütün dövrlərdə və bu gün də həqiqət bundan ibarətdir. Ancaq biz öz gücümüzə arxalanmalıyıq və heç bir vədlərə, heç bir şirin sözlərə, yalançı ifadələrə aldanmamalıyıq. Xüsusilə mən gənc nəsli nəzərdə tuturam. Çünki bu gün anti-Azərbaycan qüvvələrin əsas hədəfi gənc nəsillərin şüurudur. Ona təsir etməyə çalışırlar. Ona görə Azərbaycana qarşı olmazın yalanlarını uydururlar, tirajlayırlar, öz mətbuatlarında, öz “qeyri-hökumət təşkilatları”nda. Anti-Azərbaycan mövqeyində olan müxtəlif ünsürləri bu günə qədər də maliyyələşdirirlər Azərbaycanda, müxtəlif QHT-lər adı altında, hansısa ictimai qurumlar adı altında”.

Bu gün Ermənistanı kütləvi şəkildə silahlandırırlar. Adını ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, erməni əhalinin təhlükəsizliyinin təminatına dəstək və sair qoyurlar. Ancaq məlumdur ki, məqsəd Cənubi Qafqazdakı erməni avantürizmini gücləndirməkdir. İstəkləri Azərbaycana qarşı həmin avantürizmdən bəhrələnmək, ölkəmizi daim təzyiq altında saxlamaq, nəticədə qeyri-bərabər öhdəliklər götürməyimizə nail olmaqdır. Dövlətimizin başçısının növbəti mesajı da bu yolu tutanlaradır: “Bu gün Ermənistanı silahlandıran Qərb ölkələri görəsən nə fikirləşirlər? Hesab edirlər ki, biz buna göz yumacağıq? Yoxsa ki, biz gözləyəcəyik ki, bax, bu binalar da bu günə düşsün? Xeyr, gözləməyəcəyik. Heç kim bizi çəkindirə bilməz. Biz öz gələcək inkişafımızı, təhlükəsiz həyatımızı təmin etməliyik və təmin edəcəyik!”

Prezident İlham Əliyevin xəbərdarlıq məntiqinin növbəti hədəfi məhz Ermənistanın özüdür. Dövlətimizin başçısı ölkənin, obrazlı desək, təhlükəli sularda üzdüyünü vurğulayır. Yada salaq ki, ölkəmizin lideri xalqa ötən ilin sentyabrında keçirilmiş lokal xarakterli antiterror tədbirlərindən sonrakı müraciətində Cənubi Qafqazı sülh və əməkdaşlıq məkanı kimi görməklə bağlı çağırış səsləndirmiş, eyni zamanda, bölgəni daimi konfrantasiyalara çevirmək istəyən, Ermənistanı bu baxımdan alət edənlərə səslənmişdi. Prezident Əliyev Cəbrayıl sakinləri ilə görüşündə də eyni məntiqi qabardıb. Bu məntiqdə İrəvana xəbərdarlığın səslənməsi təbiidir: “Mən Ermənistana da bax, burada, dağıntılar arasında xəbərdarlıq edirəm: dayandırın bu təhlükəli oyunları! Bir tərəfdən sülhdən danışırlar, yalan-palan danışırlar, digər tərəfdən genişmiqyaslı silahlanma gedir. Silahları da kim verir onlara? Fransa və onun kimi anti-Azərbaycan ölkələr. O silahlar nə üçün onlara pulsuz verilir? Yəni, dediyim kimi şəhər-kəndlərimizi yenə də bax, bu vəziyyətə salmaq üçün. Nə qədər çalışsalar da, heç nə alınmayacaq. Ancaq bu gün Cənubi Qafqazı rahat buraxsınlar, əl çəksinlər, getsinlər öz işləri ilə məşğul olsunlar, öz problemləri ilə məşğul olsunlar, öz qanlı keçmişlərini yusunlar, öz günahlarını yumağa çalışsınlar. Bu gün əzab verdikləri 100 minlərlə insanın müstəqilliyini bərpa etsinlər, müstəmləkəçilik siyasətinə son qoysunlar, xalqları əzməsinlər, hər yerə burunlarını soxmasınlar. Xəbərdarlığım budur və hesab edirəm ki, bunu eşidən və buna əməl edən səhv etməz”.

Sonda bildirək ki, Prezident İlham Əliyevin Ermənistana xəbərdarlığında 44 günlük müharibəni və lokal xarakterli antiterror tədbirlərini yada salmasında böyük anlam var. Məsələ ondadır ki, İrəvan ona verilən silah-sursatların fonunda illüziya bataqlığındakı yerini möhkəmləndirir, xislətinə xas olaraq yalmanmaq yolu tutur, yeni hamilər tapır və Azərbaycana qarşı mübarizəyə həvəslənir. Bakının heç nəyə baxmayaraq, heç bir qüvvədən çəkinmədən məqsədinə nail ola biləcəyinə əminlik formalaşdıran dövlətimizin başçısının bu fikirlərini nəzərə çatdırır və yazımızı tamamlayırıq: “Əgər Cəbrayılı, şəhəri azad etmək üçün bizə bir həftə lazım idisə, Qarabağı 44 günə azad etmişiksə, separatçıların yuvası olan o bölgələri cəmi bir neçə saat ərzində azad etmişik. Bizimlə heç kim zarafat etməsin və səbrimizlə də oynamasın. Mən bu sözləri istənilən yerdə deyə bilərdim. Çünki yenə də deyirəm, Azərbaycan xalqına həmişə həqiqətləri deyirəm, fikirlərimi deyirəm. Dünyada vəziyyət dəyişir. Əlbəttə ki, bizim də hadisələrə münasibətimiz adekvat olmalıdır. Ancaq hesab etdim ki, mən bu sözləri bax, bu dağıntılar və bu gözəl binalar arasında deməliydim ki, onu həm Azərbaycan xalqı eşitsin, həm bizim dostlarımız eşitsin və bir daha bizim Qələbəmizə sevinsin, düşmənlərimiz də eşitsin və düzgün nəticə çıxarsın”.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**Zəfər marafonunun 10-cu günü**



# Vətən müharibəsinin xronikası: [illegible]

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan “Dəmir yumruq” adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərfərlə yazıldı.**

• *Müdafiə Nazirliyinin məlumatına görə, Azərbaycan Ordusunun əks-hücum əməliyyatı zamanı müxtəlif istiqamətlərdə düşmənin zirehli texnikaları, atəş dəstək və təminat vasitələri darmadağın edilib. Ermənistan silahlı qüvvələrinin 63-cü tank taborunun daha 3 tankı, o cümlədən 41-ci və 62-ci artilleriya alaylarının 4 ədəd BM-21 Qrad yaylım atəşli reaktiv sistemi məhv edilib. Düşmənin 42-ci artilleriya alayının atəş mövqeyində yerləşdirilən D-20 artilleriya qurğuları və onların heyətləri zərərsizləşdirilib.*

Ballıca məntəqəsində yerləşən mərkəzi silah-sursat anbarı məhv edilib. Cəbrayılda düşmənin xeyli sayda silah-sursat, döyüş və avtomobil texnikası qənimət götürülüb. Azərbaycan Ordusunun uğurlu əməliyyatları nəticəsində Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəklik azad olunub.

Azərbaycan Ordusunun əks-hücum əməliyyatı zamanı müxtəlif istiqamətlərdə düşmənin zirehli texnikaları, atəş dəstək və təminat vasitələri darmadağın edilib. Ötən müddətdə düşmənin 63-cü tank taborunun daha 3 tankı, o cümlədən 41-ci və 62-ci artilleriya alaylarının 4 ədəd BM-21 Qrad yaylım atəşli reaktiv sistemi məhv olunub. Düşmənin 42-ci artilleriya alayının atəş mövqeyində yerləşdirilən D-20 artilleriya qurğuları və onların heyətləri zərərsizləşdirilib.

İşğalçının Ballıca məntəqəsində yerləşən mərkəzi silah-sursat anbarı məhv edilib. Cəbrayılda düşmənin xeyli sayda silah-sursat, döyüş və avtomobil texnikası qənimət götürülüb. Hadrutda yerləşən 1-ci motoatıcı alayının müdafiə sahəsində silah-sursat, ərzaq və yanacaq çatışmazlığı yaranıb. Alayın 3-cü taborunun şəxsi heyəti döyüş mövqelərini özbaşına tərk edərək qaçıb. Eyni zamanda, hərbi hissənin sürücüləri də döyüş və avtomobil texnikalarını ataraq əməliyyat zonasından uzaqlaşıblar. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan Bayrağı sancılıb.

Müdafiə Nazirliyindən bildirilib ki, Azərbaycan Ordusunda tibbi təminat, təchizat və qan komponentləri ehtiyatı ilə bağlı heç bir problem yoxdur. Silahlı Qüvvələrin Baş Klinik Hospitalı zəruri ehtiyaclar tam təmin edir.

Cəbhə boyu sıxışdırılan düşmən artıq bir neçə gündür ki, Ermənistan ərazisindən şəhər və rayonlarımızda əhalinin kompakt olduğu yerlərə, mülki infrastruktura sistemli şəkildə raket zərbələri endirir. Düşmən Gəncə, Mingəçevir, Beyləqan, Horadiz, Tərtər, Ağcabədi, Bərdə, o cümlədən Tərtər, Goranboy və Göygöl rayonlarını raket və artilleriya atəşinə tutur. Azərbaycan Hava Hücumundan Müdafiə Qüvvələrinin radiolokasiya sistemlərinin texniki vasitələri Ermənistanın Cermuk, Qafan və Berd rayonları ərazisində yerləşən start mövqelərindən Azərbaycan ərazisinə atılan raket buraxılışlarını qeydə alır. Ermənistanın bu müharibə cinayətləri məqsədyönlü şəkildə Azərbaycanı cavab tədbirləri görməyə təhrik edir.

Erməni KİV-lərinin dezinformasiyaları Azərbaycan tərəfindən iflic edilən işğalçı ordunun şəxsi heyətini, eləcə də təşviş və kütləvi psixoz vəziyyətində olan Ermənistan əhalisini yanlış yöndə istiqamətləndirir. Ermənistan yüksək çinli məmurlarının yalan və iftiraları məsələni daha da alovlandırır. Düşmənin ordu komandanlığı işğal edilən ərazilərdə nəzarəti itirməsinə, həmçinin məğlubiyyətin qaçılmaz olduğunu dərk etməsinə baxmayaraq, qeyri-insani xislət nümayiş etdirir və sanki vətəndaşlarının tələf olmasını istəyir.

• *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Rusiyanın “Pervıy Kanal” televiziyasına müsahibə verib. Dövlərimizin başçısı müsahibədə müxbirin “Azərbaycan və Ermənistanın danışıqlar masası arxasında əyləşməsi üçün nə baş verməlidir” sualına cavabında deyib: “İlk növbədə, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə – erməni işğalçı qüvvələri Azərbaycanın ərazilərini ələ keçirdikləri dövrdə qəbul edilmiş 4 qətnaməsi yerinə yetirilməlidir. Bu qətnamələrdə təcavüzkara çox dəqiq siqnal göndərilir. Orada yazılıb ki, işğal olunmuş ərazilərin dərhal, qeyd-şərtsiz və tamamilə qaytarılması təmin edilməlidir. O vaxtdan 27 il keçib. Erməni tərəfi həmin qətnamələri yerinə yetirmir, onlara məhəl qoymur və hər vasitə ilə münaqişəni mümkün qədər çox, mümkün qədər uzun müddətə dondurmağa çalışır. Status-kvonun qəbuledilməz və dəyişdirilməli olması barədə beynəlxalq ictimaiyyətin, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin bütün çağırışları havada qalır. Buna görə ermənilərin mövqeyi tarixi yalana, beynəlxalq hüququn norma və prinsiplərinin pozulmasına əsaslandığı halda, bizim mövqeyimiz beynəlxalq hüququn norma və prinsiplərinə, tarixi ədalətə əsaslanır. Əminəm ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri Ermənistan tərəfindən yerinə yetirilən, Ermənistan öz qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasına razılıq verən kimi hər iki tərəf qısa müddətdə razılığa gələ bilər. Bu razılıq Qafqazda sülhü bərqərar edər”.*



• *Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xüsusi xidməti müşavirə keçirilib. Müşavirədə əks-hücum əməliyyatında mövcud vəziyyət təhlil olunub, qoşunlara azad olunmuş ərazilərdə həyati əhəmiyyətli və ilkin zəruri tədbirlərin görülməsinə dair göstəriş verilib.*

• *Müdafiə Nazirliyi döyüşlərdə Ermənistan silahlı qüvvələrinin hərbçilərinin atıb qaçdığı və bölmələrimizin məhv etdiyi düşmənin silah və hərbi texnikalarının videogörüntülərini paylaşıb.*

• *Baş Prokurorluğun məlumatına görə, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində həlak olmuş şəxslərin sayı 27-yə, xəsarət alanların sayı isə 141-ə çatıb.*

• *Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi dünyanın bütün ölkələrinin Konstitusiya məhkəmələrinə bəyanatla müraciət ünvanlayıb.*

# Milli ideya və millət ideyası



## III MƏQALƏ

### Qlobal geosiyasət və milli ideya

Öncəki məqalələrdə aparılan təhlillər göstərir ki, hər bir toplumda milli ideyanın məzmunu, forması və strateji hədəfi ölkənin keçdiyi tarixi, sosial-mədəni təkamül yolundan birbaşa asılıdır. Bundan başqa, geosiyasi özəlliklər milli ideyanın formalaşması və məqsədi baxımından mühüm rol oynayırlar.

Azərbaycanda milli ideyanın formalaşmasında vurğulanan amillərin yeri və rolunu fəlsəfi dərk etmək üçün qısa da olsa, müstəqilliyin əldə edilməsi mərhələsində qlobal geosiyasətin Cənubi Qafqaza təsirinin bir sıra aspektlərinə nəzər salmaq lazımdır. Çünki regional və hətta, keçmiş Sovet İttifaqı miqyasında yaranmış geosiyasi dinamika və mənzərə haqqında dəqiq təsəvvür əldə etmədən milli ideyanın hansı səbəblərdən və necə formalaşdığının və yeni tarixi mərhələyə keçidin fəlsəfəsinə vara bilmərik. Burada məsələyə Azərbaycan reallıqları ilə geosiyasi proseslərin qarşılıqlı əlaqəsi kontekstində vahid mövqedən yanaşmaq lazımdır.

Keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın müstəqillik əldə etməsi zamanı respublika kifayət qədər mürəkkəb geosiyasi dinamikanın təsiri altında idi. Bir tərəfdən SSRİ-nin dağılmasının yaratdığı siyasi ziddiyyətlər çox idi. Azərbaycan üçün bu, əsas olaraq havadarları tərəfindən yönəldilən və ciddi yardım alan Ermənistanın (məsələ yalnız hərbi dəstəklə bağlı deyildi – burada müxtəlif sahələr üzrə lobbiçilik, ideoloji, siyasi, hərbi, iqtisadi, maliyyə, diplomatik və s. dəstəkdən söhbət gedir) sərhəd tanımaq istəməyən təcavüzü ilə bağlı idi. Özü də erməni təcavüzkarlığını həm Qərb, həm də Rusiya eyni canfəşanlıqla qızışdırırdı.

Bu cür xarici təsyiqin fonunda o dövrün Azərbaycan rəhbərliyi səriştəsiz fəaliyyəti ilə vəziyyəti daha da ağırlaşdırırdı. Nəticədə Azərbaycan SSR qeyri-müəyyən, dolaşıq, riskli və dağıdıcı şərtlər daxilində müstəqil Azərbaycan Respublikasına çevrilmək kimi çətin bir vəzifə qarşısında qalmışdı.

Dövlətçilik baxımından, bu, əlverişsiz və riskli geosiyasi şəraitdə uğurlu müstəqil dövlət qurmağa nail olmaq demək idi. Təbii ki, həmin mərhələdə milli ideya deyilən bir məhfum Azərbaycanda konkret məzmunlaşdırılmamışdı.

### Müstəqil demokratik dövlətin milli ideyası

Belə alınır ki, XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan olduqca çətin, mürəkkəb və riskli geosiyasi mənzərə daxilində sovet respublikası olmaqdan müstəqil demokratik dövlət olmağa transfer etməli idi. Bu tarixi addım həm də daxildə separatçılığın vüsət alması fonunda baş verməli idi. Əlbəttə, öncə sabitliyə nail olmaqla separatizmi neytrallaşdırmaq gərəkdi. Paralel olaraq müstəqil dövlət üçün zəruri olan siyasi-hüquqi təsisatları müasir işlək səviyyədə formalaşdırmaq lazımdı. Bu proses sosial, iqtisadi və mənəvi-mədəni inkişafla müşayiət olunmalı idi. Eyni zamanda, elə bir ideoloji konsept yaratmaq lazım idi ki, cəmiyyəti bütövləşdirməklə yanaşı, dövlətçiliyin davamlı və perspektivli inkişafını təmin etsin.

Bununla, XX əsrin 90-cı illərinə qısa ekskurs göstərir ki, həmin dövrün geosiyasi dinamikası fonunda Azərbaycanda mürəkkəb və riskli reallıqlar meydana gəlmişdi. Bu reallığın təsiri, bütövlükdə, müstəqil dövlətçilik baxımından neqativ idi. Elə bir ümidverici dəyişmələr gözə dəymirdi. Lakin hələ vəziyyət tam ümidsiz deyildi. Azərbaycan xalqının iki qiymətli sərvəti vardı: tarixi-mədəni, sivilizasion ənənə, dövlətçiliyin dərin kökləri və zəngin liderlik ənənəsi!

Bu faktorların kompleks formada düzgün müəyyən edilmiş sistemli strateji fəaliyyətə fokuslanması xilas yolu ola bilərdi. Bunun üçün isə hər şeydən öncə, xalqa xilaskar lider lazım idi. Azərbaycan xalqı bu tarixi seçimini düzgün müəyyən etdi – Heydər Əliyevi özünə lider seçdi və müstəqil dövlətçiliyin taleyini Ulu öndərə həvalə etdi!

Heydər Əliyev 1993-cü il iyunun 15-də Milli Məclisdəki nitqi zamanı üzərinə düşən "böyük vəzifəni" yerinə yetirməyə çalışacağını və Azərbaycanın vəziyyətinin "ağır, mürəkkəb və gərgin" olduğunu vurğulamışdı. Ulu öndər bəyan etmişdi ki, "Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkisaf etdirməyi özüm ücün ən əsas vəzifələrdən biri hesab edirəm". Bu vəzifənin öhdəsindən gəlmək üçün isə Ulu öndər üç fundamental istiqaməti (və ya fəaliyyət aspektlərini) bəyan etmişdir.

"Dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında; müasir tələblərlə; dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır". Bunlar müasir mərhələdə həm milli ideyanın müəyyən olunması, həm də millət ideyasının inkişafı üçün tarixi tezislərdir. Onlar milli ideya və millətin öz inkişafı üçün əhəmiyyəti olan üç məqamı lakonik ifadə edirlər.

### Milli ideyada 3 məqamın sintezi

Birincisi, tarixi-mədəni və sivilizasiya faktorlarının kompleks nəzərə alınması fonunda dövlətçilik ənənəsidir.

İkincisi, müasir geosiyasi dinamikanın tələblərinə uyğunluqdur.

Üçüncüsü, dövlətçilik ənənəsi və müasir tələblərin sintezində, ümumiyyətlə, dünyada gedən proseslərin ciddi nəzərə alınmasıdır.

Birinci tezisdə dövlətçilik ənənəsi tarixi-mədəni aspektdə Azərbaycanda hər bir tarixi dönəmdə və mədəniyyət daxilində dövlətlərin yaranması və inkişafının qanunauyğunluqlarını diqqətə almağı ifadə edir. Sivilizasion aspektdə isə Heydər Əliyevin aşağıdakı məşhur fikirləri – "Azərbaycan həmişə müxtəlif sivilizasiyaların kəsişməsində mövcud olmuşdur, müxtəlif mədəniyyətləri və dinləri birləşdirmişdir"; zəngin mədəniyyətimizin formalaşmasına "müxtəlif mərhələlərdə həm zərdüştilik, yəhudi, xristian, həm də islam mədəniyyətlərinin təsiri olmuşdur" fikirləri baza rolunu oynayır.

Buradan məntiqi olaraq belə qənaət yaranır ki, Azərbaycanın milli ideyasının sivilizasion təməlini qədimdən formalaşmış multikultural dəyərlərin mövcud olması təşkil edir. Bütün tarixi dönəmlərdə Azərbaycanda kollektiv şüur və təfəkkürdə müxtəlif "sivil mem"lərin (burada "mem" termini hər sivilizasiyaya xas olan kodları ifadə edir) vəhdəti mərkəzi yer tutmuşdur.

Bu ənənəni uğurla müasir tarixi mərhələyə transfer edən Heydər Əliyev qlobal miqyasda geosiyasi mənzərənin xüsusiyyətlərini də ciddi surətdə nəzərə almışdır. Həmin tezisin işığında milli ideyanın "ərazi bütövlüyünün təmini" kimi müəyyən edilməsinin özündə tarixi, mədəni, dövlətçilik ənənəsi, sivilizasion özünəməxsusluğu və mövcud geosiyasi dinamikanı Azərbaycan reallıqları kontekstində nəzərə alınmasının tarixi bir addım olduğu nəticəsini çıxara bilərik. Bu fikrin prizmasında 1993–2003-cü illər müddətində Azərbaycanda milli ideyanın reallaşması və yeni "millət" ideyasının inkişaf etdirilməsi aspektində əldə edilən nailiyyətlər maraqlıdır. Bu cür yanaşma, təbii ki, problemə tarixiliklə müasirliyin kəsişməsi "zonasında" dövlətçilik şüuru işığında baxmağı tələb edir. Azərbaycanı həmin kontekstdə Avropa ölkələrindən fərqləndirən cəhət ondan ibarətdir ki, millət ideyası və milli ideyanı dini doktrina çərçivəsində deyil, dünyəvi tarix, sosial, mədəni, sivil və geosiyasi reallıqlar kontekstində müəyyən etdi. Burada Avropa ölkələri ilə qısa müqayisə aparmaq yerinə düşərdi.

### İspaniyada milliyyətçi katolisizm

İspaniyalı araşdırmaçılar (tarixçilər, tarixşünaslar, filosoflar və b.) hələ VI əsrdən İspaniyada katolisizmin ispan millətinin tərifində əsas yer aldığını yazırlar. O dövrdə milli ideya belə idi: "Tanrı ispan xalqını dünyada ilahinin planlarını həyata keçirmək üçün yaratmışdır".

XVI əsrdə isə ispan milləti, milli ideyası və millətçiliyi tam olaraq katolisizmlə eyniləşdirildi. Yəni artıq ideoloji səviyyədə belə bir inam vardı ki, Tanrı ispanları katolikliklə "ittifaqda" yaratmışdır, yəni bu əbədi vəhdət pozulmamalıdır. İspan tarixçilər bunu İspaniyada milliyyətçi katolikliyin sistem kimi başlanğıcı sayırlar.

XVIII əsrdə maarifçiliyin yayılmasına qədər İspaniya tam olaraq milli ideya və millət ideyasını katoliklik çərçivəsində qəbul etmişdir. Maarifçilik ənənəvi "antiispan şüuru" formalaşdırmağa başladı. Lakin ispanlar buna tezliklə sərt reaksiya verdilər.

İspan tarixçisi Xose Lusi Rordigers Himenes yazır ki, XIX əsrdə "korrupsiyalaşmış doktrinlərlə zəhərlənmiş" ispanları "yenidən xristianlaşdırmaq" üçün "ənənəvi institutların bərpası" uğrunda mübarizə başladı. İspan tarixçinin fikrinə görə, bu, milliyyətçi katolisizmi ideologiya kimi deyil, mentalitet olaraq qəbul etmək idi ki, o zamandan ispan ənənəviçiliyinin aksiomlarından biri kimi təsəvvür edilməkdədir. Bu cür yenilşmənin mənası isə ispan milli ideyasını tamamilə "dini faktora tabe etmək" və "İspaniyanın tarixi taleyinin dünyada katolisizmi müdafiə və təsdiq etməklə bağlıdır" mövqeyinə gətirməkdən ibarət idi.

Nəhayət, 1939–1975-ci illərdə İspaniyada rəhbər olan Fransisko Franko katolizismi tam olaraq "ispan milləti" ideyası və ispan milli ideyasının müəyyənedicisi səviyyəsində doktrin halına gətirdi. Onun başlıca xüsusiyyəti katolik kilsəsinin cəmiyyətin həyatında (həm də şəxsi həyatda) hegemonluğunu təmin etməkdən ibarət idi. Alimlər qeyd edirlər ki, F.Franko, hətta, təhsil sistemini katolikləşdirmişdi və onu tam siyasi rejimə tabe etmişdi.

XXI əsrdə Avropa ölkələrində bu prosesin davam etdiyini avropalı tədqiqatçılar vurğulayırlar. Məsələn, 2000-ci ildən başlayaraq İspaniyada "tarixi yaddaş"ın bərpası və yenidən məzmunlaşdırılması ilə bağlı diskussiyaların vüsət aldığını qeyd edirlər.

2005-ci ildən isə katolik separatizmi və bask identikliyi ilə bağlı proseslərin genişlənməsi ilə ispan fəlsəfi-elmi camiyəsində daha dərindən fikir ayrılıqları başlamışdır. Əksər araşdırmaçılar cəmiyyətin bütövlüyünü saxlamaq üçün milliyyətçi-katolik mövqeyə qayıtmağa üstünlük verirlər.

### Azərbaycanın dünyəvi milli ideyası

Avropa ölkələri ilə bağlı vurğuladığımız fikirlərdən fərqli olaraq Azərbaycanda müasir dövlətçilik şüuru sekulyar faktorlar üzərində məzmun almışdır. Burada azərbaycançılıq, tarixi ədalət, multikulturalizm, vətənsevərlik, milli ləyaqət və hüquq ayrıca yer tutur. Milli ideyanın ərazi bütövlüyünün təmini kimi müəyyən edilməsində də bu faktorlar mühüm rol oynayır. Azərbaycan bununla tarixi ədaləti bərpa etməli, milli ləyaqəti yenidən aktuallaşdırmalı, suverenliyi tam təmin etməli, gənclərin vətənsevərliyində milli ilə beynəlmiləlin sintezinin inkişaf etdirilməsinə nail olmalı və beynəlxalq hüquq normalarını regionda təmin etməli idi. Bütün bunların hamısına Azərbaycan Respublikası dövləti nail oldu. Bizim "Xalq qəzeti"ndə milli ideya ilə bağlı dərc edilmiş silsilə məqalələrdə məsələnin bu aspekti təhlil edildiyindən üzərində dayanmırıq.

Sonda onu vurğulayaq ki, Prezident İlham Əliyev yeni tarixi mərhələ üçün bəyan etdiyi milli ideyanı artıq konseptual tezisləri və praktiki fəaliyyəti ilə reallaşdırır. Dövlət başçısı II Qarabağ savaşından sonra müxtəlif kontekstlərdə ifadə etdiyi fikirlərdə Böyük millət quruculuğu prosesinə də start vermişdir. Bu o deməkdir ki, yeni tarixi mərhələdə milli ideya və millət ideyası bir-biri ilə vəhdətdə gerçəkləşəcəklər. Azərbaycan Prezidenti, Azərbaycan intellektualları və Azərbaycan cəmiyyəti bu vəzifənin öhdəsindən gəlməyə qadirdir.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Milli Məclisin bir qrup deputatı xarici işlər naziri Ceyhun Bayramova müraciət edib

*(əvvəli 1-ci səhifədə)*

"Azərbaycanda həll olunmamış ərazi münaqişələri" dedikdə konqresmenlər nəyi nəzərdə tutur? Qarabağ münaqişəsi həll olunmuşdur. Azərbaycan xalqı, Azərbaycan dövləti Qarabağ münaqişəsini həll etmişdir və Azərbaycandan min kilometrlərlə uzaqlarda oturanların fərqli fikirləri reallığı dəyişmir. Azərbaycan xalqı əbədi olaraq Qarabağ və Şərqi Zəngəzura dönmüşdür və reallıq bu gün Cəbrayılda keçmiş məcburi köçkünlər üçün inşa edilmiş evlərdir, öz dədə-baba yurdlarına qayıdan azərbaycanlılardır.



Məgər konqresmenlər bilmirlər ki, onların "Dağlıq Qarabağın siyasi liderləri" kimi təqdim etdikləri şəxslər müharibə caniləridir, Xocalı cəlladlarıdır, silah dəllalları, maliyyə fırıldaqçıları, əli hər cür çirkin işlərə bulaşmış oliqarxlardır?! Niyə ABŞ Xocalı soyqırımını törətməklə qürrələnənləri müdafiə edir, separatçılara viza verir, onlara qucaq açır?! Bu caniləri azad etməyə çağıranlar bircə dəfə olsun 30 ildən artıqdır ki taleyi bilinməyən 4 min azərbaycanlı itkinlə bağlı səsini çıxardırmı?!

Konqresmenlərin "demokratik" ölkə hesab etdiyi Ermənistan 30 il başqa ölkənin ərazisini işğalda saxlamış, etnik təmizləmə törətmiş, milli müstəsnalıq xəstəliyinə tutulmuş, indinin özündə də hərbi caniləri mühakimə etməmiş, əksinə onları qəhrəmanlaşdırmış bir ölkədir.

Bir daha xatırladaq ki, Azərbaycan tərəfi həmişə ikitərəfli münasibətlərin irəli aparılması üçün səbr və təmkin nümayiş etdirərək, iki ölkə arasında qarşılıqlı maraq doğuran məsələlər üzrə tərəfdaşlığı davam etdirmək və inkişaf etdirmək xəttini tutmuşdur. Azərbaycan daha çox ABŞ-ni maraqlandıran beynəlxalq təhlükəsizlik məsələləri üzrə əməkdaşlıqda fəal iştirak etmiş, ABŞ-nin xahişi ilə NATO-nun əməliyyatlarına töhfə vermiş və həmin əməliyyatlarda ləyaqətlə iştirak etmişdir. Bir sözlə, Azərbaycan tərəfi ABŞ ilə iki ölkə xalqlarının maraqlarına və BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun olaraq mehriban münasibətlər qurmaq və inkişaf etdirmək üçün məsuliyyətli və konstruktiv şəkildə davranmışdır.

Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycanın məsuliyyətli və təmkinli davranışlarının müqabilində ABŞ müstəqilliyimizi bərpa etdiyimiz ilk gündən etibarən qeyri-konstruktiv davranmışdır. Bədnam 907-ci düzəlişin qəbul edilməsi ilə başlayan anti-Azərbaycan tədbirlərinin ardı-arası kəsilmir. Bu həmin ABŞ-dir ki, Xocalı soyqırımının törədilməsindən, Şuşanın, Laçının işğal edilməsindən sonra Ermənistana deyil, Azərbaycana qarşı sanksiya tətbiq etdi. ABŞ son 30 ildə Azərbaycan xalqına qarşı Ermənistan tərəfindən törədilən müsibətlərə, Azərbaycan ərazilərinin işğalına, Ermənistan ərazisindən və işğal olunmuş Azərbaycan torpaqlarından bir milyondan çox azərbaycanlının qovulmasına, Azərbaycanın mədəni irsinin kütləvi şəkildə dağıdılmasına, Azərbaycanın yüzlərlə şəhər və kəndinin viran qoyulmasına və ərazilərimizdə milyonlarla minanın basdırılmasına göz yummuşdur. ABŞ faktiki olaraq Ermənistanı işğal və etnik təmizləməni davam etdirməyə təşviq etmişdir.

Azərbaycan öz ərazilərini Ermənistanın işğalından azad edərək münaqişəni həll etdikdən sonra isə ABŞ münaqişəni yenidən alovlandırmaq üçün hərəkətə keçmişdir. ABŞ və onun təşəbbüsü ilə bir sıra digər dövlətlər Ermənistana böyük məbləğdə maliyyə yardımı ayırmış, bunun sayəsində Ermənistanın yenidən silahlanması təmin edilmiş və bu ölkəni sülh danışıqlarında qeyri-konstruktiv mövqe tutmağa cəsarətləndirmişdir. ABŞ, Avropa İttifaqı və Ermənistanın 5 aprel 2024-cü ildə Brüsseldə keçirdiyi görüşdə faktiki olaraq Ermənistana yeni müharibə tapşırığı verilmişdir. Bununla da ABŞ Cənubi Qafqaza geosiyasi rəqabət gətirir, regionda ayırıcı xəttlər yaradır.

Bu kontekstdə, ABŞ Konqresi üzvlərinin dövlət katibi Entoni Blinkenə etdiyi müraciət bu ölkənin ikitərəfli münasibətlərin rəvan şəkildə davam etdirilməsində maraqlı olmadığını göstərir.

Azərbaycan tərəfinin ikitərəfli münasibətləri davam etdirmək əzmini qeyd etməklə bərabər vurğulamaq istərdik ki, bu yalnız bir tərəfin səyləri ilə mümkün deyil. Qarşılıqlılıq prinsipini və ikitərəfli münasibətləri məntiqi müstəviyə qaytarmaq məqsədini əsas götürərək hesab edirik ki, ABŞ tərəfinin sözügedən addımlarına cavab verməyin vaxtı çatmışdır. Dövlət Departamentini Azərbaycana və onun Prezidentinə təzyiq göstərməyə çağıran konqresmenlərə xatırladırıq ki, xüsusilə 2020-ci ildən sonra baş verən hadisələr bir daha onu göstərdi ki, Azərbaycan heç vaxt hansısa təzyiqə, böhtana boyun əyməyib və heç bir iftira, heç bir hədə onun iradəsinə zərrə qədər belə təsir edə bilməz. Əksinə bu kim əməllərlə ABŞ Azərbaycan cəmiyyətində onsuz da dibə enən nüfuzunu daha da itirir. Bizim bu məktubumuz həm də Azərbaycan xalqının ABŞ-nin ikili standartlarına, yalançı dəyərlərinə olan hiddətini ifadə edir. Regionun ən güclü dövlətinə qarşı belə ədalətsiz, gülünc ittihamlar, hədələr həm də məktuba imza atan konqresmenlərin səbatsızlığını göstərir.

**Bununla əlaqədar olaraq, Sizdən Azərbaycan və ABŞ arasında münasibətlərin yenidən nəzərdən keçirilməsi üçün aşağıdakı addımları həyata keçirməyi xahiş edirik:**

- Azərbaycan və ABŞ arasında qüvvədə olan müqavilələrə, ələlxüsus, 1997-ci ildə imzalanmış "Azərbaycan Respublikası və ABŞ arasında gələcək hərbi və müdafiə əlaqələri haqqında" Birgə bəyanata və 2013-cü ildə imzalanmış "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında avadanlığın alınması və qarşılıqlı xidmət haqqında" Sazişə xitam verilməsi;
- Yeni müqavilələrin razılaşdırılması və qüvvədə olmuş müqavilələrin uzadılması üzrə danışıqların dərhal dayandırılması;
- ABŞ-nin Beynəlxalq İnkişafa Yardım Agentliyi (USAID) və ABŞ-nin qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycanda həyata keçirilən bütün layihələrin dayandırılması və yeni layihələrə icazə verilməməsi, eləcə də USAID-in ölkəmizdəki fəaliyyətinə son qoyulması.

**Müraciəti imzaladılar:**

***Qaya Məmmədov, Novruzəli Aslanov, Kamran Bayramov, Müşfiq Cəfərov, Kamal Cəfərov, Arzuxan Əli-zadə, Bəxtiyar Əliyev, Əziz Ələkbərov, Cavanşir Feyziyev, Sevinc Fətəliyeva, Tural Gəncəliyev, Ramid Namazov, Elçin Mirzəbəyli, Pərvanə Vəliyeva, İmamverdi İsmayılov, Mircəlil Qasımlı, Sevil Mikayılova, Rövşən Muradov, Rasim Musabəyov, Elşad Musayev, Elşən Musayev, Zaur Şükürov, Ceyhun Məmmədov, Elman Məmmədov, Razi Nurullayev, Rizvan Nəbiyev, Elman Nəsirov, Tənzilə Rüstəmxanlı, Fazil Mustafa, Şahin İsmayılov, Zahid Oruc, Sadiq Qurbanov, Arzu Nağıyev, Səbinə Salmanova, Məlahət İbrahimqızı, Bəhruz Məhərrəmov, Asim Mollazadə, Azər Kərimli, Naqif Həmzəyev, Günay Ağamalı, Anar Məmmədov, Səməd Seyidov, Tahir Mirkişili***

# Paris Frankofoniya təşkilatını anti-Azərbaycan platformasına çevirib

**Dörd il öncə, elə bugünlərdə Fransa və ABŞ başda olmaqla bəzi Qərb ölkələri torpaqlarını yağı düşməndən azad etmək üçün ölüm-dirim savaşı aparan ordumuzun müzəffər yürüşünü dayandırmaq üçün, necə deyərlər, dəridən-qabıqdan çıxırdılar. Onların bu məqsədə nail olmaq üçün atmadıqları siyasi-diplomatik addım və böhtan qalmadı. Müharibənin gedişində Azərbaycan tərəfdən, guya, Suriyadan və Yaxın Şərqin digər yerlərindən olan muzdluların döyüşdüyünü də Fransa media orqanları uydurmuşdu. Rəsmi Paris həmin günlərdə ATƏT-in Minsk qrupunun digər həmsədrlərinə qoşularaq ölkəmizə qarşı BMT Təhlükəsizlik Şurasında qətnamə qəbul etdirməyə çalışırdı. Amma məlum olduğu kimi, onların cəhdləri heç bir nəticə vermədi və ordumuz başladığı işi uğurla sona çatdırdı.**



İkinci Qarabağ müharibəsindən sonra Parisin təqsiri üzündən Fransa–Azərbaycan münasibətlərində kəskin ziddiyyətlər yarandı. Fransanın bölgədəki strateji maraqları, neoimperialist gündəliyi və ölkə daxilində köklü erməni diaspor şəbəkələrinin təsiri Parisi açıq şəkildə erməni mərkəzli mövqe tutmağa vadar etdi. Həmin vaxtdan dörd il ötməsinə baxmayaraq, Fransa anti-Azərbaycan siyasətini daha kəskin, ciddi və sistemli şəkildə davam etdirir. Bu ziddiyyətlər özünü həm də ötən illər ərzində Parisin sözünün keçdiyi, təsir göstərə bildiyi bütün təşkilatlarda Azərbaycana qarşı müxtəlif sənədlərin qəbul olunmasına çalışmasında göstərir. Fransa BMT, Avropa İttifaqı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, ATƏT, NATO, UNESCO kimi təşkilatlar çərçivəsində Azərbaycan əleyhinə konkret addımlar atır və təşəbbüslər göstərir. Belə təşkilatlardan biri də Beynəlxalq Frankofoniya Təşkilatıdır (BFT).

Bugünlərdə Parisdə təşkilatın növbəti – XIX sammiti keçirilir. Onun işində Ermənistanın baş naziri Nikol Paşinyan da iştirak edir. Qeyd edək ki, BFT əsası 1970-ci ildə qoyulan fransızdilli ölkələrin beynəlxalq təşkilatıdır. Onun sıralarında 54 ölkə, dövlətləri və hökumətləri təmsil edən 7 assosiativ üzv, həmçinin 27 müşahidəçi üzv təmsil olunur. Təşkilatın mənzil-qərargahı Parisdə yerləşir. BFT-də təmsil olunmaq üçün əsas meyar bu və ya digər dövlətin əhalisinin fransız dilini bilmə dərəcəsidir. Məlumdur ki, bədnam qonşumuz fransızdilli ölkə deyil. Belə olan təqdirdə Ermənistan ən yaxşı halda BFT-də müşahidəçi ölkə ola bilərdi. Ermənistanın fransızdilli ölkə olmamasına rəğmən təşkilata tamhüquqlu üzv qəbul edilməsi "Fransa ilə onilliklər və hətta, əsrlər boyu inkişaf etmiş mədəni əlaqələrin mövcudluğu" ilə əsaslandırılıb. Digər fransızdilli ölkələr qala-qala BFT-nin XVII sammiti 2018-ci ilin oktyabrında İrəvanda keçirilmişdi.

BFT dörd əsas məqsədə uyğun olaraq, ümumilikdə, 88 dövlət və hökumətə öz siyasətlərini həyata keçirmək və ya möhkəmləndirmək, beynəlxalq və çoxtərəfli əməkdaşlıq etməkdə dəstək verir. Bunlar fransız dilinin təbliğ edilməsi, çoxdilliliyin və mədəni müxtəlifliyin dəstəklənməsi, sülhün, demokratiyanın və insan haqlarının təşviqi, orta təhsil, təlim, ali təhsil və tədqiqatların dəstəklənməsi, davamlı inkişafın xeyrinə iqtisadi əməkdaşlığın inkişafıdır. Ancaq Fransa özfəaliyyəti ilə təşkilatı ilkin məqsədindən uzaqlaşdırmağa, onu daha bir anti-Azərbaycan platformasına və özünün məkrli siyasətinin alətinə çevirməyə çalışır. Aydın görünür ki, Fransa BFT-dən sui-istifadə edir. Təşkilatın son zirvə görüşlərinin yekun sənədinə Azərbaycanla bağlı bəndin daxil edilməsi artıq ənənə halını alıb. Hərçənd ki, heç də həmişə istədiklərinə nail ola bilmirlər. Məsələn, bundan öncə – 2022-ci ilin noyabr ayında qurumun Tunisdə keçirilən sammitində, ölkəmizin üzv olmadığı bir təşkilatda Fransa və Ermənistanın bütün səylərinə baxmayaraq, irəli sürülmüş qətnamədə Azərbaycan əleyhinə bəndlərin əksəriyyəti rədd edilmiş və qətnamə üzrə səylər istənilən nəticəni verməmişdi. Həmin dövrdə bunun qarşısını alan dost Albaniya dövləti olmuşdu.

Prezident İlham Əliyev 2023-cü il iyulun 7-də Bakıda Albaniya Prezidenti Bayram Beqayla birgə mətbuat konfransında bu məsələyə toxunaraq dedi: "Ötənilki Frankofoniya sammitində Azərbaycana verdiyi dəstəyə görə mən cənab Prezidentə və Albaniya hökumətinə artıq öz minnətdarlığımı bildirdim. O vaxt Frankofoniya təşkilatının üzv dövlətlərindən biri yekun sənədə bir bənd əlavə etmək və qəbul etdirməyə cəhd göstərdi. Bu, anti-Azərbaycan mahiyyəti olan bənd idi. Məhz Albaniya həmin bəndin qarşısını alan ölkə oldu". Həmin addımın dostluğun, eləcə də ölkələrin ərazi bütövlüyü və suverenliyi kimi beynəlxalq hüququn əsas prinsiplərinə qəti sadiqliyin təzahürü olduğunu vurğulayan dövlətimizin başçısı bildirdi: "Hətta, Azərbaycanın özünü müdafiə etmək fürsətinə malik olmadığı təşkilatlarda belə bizim Albaniya kimi qardaş ölkəmiz var və o, bu dəstəyi verdi. Buna görə, biz çox minnətdarıq".

Fransa və Ermənistan eyni əməllərə BTF-nin 2023-cü il noyabr ayında Kamerunda keçirilən nazirlər görüşündə də yol verməyə çalışdılar. Ölkəmizin həmin ilin sentyabr ayında həyata keçirdiyi antiterror tədbirlərindən sonra bütün beynəlxalq platformalarda ölkəmizə qarşı qarayaxma kampaniyası aparan Paris və İrəvan təşkilatın iclasında bəzi ilkin cəhdlər etsələr də, onların bu səyləri də heç bir nəticə vermədi. Kamerunda Azərbaycanın o dövrdə sədri olduğu Qoşulmama Hərəkatının BFT daxilində qrupunun təsis edilməsi, bu ölkələrin Azərbaycana göstərdiyi dost münasibət Ermənistanın səylərini boşa çıxardı. Nəticədə Paris–İrəvan cütlüyü Fransanın özünün qurub-yaratdığı təşkilatda da növbəti dəfə fiaskoya uğradı.

Ancaq bu da onlara dərs olmadı və nəyahət, BFT-nin Parlament Assambleyası bu ilin iyulunda Azərbaycanı "etnik təmizləmə"də ittiham edən qətnamə qəbul etdi. Dar çərçivədə qəbul edilmiş qərəzli və böhtan xarakterli qətnamə Ermənistan və Fransanın beynəlxalq hüquqa zidd siyasətləri üçün BFT-dən sui-istifadəyə davam etdiklərini göstərdi. Burada gündəmə gələn məsələlərdən biri də Ermənistanın bir tərəfdən sülhdən danışaraq, digər tərəfdən Azərbaycana qarşı belə pozuculuq əməlləri ilə məşğul olmasıdır. Elə dünən sammit çərçivəsində Belçikanın Baş naziri Aleksandr de Krua ilə görüşən Paşinyan "Azərbaycanın son günlərdəki aqressiv ritorikasından" həmkarına şikayət edib.

Ümumiyyətlə, BFT-nin sammiti ilə bağlı qeyd etmək lazımdır ki, müxtəlif müstəvilərdə Azərbaycana qarşı hibrid müharibə xarakteri alan addımlar atan Parisin "patronajlığı" ilə keçirilən bu tədbir regionda sülh və sabitliyə xidmət edə bilməz. Əksinə, bu sammitdən sonra Ermənistanın mövqeyindəki qeyri-konstruktivliyin güclənəcəyini ehtimal etmək olar.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri Fərid Şəfiyev mövzu ilə bağlı XQ-yə açıqlamasında bil-**



**dirdi ki,** sammit çərçivəsində dövlət və hökumət başçılarının keçirdikləri ikitərəfli görüşlərin nəticələri barədə hələlik rəsmi açıqlama yoxdur. Yəni, Fransanın başçılığı altında, necə deyərlər, bir çətir altına yığışanların ölkəmizə qarşı hansısa addım atıb-atmayacaqları məlum deyil. Ola bilsin ki, Azərbaycan əleyhinə hansısa addımlarınn atılması müzakirə olunub, amma bu, ictimailəşdirilməyib: "Amma bir məsələ aydındır. Beynəlxalq Frankofoniya Təşkilatının son illərdə keçirilən sammitləri zamanı Fransa anti-Azərbaycan məzmunlu sənəd qəbul olunmasına çalışır. Düşünürəm ki, budəfəki sammit də bu mənada istisnalıq təşkil etməyəcək. Yəni, tədbirin yekunlarına dair qəbul ediləcək ümumi bəyanat daxilində anti-Azərbaycan xarakterli bəndin olacağı gözlənilir".

F.Şəfiyevin sözlərinə görə, burada Fransa–Ermənistan sövdələşməsindən söhbət gedir və Beynəlxalq Frankofoniya Təşkilatı artıq Azərbaycana qarşı bir alətə çevrilir: "Qeyd etmək lazımdır ki, bəzi Afrika ölkələri buna qarşı çıxış edirlər. Amma kim çıxış edirsə, onu təşkilatdan çıxarırlar. Ümumiyyətlə, Parisin siyasəti ilə razı olmayan frankofon ölkələr – vaxtilə Fransa imperiyasının müstəmləkələri olmuş hazırkı müstəqil dövlətlər, məsələn, Niger, Burkina-Faso təşkilatdan çıxarılıb. Belə ölkələrin qurumdan çıxarılmasından sonra hansısa sənədin qəbul olunması məsələsində Fransanın imkanları genişlənib. Yəni, daha Parisə mane olan yoxdur. Bu da onu göstərir ki, Ermənistan sözdə sülhdən danışır, amma anti-Azərbaycan fəaliyyətini davam etdirir".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə dedi ki,** Beynəlxalq Frankofoniya Təşkilatı BMT, ATƏT kimi güclü qurum deyil.



Onun sözlərinə görə, BFT-nin qəbul etdiklərini sənəd adlandırmaq da doğru olmazdı: "BMT və ATƏT qətnamə, yaxud məcburiyyət xarakteri daşıyan hüquqi sənəd qəbul etmək gücündədir. Amma BFT-nin qəbul etdiyi bəyanatlar da ölkəmizə problemlər yarada, bu dövlətlərin anti-Azərbaycan siyasətini gücləndirə bilər. BFT sıralarında Azərbaycana dost olan ölkələr var. Onlar bir neçə dəfə Fransa–Ermənistan cütlüyünün ölkəmizə qarşı bəyanat qəbul etməsinə haqlı olaraq əngəl olublar. İndi isə onlar Parisdə toplaşaraq müzakirələr aparırlar. Ermənistan özünü bu quruma dürtüb. Guya, Ermənistan da fransızdilli ölkədir".

E.Şahinoğlu bildirdi ki, Fransa bu təşkilat vasitəsilə öz maraqlarını həyata keçirməyə çalışır. Amma BFT çərçivəsində Parisin çox böyük nəticələr əldə etməsi mümkün olmayacaq. Çünki beynəlxalq arenada bir çox məsələlər ikitərəfli əsasda qurulmuş müttəfiqlik çərçivəsində həll olunur. Hətta, Rusiya və Çinin formalaşdırdığı Şanxay Əməkdaşlıq Təşkilatı və BRICS-də belə bir çox dövlətlərin xarici və təhlükəsizlik siyasətində fərqli maraqları mövcuddur. Hindistan və Çin hər iki təşkilatın üzvüdür, amma fərqli maraqları var: "Eyni sözləri Beynəlxalq Frankofoniya Təşkilatı barədə də demək olar. Məsələ onlarca dövləti bir yerə yığmaqda deyil ki... Onların bir çoxu Fransanın müstəmləkəçilik siyasətindən əziyyət çəkən, Parisin siyasətinin əleyhinə olan Afrika ölkələridir. Bu, son illərdə "qara qitə"də baş verən hakimiyyət çevrilişləri və Fransa ilə əlaqələrdən imtinada da özünü göstərir. Yəni, fransız dilində danışmaq hələ bir çox dövlətin ortaq mövqedən çıxış etməsi anlamına gəlmir".

Fransanın müstəmləkəçilik siyasəti barədə də danışan politoloq bildirdi ki, əsrlər boyu böyük hərbi gücə malik dövlətlər imperiyalarını möhkəmləndiriblər və bu gücün tərkib hissəsi müstəmləkələr olub. Həmin siyasət İkinci dünya müharibəsinə qədər davam edib. Müharibədən sonra müstəmləkələrin öz müstəqlliklərini elan etmələri mərhələsi başlayıb. Nəticədə keçmiş imperiyalardan bir neçəsinin əlində bir neçə kiçik ada dövləti qalıb. Ancaq onlar da tədricən əldən çıxmağa başlayıb.

E.Şahinoğlu qeyd etdi ki, məsələn, Böyük Britaniya illərdir müstəmləkələrindən imtina siyasətinə üstünlük verərkən, Fransa, əksinə, müstəmləklərində hərbi və polis rejimini gücləndirir. Londondan fərqli olaraq, Parisin müstəmləkələrindən imtina etmək fikri yoxdur. Ancaq həmin müstəmləkələri nəzarətdə saxlamaq və oradakı insanların etirazı ilə mübarizə aparmaq Fransaya ildən-ilə baha başa gəlir...

**Səxavət HƏMİD**
**XQ**



# MDB-yə üzv dövlətlərin xüsusi xidmət orqanları rəhbərlərinin növbəti görüşü

**Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidmətinin məlumatında bildirilir ki, Oktyabrın 4-də Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində MDB-yə üzv ölkələrin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının 55-ci iclası keçirilmişdir. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyev də görüşdə iştirak etmişdir.**

Nümayəndə heyətlərinin rəhbərləri öncə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev tərəfindən qəbul edilmişdir. Daha sonra şuranın iclası işinə başlamışdır.

İclas çərçivəsində MDB ölkələrinin təhlükəsizliyinin məruz qaldığı xarici təsirlər, təşkilata üzv dövlətlərin üzləşdikləri təhdidlər, xüsusən də beynəlxalq terrorçuluğa və dini ekstremizmə qarşı aparılan birgə mübarizənin səmərəliliyinin artırılması barədə çıxışlar edilmiş və ətraflı fikir mübadiləsi aparılmışdır.

Bildirilmişdir ki, MDB məkanında yerləşən respublikaların təhlükəsizliyinə yönələn müasir çağırışlar, regionda sabitliyin pozulmasını qarşılarına məqsəd kimi qoymuş və bölgədə ümumi vəziyyətin gərgin saxlanılmasında maraqlı olan bəzi xarici dairələrinin kəşfiyyat-pozuculuq əməlləri ilə müşayiət edilən destruktiv fəaliyyət MDB ölkələrinin xüsusi xidmət orqanlarının daim ayıq-sayıq olmasını, səyləri birləşdirərək koordinasiyalı şəkildə işləməsini, əməkdaşlığın gücləndirilməsini, qazanılmış təcrübənin və əldə olunan əməliyyat məlumatlarının tərəfdaş qurumlar arasında mütəmadi bölüşülməsini zəruri edir.

Həmçinin qeyd olunmuşdur ki, təhlükəsizliyin təminatını ciddi risk altına alan transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, kibercinayətkarlıq, qeyri-qanuni miqrasiya kimi məsələlərin son zamanlar özünü daha qabarıq göstərməsi MDB ölkələrinin xüsusi xidmət orqanlarının bu hallara qarşı getdikcə daha kəsərli addımlar atmalı olduğunu şərtləndirir.

Tədbirin gedişatında mənfi təzahürlərlə mübarizədə təhlükəsizlik təşkilatlarının qarşısında duran mühüm vəzifələr və gələcəkdə həyata keçirilməsi vacib olan tədbirlərə dair geniş müzakirələr aparılmışdır.

**XQ**

# Fransanın COP29 bədxahlığı bəşəri təxribatdır

**Qərbi Azərbaycan İcması Fransanın Azərbaycanın imicini ləkələmək məqsədilə COP29-un keçirilməsinə az qalmış daha da gücləndirdiyi böhtançı və qərəzli kampaniyanı kəskin qınayır.**

İcmanın bu barədə açıqlamasında bildirilir ki, düçar olduğu uğursuzluqlardan getdikcə daha da ümidsizləşən Fransa ucuz təxribatlara əl atmaqdadır. Son olaraq, Bordo şəhərinin merinin müavini Loran Qiyominin COP29-a qatılmaq bəhanəsi ilə elektrik velosipedi ilə Avropa səyahəti şousu belə bir təxribat nümunəsidir. Bu, ötən il Fransa şəhərlərinin merlərinin Laçın keçidi ətrafında qurduqları ucuz şounun davamıdır. Fransanın bu cür dayaz və bəsit cəhdlərə əl atması onun mövqeyinin nə qədər zəif və haqsız olduğunu göstərir.

Bəyanatın sonunda Qərbi Azərbaycan İcması beynəlxalq ictimaiyyəti bu cür ucuz şoulara inanmamağa və Azərbaycanın iqlim dəyişikliyi ilə bağlı qlobal çağırışların həllində önəmli rol oynadığı bir dövrdə ölkəmizə dəstək verməyə çağırır.

***XQ***

# Ankarada diplomatik məsləhətləşmə

**Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Elnur Məmmədov Türk Dövlətləri Təşkilatının (TDT) xarici işlər nazirlərinin müavinləri səviyyəsində çoxtərəfli siyasi məsləhətləşmələrin ikinci turunda iştirak etmək məqsədilə Türkiyəyə səfər edib.**



Türkiyə Xarici İşlər Nazirliyinin ev sahibliyi ilə Ankarada təşkil edilən iclasda TDT-nin mövcud vəziyyəti və gələcək perspektivləri dəyərləndirilib, təşkilatın Bişkekdə keçiriləcək Zirvə toplantısına hazırlıq işləri və gündəliyinə dair fikir mübadiləsi aparılıb.

Nazir müavini səfər çərçivəsində Türkiyə Xarici İşlər Nazirliyinin Şərqi Afrika Departamentinin baş direktoru, səfir Əlif Çomoğlu Ülgənlə də görüşüb. İkitərəfli görüşdə Azərbaycan və Türkiyə arasında Afrikada birgə əməkdaşlıq məsələləri müzakirə edilib.

***XQ***

# Məktəb bilik çeşməsi, müəllim nur paylayandır

## *Xalqımız şərəfli peşə sahiblərinin bayramını təntənə ilə qeyd etdi*

**Almanların bir ifadəsini xatırlamaq yerinə düşər: "Gələcək mənimdir, çünki müəllimim var". Bu mənada ölkəmizdə də müəllim adı daim urvatda tutulur. Ulu öndər Heydər Əliyev deyib: "Mən dünyada müəllimdən yüksək ad tanımıram".**

Dünya tarixində iz qoymuş müəllimlər çox olub. Türkiyənin baş müəllimi Mustafa Kamal Atatürk milləti üçün atdığı hər adımda və inqilablarda təhsili hər zaman çox vacib amil olaraq görüb. Aristotel özü də pedaqoq idi, həmişə təhsilin zəruriliyindən və müəllimlərin əhəmiyyətindən danışırdı. "Yaxşı müəllimlər bizim biz olmağımızda, bizi düzəltməkdə mühüm rol oynayırlar" – deyirdi.

UNESCO-nun qərarı ilə düz 30 il əvvəl təsis edilmiş Beynəlxalq Müəllimlər Günü Azərbaycanda bu müqəddəs peşənin sahiblərinə böyük ehtiramla qeyd olunur.

Gözünün nurunu şagirdlərinin yolunda şəraq edib yandıran, qara saçını təbaşir kimi ağardan, davranışları ilə etalon olan müəllimlərsə örnək göstərilir, lazımi dəyərini alır və bundan daha da ruhlanırlar.

*Parlayan ulduzdu, nur saçan aydı,*
*Dalğalı dənizdi, ləpəli çaydı,*
*Ömrü ömürlərə calanan paydı,*
*Safdı, müqəddəsdi müəllim ömrü.*

Adını və müəllifini xatırlamadığım bir hekayədə göstərilir ki, müəllim hər gün məktəbə pencəyinin boynunda ağappaq yaxalıqla gəlməsi ilə diqqətləri çəkərdi. Bir qış günü o, soyuqdəymədən xəstələnir və məlum olur ki, binəvanın geyinməyə köynəyi yoxmuş, eləcə hər axşam boş yaxalığı yuyar, səhər durub ütüləyər və böynuna taxıb dərsə gələrmiş. Köynək almağa belə imkanı olmasa da, o, məktəbdən, sevimli peşəsindən ayrılmağı ağlına belə gətirməyibmiş. Hər dəfə müəllim peşəsi barədə düşünəndə həmin hekayəni xatırlayıram.

Belə fədakar müəllimlər indi də var. Belələrinə Vətən müharibəsində Suqovuşanda qəhrəmancasına şəhid olub



tarix yazan, İsmayıllı şəhəri 3 nömrəli məktəb-liseyin tarix müəllimi Famil Əhmədzadə, Yardımlının Dəlləkli kəndində qış günü şagirdlərini sıraya düzərək, qar basmış cığırlarla məktəbə aparan müəllim Nəcəf Məhərrəmov misal ola bilərlər.

Prezident İlham Əliyev pedaqoq əməyini yüksək qiymətləndirərək deyib: "Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərin əsasında məhz müəllimin gərgin zəhməti və gündəlik fəaliyyəti durur". Statistikaya görə, Azərbaycanda 300 mindən artıq təhsil işçisi var. Qabaqcıl təcrübəsi geniş yayılan pedaqoqlar, gələcəyimiz olan nəsli yetişdirən, gənclərim beyinlərini zəka, əxlaq, Vətən sevgisi nuruna qərq edən müəllimlər də çoxdur.

Biz eyni zamanda Azərbaycan elmini və pedaqogikasını dünyada tanıdan müəllimlərimizlə fəxr edirik. Ölkəmizdə təhsilin maddi-texniki bazası daim genişləndirilir. İşğaldan azad olunmuş rayonlarımızda yeni müasir məktəb binaları tikilib istifadəyə verilir. Elə bir neçə gün əvvəl Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin binasının açılışında iştirak ediblər. Yeni təhsil ocağında 40 sinif otağı və 5 inzibati otaq var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Burada, həmçinin kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 4 STEAM otağı, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb. Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir.

Müəllimlər cəmiyyətin memarlarıdır. Öz həyatlarını xalqın gələcəyinə həsr edən bu şərəfli peşə sahiblərini təbrik edirik!

### Naxçıvan

**Beynəlxalq Müəllimlər Günü münasibətilə Naxçıvan Dövlət Universitetində (NDU) mərasim keçirilib.**

Əvvəlcə universitet televiziyasının əlamətdar günə həsr olunmuş videoçarxı nümayiş etdirilib. Sonra ali təhsil ocağının rektoru Elbrus İsayev universitetin professor-müəllim heyətinin timsalında bütün pedaqoqlara təbriklərini çatdırıb, müəllim əməyinin, zəhmətinin əhəmiyyətindən söz açıb. Diqqətə çatdırıb ki, müəllim adına hər zaman yüksək dəyər verən ümummilli lider Heydər Əliyevin Azərbaycan təhsilinə göstərdiyi diqqət və qayğı bu gün uğurla davam etdirilir. Dövlət başçısı İlham Əliyevin himayəsi və qayğısı ilə təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılır.



Rektor bildirib ki, ölkəmizin aparıcı ali təhsil ocaqlarından olan NDU-da çalışan professor-müəllim heyəti də müəllimlər üçün yaradılan şəraitdən bəhrələnərək gələcəyin peşəkar, ixtisaslı kadrlarını hazırlayırlar. Hər il keçirilən qəbul imtahanlarında yüksək bal toplayaraq NDU-nun müxtəlif müəllimlik ixtisasını seçən tələbələrin sayında artımın müşahidə olunması onu göstərir ki, cəmiyyətimizdə şərəfli müəllim adına dəyər verilir, peşəkar pedaqoqların davamçıları hazırlanır.

Universitetin ümumi tarix kafedrasının dosenti, qocaman müəllim, tarix üzrə fəlsəfə doktoru İsmayıl Zeynalov ali təhsil ocağında müəllim əməyinə verilən dəyəri yüksək qiymətləndirib. 54 illik müəllimlik fəaliyyətində savadlı, Vətənə bağlı gənclərin yetişməsində göstərdiyi xidmətlərdən məmnunluğunu ifadə edib.

Stomatologiya kafedrasının müəllimi, NDU-nun ən gənc pedaqoqu Aygün Yusifova bildirib ki, ali təhsil ocağında yetişən gənclər dünyanın fərqli ölkələrində universiteti uğurla təmsil edirlər. O, təhsilin cəmiyyət üçün davamlı inkişafı şərtləndirən əsas amillərdən biri olduğunu deyib.

Qəbul imtahanlarında 650 bal toplayaraq Naxçıvan Dövlət Universitetinin riyaziyyat müəllimliyi ixtisasını seçən I kurs tələbəsi Gülay Kərimli də çıxış edib. O qeyd edib ki, uşaqlıqdan arzusunda olduğu müəllimlik ixtisasında təhsil almağa nail olub və gələcəkdə bu şərəfli peşənin davamçılarından olacağı üçün qürurludur.

İncəsənət fakültəsi ilə Musiqi kolleci tələbələri səsləndirdikləri musiqi nömrələri ilə bayrama rəng qatıblar.

### Gəncə



**Gəncə–Daşkəsən Regional Təhsil İdarəsinin təşkilatçılığı ilə keçirilən bayram tədbirində pedaqoji kollektivlərin rəhbərləri, ziyalılar, tələbə və şagirdlər, valideynlər iştirak ediblər.**

Çıxış edənlər müəllimlərin cəmiyyətdə böyük hörmət sahibi olduqlarını vurğulayıb, onların yüksək peşə hazırlığının və sosial rifahının dövlətin xüsusi önəm verdiyi məsələlərdən olduğunu vurğulayıblar. Prezident İlham Əliyevin gənclərin və böyüyən nəslin bilikli, savadlı, yüksək intellektli olması ilə bağlı verdiyi tövsiyələrin Gəncədə də pedaqoji kollektivlərin əsas fəaliyyət proqramı olduğu bildirilib. Hər il təhsilin daha da keyfiyyətli olması üçün bütün bölgələrdə olduğu kimi, Gəncənin də təhsil ocaqlarında əsaslı təmir işləri aparıldığı, maddi texniki bazaların möhkəmləndiyi diqqətə çatdırılıb.

Tədbirdə iştirak edən rəsmi qonaqlar ölkə rəhbərliyi tərəfindən təhsil sahəsinə göstərilən yüksək diqqət və qayğıdan bəhs ediblər. Ölkəmizdə təhsil sahəsinin inkişafından, həyata keçirilən islahatlardan danışılıb, müəllimlərə bu çətin və şərəfli peşələrində uğurlar arzu edilib.

Daha sonra bir qrup təhsil işçisi 5 Oktyabr – Müəllimlər Günü münasibətilə təltif olunublar. Tədbir şagirdlərin nümunəvi çıxışları ilə davam edib.

### Sumqayıt

**Gənclik şəhərində 5 Oktyabr Beynəlxalq Müəllimlər Günü maraqlı tədbirlə yadda qalıb.**

Şəhər Bulvarındakı Muğam Mərkəzində təşkil olunan görüşdə çıxış edən icra hakimiyyətinin başçısı Zakir Fərəcov təhsil işçilərini peşə bayramı münasibətilə təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Şəhər rəhbəri son illər ölkəmizdə elmin, təhsilin inkişafı sahəsində görülən işlərdən, həyata keçirilən islahatlardan, dövlət proqramlarından və əldə olunan nailiyyətlərdən söz açıb. Qeyd olunub ki, dövlətimizin təhsil sahəsində göstərdiyi diqqət və qayğının nəticəsidir ki, ölkəmizdə ümumtəhsil məktəblərinin maddi-texniki bazası möhkəmləndirilir, müasir tələblərə cavab verən yeni təhsil ocaqları tikilib istifadəyə verilir, müəllim və şagirdlərə göstərilən qayğı gündən-günə daha da artır. Bildirilib ki, son illərdə Sumqayıtda yeni məktəblərin inşası bunun bariz nümunəsidir.

Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayeva şərəfli peşə sahiblərinin cəmiyyətimizə və gələcəyimizə verdiyi töhfələrdən danışıb. Qeyd olunub ki, müəllimlər şagirdlərə elm öyrətməklə yanaşı, həm də Vətən sevgisi, qəhrəmanlıq öyrədir. Çıxış edən təhsil işçiləri yaradılan geniş imkanlardan yüksək səviyyədə bəhrələnərək ölkəmizin gələcək inkişafı üçün təhsilli və savadlı gənclər yetişdirəcəklərinə söz veriblər.

Sonda təhsilin inkişafındakı xidmətlərinə görə bir qrup müəllimə fəxri fərman təqdim olunub.

### Mingəçevir

**Nur şəhərində təşkil olunan bayram mərasimində çıxış edən hər kəs ümumtəhsil məktəblərinin rəhbərlərini və nümayəndələrini salamlayıb peşə bayramı münasibətilə təbrik edib.**

Çıxışlarda qeyd olunub ki, ölkəmizin hər yerində olduğu kimi, Mingəçevirdə də müasir texnika və texnologiyalarla təchiz olunmuş məktəb binaları tikilir və əsaslı təmir edilərək müəllim və şagirdlərin istifadəsinə verilir. Yaradılan bütün bu şərait, eləcə də müəllimlərin yüksək peşə səviyyəsi sayəsində təhsildə uğurlar durmadan artır. Ölkə Prezidenti İlham Əliyevin bir gün əvvəl imzaladığı sərəncamda bir qrup təhsil işçisinin fəxri fərman və medalla təltif edildiyi qeyd olundu. Onların arasında Mingəçevir Şəhər Texniki Humanitar Liseyin müəllimi Yaşar İsmayılov "Əməkdar müəllim" fəxri adına layiq görülüb.

Natiqlər vurğulayıblar ki, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təhsilə göstərdiyi qayğı da danılmazdır. Çıxış edən şəhər təhsil şöbəsinin müdiri Sahib Məmmədov ölkədə təhsilə göstərilən daimi diqqət və qayğıdan danışıb, müəllim və şagirdlərin uğurlarından, müsabiqə və bilik yarışlarındakı fəallıqlarından bəhs edib. O, əminliklə bildirib ki, bundan sonra da Mingəçevir şəhərində fəaliyyət göstərən pedaqoji kollektiv qarşıya qoyulan vəzifələri ləyaqətlə yerinə yetirəcək.

### Ağdam

Ağdam rayonu Ələsgər Quliyev adına l Sarıcalı kənd tam orta məktəbin riyaziyyat müəllimi Günay Rüstəmli peşə bayramı günündə ürək sözlərini jurnalistlərlə bölüşüb. Onun dediklərini təqdim edirik:

– Özümün məktəb illərim məcburi köçkün olduğumuz dövrə təsadüf edib. Orta təhsilimi Mingəçevir şəhərində yerləşən Ağdam 128 nömrəli tam orta məktəbdə almışam. Həmin illərdə dərsliklər tapmaqda çətinlik çəkir, bir kitabı bir neçə sinif yoldaşı ilə növbəli şəkildə oxuyurduq. Lakin çətinliklərə baxmayaraq, hər zaman əlaçı olmuşam. Həyatımda iz qoyan insanlardan biri riyaziyyat fənnini tədris edən Sabir müəllim olub. Bu gün qazandığım bilik və bacarıqlara görə ona borcluyam. Ali təhsilimi fərqlənmə ilə başa vurmuş, növbəti mərhələdə ADA Universitetinin təhsilin və təlimin təşkili metodikası ixtisasında magistratura təhsili almışam.



Ağdamın cəbhə xəttində yerləşən ərazilərində müəllimə böyük ehtiyac olduğunu öyrənib, şəhər-rayon mərkəzlərini deyil, doğma rayonumun cəbhə xəttində yerləşən Səfərli qəsəbə 91 nömrəli tam orta məktəbini seçmişəm. Daha sonra Ələsgər Quliyev adına l Sarıcalı kənd tam orta məktəbinə keçmişəm. 2020-ci ilədək yaşadığımız ərazi cəbhə xətti idi, arada bir kilometr məsafə vardı. Qorxmadan, heç nədən çəkinmədən çalışırdıq. İndi vəziyyət son dərəcə yaxşıdır. Torpaqlarımız işğaldan azad olunub, müharibə arxada qalıb.

Fəxr edirəm ki, onlarla yetirməm ölkənin müxtəlif ali məktəblərində təhsil alır. Vaxtilə dərs dediyim şagirdlərin bəziləri isə indi mənimlə çiyin-çiyinə çalışırlar. Bu da bir müəllim kimi məni çox qürurlandırır. Bütün həmkarlarımı təbrik edirəm!

### Naftalan

**5 Oktyabr Beynəlxalq Müəllimlər Günündə Naftalan şəhər 1 nömrəli tam orta məktəbin direktoru Fuad Zamanov, təşkilatçı Esmira Zeynalova və ədəbiyyat müəllimi İlahə Musayeva təqaüddə olan keçmiş iş yoldaşları, şəhid anası Tərlan Namazovanı mənzilində ziyarət ediblər.**

Onlar keçmiş iş yoldaşlarını səmimi təbrik edərək onun 44 il Naftalanda Azərbaycan dili və ədəbiyyatı fənnini yüksək səviyyədə tədris etdiyini, şəhərdə yeganə şəhid anası müəllim olduğunu ehtiramla qeyd ediblər. Bildirilib ki, Tərlan Namazova şəhərdə çoxsaylı yetirmələri olan nüfuzlu müəllim, Vətən yolunda canından keçmiş övlad yetirmiş qeyrətli ana kimi tanınır və sevilir. Onun oğlu şəhid Vüqar Namazov ailəsi ilə yanaşı, Naftalana da əbədi başucalığı gətirib.

Tərlan müəllim doğma kollektivin diqqət və ehtiramına, dövlətimizin şəhid anası kimi göstərdiyi qayğı və himayəyə görə dərin razılığını bildirib. O, Qarabağ zəfərimizin ailələrinə təsəlli və qürur gətirdiyni fəxrlə söyləyib.



### Quba

**Rayondakı möhtəşəm Heydər Əliyev Mərkəzində Quba–Xaçmaz Regional Təhsil İdarəsi üzrə təhsil işçilərinin iştirakı ilə 5 Oktyabr Beynəlxalq Müəllimlər Günü münasibətilə regional konfrans keçirilib.**

Konfransda bölgənin pedaqoji kollektivlərinin nümayəndələri, təhsil üzrə məsul şəxslər iştirak ediblər. Çıxış edənlər ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyinə verilən yüksək qiymətdən, ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən kompleks tədbirlərdən bəhs ediblər. Qeyd olunub ki, möhtərəm Prezidentimiz İlham Əliyevin elm və təhsilə diqqəti dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edib və daim nəzarətdə saxlayır.



Natiqlər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanımı Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun dövlətin bu fəaliyyət proqramına verdiyi dəstəkdən minnətdarlıqla danışıblar. Təhsil işçilərinin əməkhaqlarının artırılması, onların mükafatlandırılması, fəxri adlarla təltif edilməsi, müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımların təhsil işçiləri üçün böyük stimul yaratdığı vurğulanıb.

Konfransın sonunda təhsildə fərqlənmiş bir qrup müəllimə fəxri fərman və hədiyyələr təqdim edilib.

*Əli NƏCƏFXANLI,*
*Zərifə BƏŞİRQIZI*
*XQ*

# Qarabağ və Şərqi Zəngəzur “yaşıl” enerji ilə nurlanır

**Bu gün Qarabağ və Şərqi Zəngəzur xalis sıfır karbon emissiyalı regiona çevrilir və elektrik enerjisi tələbatı tam həcmdə “yaşıl” enerji hesabına gerçəkləşdirilir. Artıq qalan enerji isə ölkə enerjisisteminə ötürülür, bu da regional enerji müstəqilliyini artırır və ətraf mühitin qorunmasına töhfə verir.**

“AzərEnerji” ASC-dən aldığımız məlumata əsasən, Kəlbəcər rayonunda 4,3 meqavatlıq “Zar”, Göygöl rayonunda 4,1 meqavatlıq “Toğanalı” kiçik su elektrik stansiyaları (KSES) cəmi bir il ərzində tikilib. İnnovativ mühəndislik işi sayılan bu stansiyaların maşın zallarında Avropa istehsalı olan turbin, generator və məsafədən idarəetmə üçün rəqəmsal avadanlıqlar quraşdırılıb. Stansiyalar 24 damarlı fiber-optik kabel xətləri ilə ölkənin mərkəzləşmiş optik kabel şəbəkəsinə və SCADA sisteminə inteqrasiya olunub.



Adları çəkilən elektrik stansiyalarını su ilə təchiz etmək üçün Zar və Kürəkçay çayları üzərində ekoloji normalar daxilində baş suqəbuledici qurğular inşa edilib. Bu məqsədlə çaylarda yaşayan canlıların, ümumilikdə, flora və faunanın qorunmasını təmin etmək üçün xüsusi hidrotexniki qurğular tikilib. Ümumilikdə hər iki stansiya üçün çətin relyefdə 14 min metr derivasiya boruları çəkilib və çay ekosisteminin qorunmasına xüsusi önəm verilib.

“Zar” və “Toğanalı” KSES-lərdə, ümumilikdə, 25 milyon kilovat-saatadək “yaşıl” enerjinin istehsal olunması nəzərdə tutulur ki, bu da 5,5 milyon kubmetr təbii qaza qənaət edilməsi, 10 min tondan çox karbon emissiyasının qarşısının alınması deməkdir.

“Zar” və “Toğanalı” stansiyalarının istismara verilməsi enerjisistemdə “yaşıl” enerjinin davamlı artırılması missiyasına töhfə olmaqla yanaşı, ekoloji davamlılıq məqsədinin gerçəkləşməsində mühüm əhəmiyyətə malikdir. Qarabağ və Şərqi Zəngəzur bölgələrinin ilin bütün fəsillərində xalis sıfır karbon emissiyalı regionlara çevrilməsi, “yaşıl” enerji istehsalının tam şəkildə təmin edilməsi və artıq qalan enerjinin ölkə enerjisisteminə ötürülməsi Azərbaycanın regional enerji müstəqilliyini gücləndirir və ətraf mühitin qorunmasına müsbət təsir göstərir. Bu, həm də ölkənin enerji istehsalında dayanıqlılıq və ekoloji davamlılıq məqsədinə atılan önəmli bir addımdır.

Prezident İlham Əliyevin işğaldan azad edilən əraziləri “yaşıl” enerji zonasına çevirmək, regionun hidroenerji potensialından səmərəli istifadə etmək barədə tapşırıqlarına əsasən “AzərEnerji” ASC ümumi gücü 37,5 MVt olan 6 kiçik su elektrik stansiyasının tikintisinə başlayıb. Bu su elektrik stansiyalarının 2025-ci ilin birinci yarısında istismara verilməsi nəzərdə tutulub.

Həmin stansiyalarda, ümumilikdə, 110 milyon kVts-dan çox elektrik enerjisi istehsal ediləcək ki, nəticədə 24 milyon kubmetrdən çox təbii qaza qənaət olunacaq, həmçinin 44 min tondan çox karbon qazının atmosferə atılmasının qarşısı alınacaq.

Qarabağ və Şərqi Zəngəzurda indiyədək ümumi gücü 270 MVt olan 32 su elektrik stansiyası istismara verilib və bu günədək 492 milyon kilovat-saat sıfır emissiyalı elektrik enerjisi istehsal edilib. Bununla da 110 milyon kubmetr təbii qaza qənaət olunub, 200 min ton karbon emissiyasının atmosferə atılmasının qarşısı alınıb.

Prezident İlham Əliyevin regionun yaşıl enerji zonasına çevrilməsi barədə qəti mövqeyinin nəticəsi kimi ölkə enerjisistemi tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzur regionları istismarda olan su elektrik stansiyaları hesabına ilin bütün fəsillərində xalis sıfır karbon emissiyalı bölgəyə çevrilib və elektrik enerjisi tələbatı tam həcmdə “yaşıl” enerji hesabına təmin edilib.

Qeyd edək ki, regiondakı su elektrik stansiyalarının (SES) qoyuluş gücü 500 MVt-a, illik istehsal həcmi isə 1,5-1,8 milyard kilovat-saata çatacağı, bununla da 350-400 milyon kubmetr təbii qaza qənaət edilməsi, 650-750 min ton həcmində karbon dioksid emissiyasının azalması proqnozlaşdırılır. Müqayisə üçün bildirək ki, Azərbaycanın digər regionlarında SES-lərin illik istehsalı, təqribən, 1,2 milyard kilovat-saat təşkil edirsə, Qarabağ və Şərqi Zəngəzurda bu həcm 50 faiz daha çoxdur.

“AzərEnerji”dən bildirildiyinə görə, 2028-ci ilə qədər günəş və külək elektrik stansiyalarının gücünün 1850 meqavata çatdırılması planlaşdırılır. Bu isə enerjisistemdə “yaşıl” enerji istehlakının ilin fəsillərinə uyğun olaraq bəzi hallarda 30-60 faizə çatması deməkdir. Yeri gəlmişkən, günəş, eləcə də külək elektrk stansiyalarında istehsalın sırf təbii amillərlə, yəni havanın günəşli və ya küləkli olub-olmaması ilə bağlılığı nəzərə alınsa, o zaman 1850 meqavatlıq bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyası dayanıqlıq və etibarlılıq baxımından mühüm önəm daşıyır.

Gələcəkdə enerjisistemdə kataklizmlərin yaranmaması üçün indidən “AzərEnerji” ABŞ və Türkiyə beynəlxalq texniki məsləhətçi şirkətlərinin təhlilləri əsasında 1850 meqavat “yaşıl” enerjinin enerjisistemə inteqrasiyası ilə əlaqədar kompleks tədbirlər həyata keçirir. Hazırda ənənəvi elektrik stansiyalarının tənzimləmə sistemlərinin optimallaşdırılması ilə tezliyin avtomatik tənzimlənməsində iştirak üçün nəzərdə tutulmuş işlərlə yanaşı, “Azərenerji”nin istifadə etdiyi SCADA sistemində də yenilənmələr aparılır. Bu məqsədlə yerli kadrların hazırlanması üçün xarici mütəxəssislər dəvət edilir, xüsusi kurslar təşkil olunur. Eyni zamanda, “SİEMENS”, “General Electric”, “MİTSUBİSHİ”, “Wartsila” və “EMERSON” şirkətləri ilə birlikdə “Sumqayıt”, “Cənub”, “Şimal” və “Qobu” elektrik stansiyalarında tələb olunan tədbirlər icra edilir. WAMS/WACS tətbiqi ilə monitorinq və nəzarət sistemləri gücləndirilir.

# Kənddə sığortanın əhatə dairəsi genişlənir

**Azərbaycanda dövlət dəstəyi ilə təqdim olunan aqrar sığorta mexanizmi çərçivəsində bəzi bitki növlərinin sığortası üzrə şərtlərdə dəyişiklik edilib. Bu barədə Aqrar Sığorta Fondundan məlumat verilib.**

Bildirilib ki, yeniliklər aqrar sığortanın əhatə dairəsinin artırılması, fermerlərə məxsus əkin sahələrinin daha düzgün və səmərəli sığortalanması, sığorta hadisəsi zamanı fermerlərə dəyən zərərlərin daha yaxşı qarşılanması məqsədi daşıyır. Aqrar Sığorta Fondu tərəfindən sığorta şərtlərində edilən növbəti dəyişikliklər isə çiyələk, şəkər çuğunduru və tütün kimi mühüm bitkiçilik növlərini əhatə edir.

Fondun İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş “Çiyələk bitkisi üzrə aqrar sığorta məhsulunun şərtləri”ndə 1 hektar üzrə nəzərdə tutulan maksimal məhsuldarlıq miqdarı mövcud 40 tondan 70 tona qaldırılıb. Bu dəyişiklik çiyələk sahələrindən yüksək məhsuldarlıq əldə elən fermerlərin məhsulu bütünlüklə sığortalamağa imkan verəcək. Bu da çiyələk sahələrinin genişləndirilməsinə, fermerlərin bu sahəyə marağının daha da artmasına səbəb olacaq.

Yeri gəlmişkən, son illər Azərbaycandan xaricə ixrac edilən bitkiçilik məhsullarının siyahısında çiyələyin payı xeyli arıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-iyul aylarında ölkə fermerləri tərəfindən xarici ölkələrə 25 milyon 212 min ABŞ dolları dəyərində 19 min 749 ton çiyələk ixrac edilib. Bu da 2023-cü il ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 1 milyon 121 min dollar və ya 5 faiz, miqdar baxımından isə 2 min 149 ton və ya 12 faiz çoxdur.

Aqrar Sığorta Fondunun qərarı əsasında edilmiş digər dəyişiklik şəkər çuğunduru ilə bağlı olub. Belə ki, dəyişikliyə əsasən, sığorta məqsədləri üçün şəkər çuğundurunun minimal qiyməti 1 sentner üçün 6 manat müəyyən edilib. Şəkər çuğunduru ilə bağlı sığorta şərtlərinin yumşaldılması isə, heç şübhəsiz, əkin sahələrinin genişləndirilməsinə, məhsul istehsalının artırılmasına səbəb olacaq.

Əslində, ölkədə sözügedən bitkiçilk məhsulunun becərilməsi üçün potensial olduqca yüksəkdir. Son statistik göstəricilər də bu imkanlardan yetərincə istifadə olunduğunu təsdiqləyir. Təkcə onu qeyd etmək kifayətdir ki, 2024-cü ilin məhsulu üçün mövsumun əvvəlindən 6 min 798 hektar sahədə şəkər çuğunduru əkilib. Sentyabrın 1-dək yığım həyata keçirilmiş 740,5 hektar sahədən 24 min 469,5 ton şəkər çuğunduru yığılıb ki, bu da əvvəlki ilin eyni dövrünə nisbətən 15 min 474,5 ton çox və ya 172 faiz artım deməkdir.

Şəkər çuğunduru istehsalının artırılması isə daxili bazarın tələblərini qarşılamaq,



eləcə də yeni iş yerlərinin yaradılması baxımından əhəmiyyətlidir. Ekspertlər deyirlər ki, gələcəkdə şəkər çuğunduru istehsalını daha da artırmaq üçün fermerlərin maarifləndirilməsi və müasir əkinçilik üsullarının tətbiqi vacibdir. Bununla yanaşı, dövlət dəstəyi, xüsusən də təbiət hadisələri zamanı dəymiş ziyana görə təyin edilmiş yeni sığorta ödənişləri fermerlərdə şəkər çuğundurunun becərilməsinə marağı daha da artıracaq.

Yaxın illərdə ölkə fermerlərinin tütün bitkisinin becərilməsinə də marağın artmasının şahidi ola biləcəyik. Bu da Aqrar Sığorta Fondunun İdarə Heyəti tərəfindən sözügedən bitkinin sığortasında edilmiş dəyişikliklə bağlıdır. Xatırladaq ki, “Tütün bitkisinin sığortası üzrə aqrar sığorta məhsulunun şərtləri”nə edilmiş yeniliyə əsasən, sığorta məqsədləri üçün tütün bitkisinin çəkisinə olan tələblər dəyişib. Belə ki, tütün bitkisinin 1 hektardan məhsuldarlığının maksimum miqdarı 200 sentner müəyyən edilib. Bundan əlavə, dəyişilik nəticəsində sığorta məqsədləri üçün tütün bitkisinin maksimum qiyməti 1 sentner üçün 30 manat müəyyən edilib.

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu il ölkə üzrə 2 min 649 hektar sahədə tütün əkilib. Yanvar-avqust aylarında həmin sahələrdən 3 min 276,6 ton tütün yarpağı yığılıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 1184,2 ton çoxdur. Heç şübhəsiz, Aqrar Sığorta Fondunun yeni qərarı ölkədə tütünçülüyün inkişafına təkan verəcək.

Yaxın gələcəkdə aqrar sığorta mexanizmində edilən dəyişkiliklərin digər kənd təsərrüfatı məhsullarına da şamil olunacağı gözlənilir. Bu məqsədlə Aqrar Sığorta Fondunun əməkdaşları tərəfindən fasiləsiz olaraq monitorinqlər, araşdırmalar aparılır, fermerlərdən daxil olan müraciətlər təhlil edilir və sığorta məhsullarının şərtləri daim təkmilləşdirilir. Yeri gəlmişkən, bir qədər əvvəl Aqrar Sığorta Fondunun İdarə Heyətinin qərarı ilə kənd təsərrüfatı heyvanlarının sığortası tarifləri aşağı salınıb.

Xatırladaq ki, 2019-cu ildə təsis edilən və 2020-ci ildə fəaliyyətə başlayan Aqrar Sığorta Fondu vasitəsilə hazırda 48 bitki məhsulunu çoxsaylı risklərdən sığortalamaq mümkündür. Aqrar sığorta zamanı hesablanmış sığorta haqqının 50 faizi fermerlərə dəstək məqsədilə dövlət tərəfindən ödənilir. Nəticədə, fermerlər cüzi məbləğ ödəməklə təsərrüfatlarını sığorta edə bilirlər.

# Ağdamda aqroşəhərcik salınacaq

**Baş nazir Əli Əsədovun başçılıq etdiyi nümayəndə heyətinin oktyabrın 3-də Belarusa səfəri çərçivəsində Azərbaycanın və bu ölkənin kənd təsərrüfatı nazirlikləri arasında aqrar sektorda istehsal olunan kənd təsərrüfatı məhsullarının inkişafına dair birgə tədbirlər üzrə Yol Xəritəsi imzalanıb.**



Yol Xəritəsində Belarusun iştirakı ilə Ağdamda kənd təsərrüfatı istehsalının inkişafı, rayonun Qızıl Kəngərli kəndində isə aqroşəhərciyin layihələndirilməsi nəzərdə tutulub.

**İqtisadiyyat Nazirliyi və Nazirliyin Elmi–Tədqiqat İnstitutu İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) və Türkiyənin “İKSAD” İnstitutunun təşkilatçılığı ilə “Yeni nəsil iqtisadiyyat: çağırışlar və perspektivlər” mövzusunda 3-cü İƏT Beyin Mərkəzləri Forumu keçirilib. Tədbirdə müvafiq qurumların və ali məktəblərin nümayəndələri, İƏT ölkələrinin təmsilçiləri iştirak ediblər.**

# Bakıda İƏT-in Tədqiqat Mərkəzi yaradılacaq



Forumda iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli yeni dövrün qlobal çağırışları fonunda Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, ölkəmizin beynəlxalq təşkilatlarla səmərəli iqtisadi əməkdaşlığı, eləcə də yeni nəsil iqtisadiyyatın tələblərinə uyğun tərəfdaşlığın mümkün istiqamətləri haqqında məlumat verib. O, regionda iqtisadi problemlərin həlli yollarının araşdırılması baxımından beyin mərkəzlərinin əhəmiyyətini vurğulayıb və keçirilən forumu region ölkələri arasında elmi-tədqiqat əlaqələrinin inkişafı üçün mühüm platforma kimi qiymətləndirib.

Tədbirdə tədqiqat mərkəzləri və institutlarının dövlət siyasətinin formalaşmasına töhfələri haqqında fikirlər səsləndirilib, eləcə də Bakıda yaradılacaq İqtisadi Əməkdaşlıq Təşkilatının Tədqiqat Mərkəzi ilə bağlı məlumat verilib.

Toplantıda Tacikistan Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi ilə İqtisadi Elmi–Tədqiqat İnstitutu arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Qarşılıqlı maraq doğuran sahələrdə birgə fəaliyyəti təşviq etmək üçün tərəflər arasında birbaşa elmi və tədqiqat əlaqələri yaratmaq məqsədi daşıyan həmin sənədin qarşılıqlı tədqiqat fəaliyyəti üçün zəmin yaradacağı, azərbaycanlı və tacikistanlı ekspertlər arasında fikir və məlumat mübadiləsinin inkişaf etdiriləcəyi əminliyi diqqətə çatdırılıb.

# Bu il İtaliyaya 9,6 milyard kubmetr qaz ixrac ediləcək

**Braziliyada səfərdə olan energetika naziri Pərviz Şahbazov İtaliyanın ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto Fratini və Hidrogen Şurasının baş icraçı direktoru İvana Jemelkova ilə görüşüb.**



Energetika Nazirliyindən XQ-yə verilən məlumata görə, italiyalı nazirlə görüşdə enerji əlaqələrinin genişləndirilməsi istiqqamətində SOCAR ilə “Eni S.P.A” şirkətinin əməkdaşlığı, TAP layihəsinin ötürücülük gücünün artırılması, “CESI”nin “Xəzər–Qara dəniz–Avropa” dəhlizinin texniki-iqtisadi əsaslandırmasında iştirakı, bərpaolunan enerjinin tədarük imkanları kimi məsələlər müzakirə edilib.

Görüş zamanı bu il İtaliyaya 9,6 milyard kubmetr qaz ixracının gözlənildiyi bildirilib, həmçinin “yaşıl enerji dəhlizi” layihəsi üzrə proseslərin mövcud vəziyyətindən, layihənin texniki-iqtisadi əsaslandırmasına Bolqarıstanın da daxil edilməsindən bəhs edilib. Bununla yanaşı, Serbiya və İtaliyanın da bu layihəyə qoşulma perspektivləri dəyərləndirilib. Söhbət zamanı COP29 çərçivəsində əməkdaşlığa da toxunulub və italiyalı nazir “Enerji Günü”nə dəvət edilib.

Hidrogen Şurasının baş icraçı direktoru İvana Jemelkova ilə görüşdə isə “Hidrogen Bəyannaməsi”nin COP29 Sədrliyinin enerji təşəbbüslərindən biri olduğu, ölkəmizdə hazırda hidrogen strategiyasının hazırlandığı və dənizdə külək enerjisi əsasında hidrogen istehsalı və ixracını nəzərdə tutan layihələr barədə məlumat verilib. Görüşdə COP zamanı hidrogen mövzusunda tədbirlərdə iştirak və əməkdaşlıq imkanları müzakirə edilib. COP-da uğurlu nəticə əldə etmək üçün Hidrogen Şurasının maraqlı dairələrin cəlbi istiqamətində dəstəyi təklif olunub.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




## “Yaşıl dünya” naminə həmrəylik



### Bəşəriyyətin narahat gündəmi

# Ekoloji fəlakətdən “yaşıl” transformasiyaya körpü

## *COP29-a yol haradan başlayır?*

**(əvvəli qəzetin ötən saylarında)**

Dünyanın ən böyük istixana qazları emissiya edən ölkəsi Çin də getdikcə daha iddialı iqlim siyasətini qəbul edir. UNFCCC-nin 15-ci iqlim konfransında ilk dəfə olaraq “ekoloji sivilizasiya”nın qurulması planı elan edildi. Bu konsepsiya ətraf mühitin mühafizəsi və onun inkişaf məsələlərindən ayrılmazlığı ilə bağlı dəyərlər toplusunu ehtiva edirdi. 2018-ci ildə o, Çin Konstitusiyasına daxil edildi və milli inkişaf strategiyasının və “yeni dövrün” qurulmasının əsaslarından birinə çevrildi.

“Ekoloji sivilizasiya” konsepsiyasının məqsədləri bir çox cəhətdən “Dayanıqlı İnkişaf Məqsədləri”nə bənzəyir, lakin daha çox diqqət insan və təbiət arasındakı münasibətlərin harmoniyasına, habelə siyasi və mədəni amillərə yönəldilir. Bu DİM-də daha az dərəcədədir. Bundan əlavə, aşağı səviyyəli istixana qazlarının uzunmüddətli inkişafı strategiyası qəbul edilib və Çin bu strategiyaya əsasən 2060-cı ilə qədər karbon neytrallığına nail olmağı hədəfləyir. Emissiyaların pik həddinin 2030-cu ilə qədər keçəcəyi gözlənilir. Bu tarixə qədər ÜDM vahidinə düşən CO2 emissiyaları 2005-ci il səviyyəsi ilə müqayisədə 65 faizdən çox azaldılmalı və ilkin enerji istehlakı 25 faiz qeyri-mədən enerjilərindən yaranmalıdır. 14-cü beşillikdə kömür istehlakı nəzarət altına alınacaq, 15-ci beşillikdə istehlak azalacaq.

Eyni zamanda, ölkə bərpaolunan enerji istehsalının həcmini artırmağa çalışır. Çin indiyə qədər bərpaolunan enerji sahəsində aparıcı investordur və 2030-cu ilə qədər günəş və külək qurğularının ümumi gücü 1,2 milyard kilovat-saata çatmalıdır. Torpaqdan istifadə sektoru da mühüm rol oynayır: 2030-cu ilə qədər meşə sahəsinin, təxminən, 6 milyard kvadratmetr artırılması planlaşdırılır. 2021-ci ildən Çin ümummilli emissiya ticarət sistemini də işə salıb.

Çinin “yaşıl” inkişaf sahəsində böyük səyləri iki əsas motivlə şərtlənir. Birincisi, ekoloji problemlər artıq kritik həddə çatıb və iqtisadi inkişafa ciddi maneəyə çevrilib. Bunlardan ən başlıcası isə ölkənin kömür generasiyasından asılılığı səbəbindən şəhərlərdə havanın çirklənməsidir. İkincisi, Çin dünyanın ən böyük aşağı karbon texnologiyaları istehsalçısıdır. Buna təkcə böyük investisiyalar deyil, həm də Çinin enerji keçidi üçün vacib olan materialların (40 faiz mis, 35 faizdən çox nikel, 60 faizdən çox kobalt, təxminən 60 faiz litium, 90 faiz nadir metallar) emalına nəzarət etməsi də kömək edir. Çin həmçinin dünyada bu materialların bəzilərinin, xüsusilə nadir metalların ən böyük ehtiyatlarına malikdir. Bu səbəbdən bir sıra digərləri ilə yanaşı, Çinin aşağı karbon texnologiyalarının inkişafında qlobal lider kimi rolu olduqca proqnozlaşdırılandır. Artıq 2021-ci ildə bütün yeni dəniz külək qurğularının 80 faizi, 2022-ci ildə isə dünyada ən çox yeni günəş panelləri Çində yerləşmişdi. Çin qələvi elektrolizatorları (dünyada ən çox yayılmış və “yaşıl” hidrogen istehsalı üçün zəruri olan) Qərbdə istehsal edilənlərdən 75 faiz ucuzdur. Bütün bunlardan aydın görünür ki, Çin iqlimə nəzarət tədbirlərinin miqyasına və ya ambisiyasına görə digər inkişaf etmiş iqtisadiyyatlardan heç də geri qalmır.

### Beynəlxalq ekoloji tənzimləmədə qırılma xətləri

“Yaşıl” transformasiyanın özəlliyi ondan ibarətdir ki, o, bəşəriyyətin qlobal ekoloji problemlərinin həllinə kömək etməklə yanaşı, eyni zamanda, qarşıdurma amili kimi çıxış edir və bu da öz növbəsində onun effektivliyini azaldır. İqlim gündəminin yayılması səbəbindən böyüyən bir neçə əsas qırılma xətti müəyyən edilə bilər.

Ən bariz qırılma xətlərindən biri mədən yanacağı idxal və ixrac edən dövlətlər arasındadır. Birincilərin marağı qlobal enerji keçidini təşviq etməkdir. Sonuncular onu daha çox təhdid kimi görürlər və onu ləngitməyə çalışmasalar da, ancaq ön plana çıxmağa da tələsmirlər. İqtisadiyyatları əsasən mədən yanacaq ixracına arxalanan dövlətlər çox vaxt daha az iddialı iqlim hədəfləri və tədbirləri qəbul edirlər. Ona görə də Səudiyyə Ərəbistanının və ya Rusiyanın iqlim siyasətini ambisiya baxımından Avropa İttifaqı ilə müqayisə etmək çətindir. Həm ixracatçılar, həm də idxalçılar üçün iqlim dəyişikliyi təhlükəsizlik təhdididir. Bununla belə, təhlükəsizliyin hansı aspektinin prioritet olacağı əsaslı şəkildə fərqlidir. İxracatçılar iqtisadi təhlükəsizliyə üstünlük verir və ənənəvi enerji resurslarının ixracına əsaslanan mövcud



iqtisadi modelin transformasiyası zərurətindən qorxurlar. Belə bir transformasiya sosial qeyri-sabitlik riskləri daşıyır, çünki mövcud model bu dövlətlərin bir çoxunda sosial müqavilənin əsasını təşkil edirdi.

Öz növbəsində, iqlim dəyişikliyi, mədən yanacağı ixrac edən ölkələr tərəfindən obyektiv olaraq real tanınsa da, sosial-iqtisadi sabitliyin prioritetlərin ziddinə getdiyi üçün, bu reallıq elə də ciddi təhlükə hesab edilmir. İdxalçılar, əksinə, iqlim dəyişikliyinin qlobal mahiyyəti və onunla mübarizədə birgə fəal səylərin göstərilməsinin zəruriliyi haqqında daha geniş kosmopolit fikirləri yaymağa meyillidirlər. Bu da bir çox inkişaf etmiş ölkələrdə qəbul edilən liberal ideologiyalarla eyni istiqamətdədir. Lakin onun həyata keçirilməsi idxaldan asılılığı azaltmaqla enerji təhlükəsizliyinin əldə olunmasına töhfə verməsəydi, bu diskurs çox güman ki, ilk növbədə, Avropa ölkələrində bu qədər geniş yayılmazdı. 2010-cu ildən o, həm də mədən yanacaqlarının ən böyük tədarükçüsü olan Rusiyaya qarşı ziddiyyətli xarici siyasət diskursunda səslənir.

Digər qırılma xətti karbon tutumlu məhsulların idxalı və ixracı ilə məşğul olan ölkələr arasındadır. Birinci qrupa İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının – OECD-in əsasən inkişaf etmiş iqtisadiyyatları, ikinci qrupa BRICS ölkələri daxildir. Onlardan dördü (Çin, Rusiya, Hindistan və Cənubi Afrika Respublikası) ixrac olunan məhsulların istehsalı üçün tələb olunan emissiyaların həcminə görə ilk dörd yeri tutur. Bu vəziyyət əsasən son üç onillikdə dünyada formalaşmış beynəlxalq “əmək bölgüsü”nün nəticəsidir. İnkişaf etmiş ölkələr xidmət sektorunda ixtisaslaşır, əsas sənayelər (xüsusilə çirkli olanlar) daha çox təbii ehtiyatların və yaxud daha ucuz işçi qüvvəsinin və ya daha az ekoloji tələblərin olduğu qabaqcıl inkişaf etməkdə olan ölkələrdə yerləşir. Qərb ölkələrində emissiyaların müsbət dinamikası qismən özlərinin karbon tutumlu istehsalını BRİCS ölkələrindən müvafiq məhsulların idxalı ilə əvəz etməsi ilə izah olunur. Bu səbəbdən burada da emissiyalar artır. Emissiyaları coğrafiyaya görə hesablamağa diqqət yetirən beynəlxalq iqlim rejimi bu əlaqələrə məhəl qoymur. Eyni şey öz tullantılarını aradan qaldırmağa çalışan, lakin bu istehlak idxal hesabına təmin olunarsa, karbon tutumlu məhsulların istehlakını azaltmaq niyyətində olmayan Qərb ölkələrində də baş verir.

Avropa İttifaqı tərəfindən sərhəd karbon tənzimlənməsi mexanizmi şəklində yaradılmış sərhəd karbon maneələri qismən bu problemin həllinə yönəlib. Bu cür alətlər, bir tərəfdən, ixracatçılarına karbon izlərini azaltmaq üçün stimul yaradır, digər tərəfdən, idxalçılar üçün karbon tutumlu məhsulların bahalaşmasına səbəb olur, onları idxalı məhdudlaşdırmağa məcbur edir. Eyni zamanda, Avropa İttifaqı CBAM-ın (Karbon sərhədlərinin tənzimlənməsi mexanizmi) köməyi ilə “karbon sızmasından” – ən çox karbon tutumlu sənayelərin daha yumşaq iqlim tənzimlənməsi olan dövlətlərə köçürülməsindən müdafiə sistemi qurur. Sərhəd karbon maneələri ideyasının iqtisadi məntiq olsa da, onun praktiki həyata keçirilməsində bir çox problemlər var. Bir tərəfdən, iqlim dəyişikliyi ilə mübarizə və proteksionizm arasında sərhəd çəkmək çətindir, digər tərəfdən, ümumi rifahı təmin etmək üçün mahiyyətcə qarşıdurma alətlərindən istifadə etmək şübhəli yanaşmadır. Qlobal problemlər qlobal həllər tələb edir, onların tapılması ayrı-ayrı ölkələrin və blokların qoruyucu tədbirləri ilə asanlaşdırıla bilməz.

**(ardı var)**

***Hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

# Metansız atmosfer – sağlam mühitin baş yolu



**Bakıda “İqlim dəyişmələri ilə mübarizə üzrə Fəaliyyət Həftəsi” çərçivəsində “Metanla bağlı irəliləyiş: Qlobal metan emissiyalarının azaldılması üzrə təşəbbüs” adlı beynəlxalq konfrans keçirilib.**

Tədbirdə Azərbaycanın ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva çıxış edərək bildirib ki, son 20 ildə metan emissiyaları atmosfer və ətraf mühitin çirklənməsinin ən güclü amillərindən biri olub və karbon qazını 80 dəfədən çox üstələyib. Dünya ölkələrinin 2030-cu ilə qədər istehsalat tullantısı kimi metan emissiyalarını 30-35 faiz azaltmaq üçün birləşdiklərini diqqətə çatdıran nazir müavininin sözlərinə görə, COP29 çərçivəsində metana həsr olunmuş ayrıca gün keçiriləcək. O, həmçinin qeyd edib ki, iqlim dəyişikliyi məsələsi Azərbaycan üçün prioritetdir və ölkə bu istiqamətdə bütün səviyyələrdə fəaliyyət göstərir.

Ətraf Mühitin Mühafizəsi üzrə Fondun baş elmi işçisi, professor Stiven Hamburq çıxışında antropogen qlobal istiləşmənin, təxminən, 30 faizinə metanın səbəb olduğunu vurğulayaraq deyib ki, əgər metan emissiyalarını tez bir zamanda azalılmasa, dünya yaxın onilliklərdə daha ekoloji təmiz olacaq. Alimin sözlərinə görə, metanın atmosferdəki qalma müddəti nisbətən qısa olsa da, o, təbiətə böyük ziyan vurur və buna görə də onun emissiyalarının azaldılması CO2 emissiyalarının azaldılması qədər vacibdir: “İqlim üzrə islahatlar həyata keçirilməzsə və metan emissiyalarını azaltmaq üçün tədbirlər görülməzsə, nəticələri ağır olacaq. Hərəkətsizlik bəşəriyyətin yalnız 2100-cü ildə metan emissiyalarının məqbul göstəricilərinə çatmasına səbəb ola bilər, amma gecikmək yolverilməzdir, aktiv tədbirlər lazımdır”.

SOCAR-ın vitse-prezidenti Əfqan İsayev isə çıxışında bildirib ki, təmsil etdiyi qurum metan emissiyalarını izləmək, məlumatları emal etmək və metan emissiyalarını azaltma prosesini idarə etmək üçün süni intellektdən daha çox yararlanmağı planlaşdırır. O, SOCAR-ın dekarbonizasiya prosesini optimallaşdırmaq üçün emissiyaların mütəmadi ölçmələrinin apardığını diqqətə çatdırıb: “Biz metan sızmalarını aşkar etmək üçün peyk şəkillərini araşdırırıq. Peşəkar şirkətləri cəlb edərək, yer səthində də ölçmə metodlarından istifadə etməyə başladıq. Onlarla birlikdə metan emissiyalarımızla mübarizəni optimallaşdırmağa kömək edəcək süni intellekt alətini inkişaf etdiririk”. Ə. İsaev SOCAR-ın 2023-cü ilin dekabrında dekarbonizasiya ilə bağlı beynəlxalq bəyannaməyə qoşulduğunu xatırladaraq bu prosesin mərhələli şəkildə həyata keçirilməsinin (2030, 2035 və 2050-ci illər) və 2050-ci ildə sıfır emissiyaya çatmasının nəzərdə tutulduğunu bildirib.

Qeyd edək ki, metan emissiyalarının istixana effekti karbon qazından 28-30 dəfə daha güclüdür. Metan emissiyalarının əsas mənbələri isə neft-qaz və kənd təsərrüfatı sahələridir. Qarşıdan gələn COP29 zamanı Bakıda metan üzrə bəyannamə qəbul ediləcək. Bundan əlavə, Azərbaycan metan emissiyalarının azalması ilə bağlı sənədin qəbulunu təşəbbüs edib.

# Ekoloji savaşda ölkəmiz ön sırada yer alıb

**Hazırda dünyada əhalinin 10 faizi aclıq vəziyyətində yaşayır. Bu rəqəm gündən-günə artmaqda davam edir. Qlobal temperaturun 4 dərəcə artacağı təqdirdə isə, təqribən, 2 milyarda yaxın insanın aclıq vəziyyətinə düşəcəyi proqnozlaşdırılır. İqlim dəyişikliyi daşqınlara, quraqlıqlara səbəb olur. Həmçinin kənd təsərrüfatında məhsuldarlığı azaldır, icmaların həssaslığını artırır. Çünki onlar sudan və qidadan asılıdır.**



Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində keçirilən konfransda çıxış edən Beynəlxalq Kənd Təsərrüfatı Tədqiqatları Məsləhətçi Qrupunun icraçı direktoru İsmahane Elouafi yuxarıdakı fikrinə əlavə edərək su çatışmazlığının 2050-ci ilə qədər daha da kəskinləşəcəyini bildirib: “Bu, şübhəsiz ki, kənd təsərrüfatına təsir edəcək, çünki həmin sahə suvarmadan asılıdır. İqlim dəyişikliyi qlobal su dövriyyəsinin dəyişməsinə səbəb olub. Odur ki, kənd təsərrüfatında suyun istifadəsi ədalətli şəkildə olmalıdır”.

İcraçı direktor əlavə edib ki, Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə ən yaxşı ölkələr sırasındadır. Azərbaycan , eləcə də COP29 sədrliyini qida, su və torpaq sistemlərinə yeni yanaşmaların ortaya qoyulmasında böyük səylər göstərir.

# İqlim Həftəsi başa çatdı



**Bakı İqlim Fəaliyyəti Həftəsinə yekun vurulub. Sonuncu gündə bir sıra mövzularda konfrans və panel sessiyalar keçirilib.**

“İqlim sahəsində fəaliyyət üçün tədqiqatların və əməkdaşlığın sürətləndirilməsi” mövzusunda elmi konfransın açılış mərasimində çıxış edən COP29-un iqlim üzrə yüksək səviyyəli çempionu Nigar bildirib ki, tədqiqatlar effektiv iqlim fəaliyyətinin təməlidir. Elm və texnologiyada yeniliklərin külək və günəş enerjisi, elektrikli nəqliyyat vasitələri kimi inanılmaz alətlər təqdim etdiyini vurğulayan COP29 rəsmisi hazırda karbon saxlama, enerji səmərəliliyi texnologiyalarında yeniliklərə ehtiyacın olduğunu diqqətə çatdırıb.

İqlim problemlərinin fəsadları ilə mübarizə istiqamətində müəyyən edilmiş hədəflərə çatmaq üçün elmin gücündən istifadə etməyin vacibliyini bildirən N. Arpadarai dünyanın artıq kritik dönəmdə olduğunu vurğulayıb: “Alimlərin fikrincə, planetə zərər verə biləcək nəticələrin astanasındayıq. İqlim dəyişiklikləri ilə əlaqədar ən son elmi biliklərin qlobal siyasətə təsirini gücləndirmək vacibdir. Bizə bu istiqamətdə beynəlxalq əməkdaşlıq lazımdır. Ölkələr ən yaxşı təcrübələri bölüşmək üçün birlikdə fəaliyyət göstərməlidir. Özəl sektorun da bu fəaliyyətdə fəal tərəfdaş olması önəmlidir".

Azərbaycan Milli Elmlər Akademiyanın prezidenti, akademik İsa Həbibbəyli çıxışında ölkəmizin dünyada iqlim dəyişikliyinin həlli istiqamətində vacib addımlar atan dövlətlərdən biri olduğunu diqqətə çatdırıb. Akademik qeyd edib ki, bütün dünyada olduğu kimi, Azərbaycanda da son illər ekoloji problemlər aktual məsələdir: “Hazırda ekolinqvistika kimi yeni elm sahələri yaranır. İqlim probleminin həlli üçün kompleks layihələrin həyata keçirilməsi vacibdir. Düşünürəm ki, qlobal istiləşmənin həlli istiqamətində tərəfdaş ölkələrin elmi qurumları birgə layihələr həyata keçirməlidir”, – deyə o, əlavə edib.

Konfransda COP29-un Azərbaycan üzrə “Gənclər iqlim çempionu” Leyla Həsənova çıxış edərək deyib ki, yüksək səviyyəli təhsil iqlim dəyişikliyi ilə mübarizədə olduqca vacibdir. Bu səbəbdən də gənclərin davamlı gələcək üçün birlikdə çalışmalı olduqlarını vurğulayan L.Həsənova dünya gənclərini iqlim probleminin həlli istiqamətində görülən tədbirlərdə yaxından iştirak etməyə çağırıb. Qeyd olunub insanlarda ekologiya ilə bağlı fikirlər uşaq yaşlarında formalaşdığından təhsildə ekoloji maarifləndirmə işləri davamlı olaraq aparılmalıdır.

Konfrans çərçivəsində, həmçinin “İstixana qazlarının emissiyalarının başa düşülməsində inqilab: empirik məlumatların, süni intellektin və qabaqcıl analitikanın rolu”, “Elmi problemlərin həllində qlobal və regional əməkdaşlığın rolu”, “İqlim dəyişikliyinin və paradiqmaların dəyişməsinin transsərhəd suların idarə edilməsinə təsiri” mövzularında panel müzakirələr aparılıb.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***X Q***

# Göyçəli Ələsgər Bakıya gəldi

## *Haqq aşığının heykəli yurd sevgisi nəğməsi çalıb-çağırır*



**Sentyabrın 30-da Vətənimizin paytaxtı doğma Bakımızda xalqımızın milli-mədəni irs tarixinə silinməz hərflərlə yazılacaq çox əlamətdar, uzun illər gözlədiyimiz, həsrətində olduğumuz hadisə baş verdi. Azərbaycan saz-söz sənətinin görkəmli nümayəndəsi, möcüzələrlə dolu yaradıcılığının dərinliyinə, rəngarəng çalarına, poetik dəyərinə görə Azərbaycan–Türk ədəbi irs xəzinəsində haqlı olaraq aşıq poeziyasının zirvəsi hesab edilən cahanşümul dini-fəlsəfi-poetik düha kimi doğma xalqının qəlbində ədəbi sevgi ilə yaşayan Dədə Ələsgərin möhtəşəm abidəsinin açılış mərasimi baş tutdu.**



Azərbaycan xalqı özünün zəngin tarixi, maddi-mədəniyyət abidələri, ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə haqlı olaraq fəxr edir, onların ən görkəmli yaradıcı nümayəndələrinə qoyulan onlarca heykəllərlə, abidələrlə haqlı olaraq qürur duyur.

Bakının mərkəzində Aşıq Ələsgərə ucaldılan heykəl isə xalqımızın minilliklər tarixini yaşadan ozan, saz-söz sənətinə, aşığa həsr olunan ilk uğurlu heykəltəraşlıq və memarlıq nümunəsidir. Bu möhtəşəm tədbirin təməli hələ 3 il əvvəl Prezident İlham Əliyevin imzaladığı iki sərəncamdan – "çoxəsrlik keçmişə malik aşıq sənəti ənənələrinə ən yüksək bədii-estetik meyarlarla yeni məzmun qazandırmış, xalq ruhuna uyğun həmahəng əsərləri ilə Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş etmiş" Aşıq Ələgərin 200 illik yubileyinin qeyd edilməsi və onun Bakı şəhərində heykəlinin ucaldılması haqqında sərəncamlardan irəli gəlir. Aşıq Ələsgərin abidəsinin yaradılması və təntənəli açılışı mədəni irsimizin qorunmasını, onun dünyada geniş təbliğini təmin edən uğurlu dövlət siyasətinin bariz nümunəsidir. Aşıq Ələsgərin abidəsinin açılış mərasimində dövlət başçısı şəxsən iştirak edərək bilavasitə onun əhəmiyyətini vurğuladı. Möhtərəm Prezidentimiz çıxışında "Bakının mərkəzində Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin abidəsi açılır. Bu, doğrudan da, çox gözəl hadisədir" – deyərək ona yüksək qiymət verdi.

Göyçə mahalında doğulmuş, Dədə Ələsgər sevdalısı olaraq Prezidentimizə Azərbaycan saz-söz sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin 200 illik yubileyi ilə bağlı verdiyi sərəncamlara və Bakı şəhərinin mərkəzində ona qoydurduğu möhtəşəm heykələ və açılışda onun yaradıcılığına və aşıq poeziyasına verdiyi yüksək dəyərə, Qərbi Azərbaycana qayıdış istiqamətində etdiyi dərin məzmunlu çıxışına, səsləndirdiyi xüsusi siyasi əhəmiyyət kəsb edən mesajlara görə təşəkkür edir, minnətdarlığımı bildirirəm!

Aşıq Ələsgərin doğma təbiətə məhəbbət və vətənpərvərlik hisslərini vəhdətdə aşılayan, ana dilimizin saflığını, məna potensialını və hüdudsuz ifadə imkanlarını özündə cəmləşdirən dərin koloritli yaradıcılığı Azərbaycan ədəbiyyatının parlaq səhifələrindəndir. Məhz buna görə Azərbaycan aşıq sənətinin ümumbəşəri dəyərlər sırasında qorunan dünya qeyri-maddi mədəni irs nümunələri siyahısına salınması həm də Aşıq Ələsgər sənətinə ehtiramın təzahürüdür.

Aşıqlıq sənətinə böyük məsuliyyətlə yanaşan Dədə Ələsgər özündən sonra böyük bir məktəb qoyub getmişdir. Göyçədə adları bəlli olan 170-dən artıq aşığın çoxu Aşıq Ələsgərin sənət şəcərəsinin üzvü olmuşdur. Son dərəcə təvazökar insan olan Aşıq Ələsgər apardığı məclislərdə heç vaxt özünü təbliğ etməz, Qurbanidən, Abbas Tufarqanlıdan, Xəstə Qasımdan, Ağ Aşıqdan, ustadı aşıq Alıdan və başqa sənətkarların şeirlərindən oxuyar, öz şeirlərini isə yalnız məclis əhlinin xahişi və tələbi ilə ifa edərmiş. Bununla da dahi sənətkar yüksək təvazökarlıq nümunəsi göstərərək aşıqlıq sənətinin kredosunu, "nizamnaməsini", əsl aşıqlıq sənətində vacib olan tələbləri "Gərəkdi" rədifli şeirində:

***Aşıq olub, diyar-diyar gəzənin,***
***Əzəl başda pürkamalı gərəkdi.***
***Oturub-durmaqda ədəbin bilə,***
***Mərifət elmində dolu gərəkdi.***

***Xalqa həqiqətdən mətləb qandıra,***
***Şeytanı öldürə, nəfsin yandıra,***
***El içində pak otura, pak dura,***
***Dalısınca xoş sədalı gərəkdi...***

söyləyərək bu meyarlara, ilk növbədə, özü riayət edər, şəyirdlərinə nümunə, yol göstərər, onları danışdığı sözün qiymətin bilməyə, arif olmağa, naməhrəmdən şərm eyləməyə, haqqa dolanmağa, doğruluğa çağırar, yönəldər və onları bu yüksək insani, mənəvi, ürfani keyfiyyətlər ruhunda tərbiyə edərdi.

Təsadüfi deyildir ki, Dədə Ələsgər irsinin yüksək fəlsəfi, əxlaqi, ürfani tutumunun, mahiyyətinin əhəmiyyətini görkəmli yazarlarımız böyük sevgi və ehtiramla qeyd etmişlər. Bu irs onu, Xalq yazıçımız Mirzə İbrahimovun dediyi kimi "Azərbaycan və dünya ədəbiyyatının klassik simaları ilə yanaşı duran dahi söz ustadı səviyyəsinə yüksəltmişdir". Xalqımızın sevimli şairi Səməd Vurğun isə "Hansı mövzuya əl atıram, hansı daşı qaldırıram altında Dədə Ələsgərdən bir nişanə görürəm" deyərək onun özündən sonra aşıq poeziyasının bütün formalarında nə dərəcədə geniş, rəngarəng yaradıcılıq nümunələri qoyub getdiyini qeyd etmişdir. Bəxtiyar Vahabzadənin "Ələsgər şeirinin hikmətinə, dərinliyinə səcdə edirəm", Məmməd Arazın "sözün qüdrətini ən uca nöqtəyə qaldırıb, oradan əsrinə baxmış" fikirlərini deyən görkəmli şairlərimiz bu məktəbdən öyrəndiklərini etiraf etmişlər. Aşıq saz-söz sənətinin dərin bilicisi, qoruyucusu və təbliğatçısı, Ələsgər sözünün vurğunu olan Xalq şairi Zəlimxan Yaqub isə Dədə Ələsgər dühasının poetik gücünü belə tərənnüm etmişdir:

***... Bağlanıb varlığım qıfılbəndinə,***
***Tilsimdi, sehrindən qopa bilmirəm.***
***Bağlama demisən, bircə bəndinə,***
***Bir ömür qoymuşam, aça bilmirəm...***
***...Baxdım yaratdığın misraya, bəndə,***
***Nə memar işidir, nə zərgər dedim.***
***Dilim söz tutanda, ağlım kəsəndə***
***Ələsgər çağırdım, Ələsgər dedim!***

Zənnimcə, ədəbiyyatımızın görkəmli nümayəndələrinin Aşıq Ələsgər yaradıcılığına bu cür yüksək qiymət vermələri, bir çox tədqiqatçıların onu Dədə, Haqq Aşığı, Sufi Mürşid, Övliya, "qutsal şəxsiyyət" kimi müqəddəs epitetlərlə dəyərləndirmələri onun heykəlini yaradanların – heykəltəraş, Xalq rəssamı, Rəssamlıq Akademiyasının rektoru Natiq Əliyevin və Rəssamlıq Akademiyasının baş müəllimi, memar Malik Babayevin üzərinə böyük məsuliyyət qoymuşdur. Əlbəttə, heykəl haqqında düzgün, incəsənət nöqteyi-nəzərindən qiymət vermək, peşəkar ekspertlərin, rəssam və heykəltəraşların işidir. Mən isə Dədə Ələsgər möcüzəsinə bağlanan, bütöv yaradıcılığını sevən, onu daim, təkrar-təkrar heyranlıqla mütaliə edərək hər dəfə özünə yeni bir sirr kəşf edən həvəskar Ələsgər sevdalısı olaraq heykəllə hələ heykəltəraşın emalatxanasında yaradıcılıq prosesində tanış olaraq Natiq müəllimə verdiyim sualların cavablarından, heykəlin açılışından aldığım təəssürat əsasında əminliklə deyə bilərəm: Abidə möhtəşəmdir! Dərviş, aşıq, şair, filosof, övliya Dədə Ələsgərə, onun ruhuna layiq böyük, yüksək incəsənət əsəridir. Aşıq Ələsgərin heykəlinin qaya üzərində vüqarlı duruşu mənə Ulu Göyçənin əzəmətli dağlarında yer almış məğrur qayalar üzərindən xalqına, el-obasına onun "həqiqətdən mətləb qandırmasını" xatırladır. Onun fikrə dalmış baxışlarında sanki müdrik filosof düşüncələri yer alıb. Sazın sol əllə çalınması aşığın solaxay olmasının real təcəssümüdür. Adətən, aşıqlar, əsl aşıqlar, yaradıcı aşıqlar, cuşə, ilhama gəlib ekstaza qalxanda sazın qolunu qeyri-iradi olaraq yuxarı qaldırırlar. Deyərdim, bu məqam sanki Aşıq Ələsgərin bu gün kafelərdə gəzişən, toyxanalarda şou göstərən "aşıqların" əlindən sazlarını alıb onların əlinin çatmadığı ucalığa qaldırmağını da göstərən bir məqamdır.

Natiq müəllim işə başlamazdan qabaq və iş prosesində Aşıq Əlsgər haqqında mövcud olan ədəbiyyatla, ona həsr olunmuş rəssamlıq işləri, əsərləri ilə yaxından tanış olmuş, qaya üzərində həkk etmək üçün onun 60-dan çox müdrik, hikmətli, lirik şeir nümunələrini toplamış və onların bir qismini qaya üzərinə salmışdır. 4 metr hündürlüyündə olan heykəl çox əzəmətli görünür. Abidənin çoxşaxəli məzmuna malik olması, üzərində qeyd olunmuş geniş informasiyalar onun incəsənət əsəri kimi qiymətini bir qədər də artırır.

Çox istedadlı heykəltəraş, Xalq rəssamı Natiq Əliyevi, memar Malik Babayevi uğurlu yaradıcılıq işinə görə təbrik edir, Ələsgər poeziyasını sevən bir fərd kimi öz adımdan, çoxsaylı ələsgərsevərlər adından onlara təşəkkürümü və minnətdarlığımı çatdırıram.

Aşıq Ələsgərin Bakıda qoyulmuş, Qərbə tərəf yönələn bu möhtəşəm abidəsi, eyni zamanda, bugünkü ictimai-siyasi durumda mədəni həyatımızın əlamətdar hadisəsi olmaqla yanaşı, böyük rəmzi məna daşıyaraq bizi Qərbi Azərbaycana, onun doğma yurdu Göyçəyə çağırır.

Ulu öndər Heydər Əliyevin göstərişi ilə Dədə Ələsgərin 150 illik yubileyi ilə bağlı Göyçədə, anadan olduğu Ağkilsə kəndində aşığın qəbirüstü abidəsi ucaldılmışdı. Həmin əzəmətli büst soydaşlarımız öz dədə-baba torpaqlarından didərgin salındıqdan sonra erməni vandalları tərəfindən dağıdılsa da, milli-mədəni varlığımızın tərkib hissəsinə çevrilmiş Aşıq Ələsgər möhtərəm Prezidentimizin heykəlin açılışında dediyi kimi, doğma kəndində heykəlinin yenidən qoyulması ilə Vətənə qayıdacaqdır. Bunun dinc yolla reallığa çevrilməsinə inamımız, ümidlərimiz böyükdür.

**Əlәddin ALLAHVERDİYEV,**
**professor**

**Moskva**

**Təqdimat**



# Unudulmaz xeyriyyəçi Zeynalabdin Tağıyevin ekran obrazı

**Heydər Əliyev Mərkəzində böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətindən bəhs edən "Tağıyev: Neft" bədii filminin təqdimatı olub. Mərasimdə layihənin rəhbəri və prodüseri, Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva, Milli Məclisin deputatları, tanınmış elm və mədəniyyət xadimləri iştirak ediblər.**



Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Kino Agentliyinin dəstəyi ilə Bakı Media Mərkəzinin ərsəyə gətirdiyi filmin premyerasında əvvəlcə iştirakçılar filmin çəkilişi zamanı istifadə olunan geyim və tarixi əşyaların sərgiləndiyi guşə ilə tanış olublar. Ekran əsərinin nümayişindən əvvəl məlumat verilib ki, "Tağıyev: Neft" filmi milyonçu, böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyat yoluna həsr olunan çoxseriyalı "Tağıyev" filminin ilk seriyasıdır.

Ekran əsərinin baş prodüseri Arzu Əliyeva, prodüseri Orman Əliyev, rejissoru Zaur Qasımlı, ssenari müəllifləri İsmayıl İman, Asif İsgəndərli və Zaur Qasımlı, operatoru Vladimir Artemyev, rəssamı Səbuhi Atababayev, geyim rəssamı Vüsal Rəhim, bəstəkarı Etibar Əsədlidir.



Bildirilib ki, filmdə XIX əsrin sonları – XX əsrin əvvəllərində Bakı və ölkəmizin regionlarında baş verən mühüm tarixi hadisələr də əksini tapıb. Qeyd edilib ki, Azərbaycan tarixinin bu mərhələsinin tanıdılması və milli dəyərlərimizin təbliğinə əhəmiyyətli töhfə olan 4 seriyalı filmin məhz böyük xeyriyyəçinin vəfatının 100 illiyinin qeyd edildiyi 2024-cü ildə təqdim olunması əlamətdar hadisədir.

Ekran əsəri Bakıda başmaqçı ailəsində dünyaya gələn və sonrakı milyonçu taleyi ilə öz xalqı üçün böyük işlər görən Tağıyevin həyatının müxtəlif dövrlərinə işıq salır. Filmdə Tağıyevin müsəlman Şərqində qızların təhsili üçün ilk dəfə xüsusi məktəbin əsasını qoyması, Azərbaycanda neft sənayesinin inkişafına, Bakı şəhərinin zəruri infrastrukturunun yaradılmasına nail olması kimi diqqətəlayiq məsələlər öz əksini tapıb.

Filmin çəkilişləri öz miqyasına görə Azərbaycan kinematoqrafiyası tarixinə düşüb. 76 fərqli məkanda çəkilişləri aparılan ekran əsərinin kütləvi səhnələrində 2 min 500 nəfərə yaxın yaradıcı şəxs iştirak edib. Tarixi səhnələr üçün 300-dən çox dekorasiya hazırlanıb. Tağıyevin yaşadığı dövrü tam əks etdirmək üçün xüsusi geyim emalatxanası yaradılıb, çoxlu sayda libas, aksesuar, zərgərlik nümunələri və xüsusi rekvizitlər hazırlanıb.

Xalq artistləri Pərviz Məmmədrzayev (Tağıyev), Qurban İsmayılov, Əməkdar artistlər Rasim Cəfər, Elşən Rüstəmov və Natəvan Hacıyeva daxil olmaqla geniş peşəkar aktyor heyəti filmdə tarixi personajları canlandırıblar. Ekran işinin ərsəyə gəlməsinə "Neqsol Holding", "Kapital Bank", "Bakcell" və "Norm" şirkətləri də dəstək verib.

Filmin təqdimatı böyük maraqla qarşılanıb.

Sonda filmin yaradıcı heyəti səhnəyə dəvət olunub. Filmin rejissoru Zaur Qasımlı göstərdiyi hərtərəfli dəstəyə görə Arzu Əliyevaya təşəkkür edib və yaradıcı heyət adından ona xatirə hədiyyəsi təqdim edib.

**Qabil ƏLİYEV**
**XQ**

# Nahaq qan yerdə qalmaz

**Ötən illərdən bağlı qalan qəsdən adam öldürmə cinayətlərinin açılması prokurorluq və digər hüquq-mühafizə orqanlarının fəaliyyətinin prioritet istiqamətlərindən olmaqla daim diqqətdə saxlanılır.**

Azərbaycan Respublikası Baş Prokurorluğunun və Daxili İşlər Nazirliyinin (DİN) birgə məlumatına istinadla xəbər verir ki, Bakı şəhərinin Suraxanı Rayon Prokurorluğu və Suraxanı Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilən kompleks istintaq və əməliyyat-axtarış tədbirləri, eləcə də, istintaq taktikasının düzgün tətbiqi nəticəsində 22 il əvvəl - 2002-ci il aprelin 9-da paytaxtın Suraxanı rayonu, Hövsan qəsəbəsi ərazisində törədilmiş 1989-cu il təvəllüdlü, 13 yaşlı Z.D-nin (şərti) yaşadığı mənzildə zorakılıq hərəkətlərinə məruz qalması və xüsusi amansızlıqla qəsdən öldürülməsi cinayətlərinin üstünün açılması təmin olunub.

Toplanmış sübutlarla 1980-ci il təvəllüdlü M.E-nin (şərti) qeyd olunan tarixdə yetkinlik yaşına çatmayan Z.D-yə qarşı zorakılıq hərəkətləri etməsinə, daha sonra isə Z.D-nin baş verənlər barədə şikayət edəcəyini bildirdiyi üçün sonuncunun anası B.A ilə birgə çoxsaylı xəsarətlər yetirib başqa cinayəti gizlətmək və digər qanunsuz hərəkətlərlə əlaqədar xüsusi amansızlıqla qəsdən öldürmələrinə əsaslı şübhələr müəyyən edilib.

M.E və B.A cinayət törətməkdə şübhəli şəxs qismində tutularaq 2024-cü il oktyabrın 5-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120.2.1, 120.2.4, 120.2.6-cı (bir qrup şəxs tərəfindən xüsusi amansızlıqla və başqa cinayəti gizlətməklə əlaqədar adam öldürmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq, barələrində müstəntiqin vəsatətləri və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatları əsasında Suraxanı Rayon Məhkəməsinin qərarları ilə həbs qətimkan tədbirləri seçilib.

"Əvvəlki illərdən bağlı qalmış cinayət işləri daim diqqət mərkəzində saxlanılmaqla, cinayət əməlini törədən şəxslərin ifşa olunaraq məsuliyyətə cəlb olunması istiqamətində aidiyyəti dövlət qurumları tərəfindən mütəmadi olaraq birgə tədbirlər davam etdirilir", – deyə birgə məlumatda bildirilib.

***XQ***

X Bakı Beynəlxalq Kitab Sərgisi

# Sözü oxucuya qovuşduran sənət bayramı

**Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində dahi şair və mütəfəkkir Məhəmməd Füzulinin anadan olmasının 530 illiyinə həsr edilən X Bakı Beynəlxalq Kitab Sərgisinin növbəti günləri də proqram zənginliyi ilə seçilib.**






Yubiley sərgisində Azərbaycanla yanaşı, Türkiyə, İtaliya, Çin, Rusiya, Koreya Respublikası, Macarıstan, Qazaxıstan, Qətər, Özbəkistan, Oman, Argentina, Mərakeş, Venesuela, Gürcüstan, Meksika, Kolumbiya, Çili və Monqolustandan tanınmış yazıçı və şairlər, elm adamları, gənc yazarlar iştirak edirlər. Sərgi tarixində ilk dəfə 7 gün sürəcək kitab bayramında uşaqlar və böyüklər üçün ustad dərsləri, kitab təqdimatları, imza günləri, konfranslar, simpoziumlar, müsabiqələr, qiraət və musiqi saatları formatında tədbirlər keçirilir.

Regionumuzda ən böyük kitab sərgisi sayılan bayramda Məhəmməd Füzulinin qəzəlinin muğam üstündə ifası və ölməz bəstəkar Üzeyir Hacıbəylinin musiqi əsərlərindən ibarət kompozisiya səsləndirilməsi sərginin ümumi ruhunu gözəl ifadə edib. Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri, Xalq yazıçısı Anarın söylədiyi "Kitab həmişə yaşasın və bizi yaşatsın" sözləri isə bir növ sərginin devizinə çevrilib.

Sərgi vasitəsilə ölkələrarası mədəniyyət mübadiləsi aparılır, əməkdaşlıq əlaqələri qurulur. Bu, münasibətlərin yaxınlaşmasında mühüm platformadır. Türkiyə nəşriyyatları qardaş ölkənin Mədəniyyət və Turizm Nazirliyi ilə İstanbul Ticarət-Sənaye Palatasının açdığı ayrıca stenddə öz kitablarını sərgiləyirlər. Türkiyə səfiri Cahit Bağçı da sərgiyə gəlib. Burada "Anadolu" agentliyi AA Kitab brendi ilə "Sübut", "Atatürkdən Ərdoğana qədər bizim prezidentlər", "Yüzilliyin 100 kinematoqafiya əsəri", "İstanbul Poto Avards" fotoalbomu və digər nəşrlər təqdim olunub və yüksək dəyərləndirilib.

Sərginin "Füzuli" təqdimat zonasında AYB-nin mətbuat katibi, şair Xəyal Rzanın layihə rəhbəri olduğu "Günlərdən şeir" görüşləri də maraqlı olur. Şair Aynur Qafarlı və qiraətçi Anar Atakişinin dəvət edildikləri görüş ziyarətçilərə xüsusi zövq verib. Aynur xanım pedaqogika üzrə fəlsəfə doktoru, 1 dərs vəsaitinin, Azərbaycanda və xaricdə nəşr edilmiş 15 məqalə və tezisin, 2 şeir kitabının müəllifidir. Qonaqların ifasında şeirlər səsləndirilib, poeziyanın insanın mənəvi aləminin zənginləşməsindəki rolundan bəhs edilib. Poeziyanı qeyri-adi ruh məkanı sayan Anar Atakişi duyğu dolu anlarla hər qəlbə siraət etməyi bacarıb.

Onu da qeyd edək ki, sərginin Təşkilat Komitəsi şair Salam Sarvanı və yazıçı Rövşən Abdullaoğlunu fəxri yazarlar qismində seçib. Bu isə bədii ədəbiyyata xüsusi önəm verilməsinin göstəricisidir. Salam Sarvan müasir Azərbaycan poeziyasının istedadlı nümayəndələrindəndir. "Sənə deyiləsi deyil sənə deyiləsi sözüm", "Mən gələr olmadım, yolu qarşıla", "Heykəl tənhalığı" adlı şeir kitablarının müəllifidir. Şairin əsərləri müxtəlif xarici dillərə tərcümə olunub. Rövşən Abdullaoğlu isə çağdaş nəsrimizdə ən çox oxunan yazıçılardan biri və 32 kitab müəllifidir. "Relslər üzərində uzanmış adam" romanı 2020-ci ildə "Readers Favorite" beynəlxalq kitab müsabiqəsinin qalibi olub.

Respublika Xatirə Kitabı Redaksiyasının "Azərbaycan Respublikası Xatirə kitabı"nın 4-cü cildinin xüsusi buraxılışının təqdimatı keçirilib. Kitabda İkinci Dünya müharibəsində, Əfqanıstan döyüşlərində, 20 Yanvar faciəsində, Xocalı soyqırımında, Qarabağ müharibəsində həlak olmuş, itkin düşmüş, əsir götürülmüş vətəndaşlarımız, milli qəhrəmanlarımız haqqında əhatəli materiallar dərc edilib.

Mərasimdə çıxış edən baş redaktor Nəzakət Məmmədova xalqımıza böyük Zəfər bəxş edən oğullarımızın adlarının əbədiləşdirilməsinin Respublika Xatirə Kitabı Redaksiyasının ümdə işi olduğunu bildirib. O, redaksiyanın bu ənənəni layiqincə davam etdirdiyini vurğulayıb.

Fərəhli haldır ki, 10-cu Bakı Beynəlxalq Kitab Sərgisinin ziyarətçiləri arasında kiçikyaşlı oxucular da az deyil. Onlar burada həm yeni nəşrlərlə tanış olur, istədikləri kitabları alır, həm də müxtəlif əyləncəli oyunlarda iştirak edirlər.

Xatırladaq ki, kitab bayramı oktyabrın 8-dək davam edəcək.

**Ə.DOSTƏLİ**
**XQ**

# Dünya gənc türk yazarlarının yubileyi

**Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında Dünya Gənc Türk Yazarlar Birliyinin yaradılmasının 25 illiyi münasibətilə yubiley mərasimi keçirilib.**

Mədəniyyət və incəsənət nümayəndələrinin, şair və yazıçıların, müxtəlif ölkələrdən olan qonaqların və ziyalıların toplaşdığı mərasimi birliyin rəhbəri, şair İntiqam Yaşar açaraq deyib ki, ötən illərdə bu təşkilat yaradıcı gəncləri bir araya toplayıb, onların ədəbiyyat nümunələrinin tanıdılması üçün məqsədyönlü işlər görüb. Həmin missiya davamlı şəkildə bugünədək uğurla həyata keçirilir.

Qurumun Müşahidə Şurasının sədri, şair Əkbər Qoşalı çıxışında Dünya Gənc Türk Yazarlar Birliyinin keçdiyi tarixi yola nəzər salıb. O, bildirib ki, ötən 25 ildə bir çox təşkilatlar fəaliyyətimizə dəstək olublar. Bu gün qurum yerli və Türk dünyasının gənc yazarları arasında əsl mənəvi körpüdür. Milli Məclisin deputatı Fazil Mustafa isə vurğulayıb ki, türk birliyinin möhkəmlənməsində türkdilli ədəbiyyat da yaxından iştirak edir: "Türk birliyi möhkəmlənməli, genişlənməlidir. Bunun üçün türkdilli yazarlar, şairlər daha sıx birləşməlidirlər. Ortaq Türk Əlifbasının yaradılması da bu məsələdə öz töhfəsini verəcək".

Gəncliyə Yardım Fondunun prezidenti Əhmət Tecim isə türk-islam mədəniyyətinin sevgi və ədalət üzərində bərqərar olduğunu xatırladıb. O, gənc yazarların bu amal naminə ən aparıcı qüvvə olması zərurətini diqqətə çatdırıb: "Bakıda yaradılmasına baxmayaraq, DGTYB-nin səs-sədası uzaq-uzaq ellərdən gəlir. Bu qurum sözün əsl mənasında sərhəd tanımır". Arzum budur ki, gənc qələm sahiblərimiz əlbir şəkildə çalışaraq daha da püxtələşsinlər, səsləri daha da ucadan eşidilsin. – Bu fikri isə Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev söyləyib.

Digər natiqlər də təşkilatın cəmiyyətimizdə, türk dünyasında gördüyü işlərdən söz açıblar, gənc türk yazarlarına gələcəkdə daha böyük nailiyyətlər arzulayıblar.



Sonda bir qrup gənc Dünya Gənc Türk Yazarlar Birliyinin yubiley medalı ilə mükafatlandırılıb, müxtəlif türkdilli ölkələrin şairləri, qiraətçiləri poetik nümunələr səsləndiriblər.

**Rizvan FİKRƏTOĞLU**
**XQ**

Fotoreportaj

# Sumqayıtın yubiley işıqları

**Gələn ayın 22-də mənim doğma və dəyişməz ünvanım olan Sumqayıtın şəhər statusu almasının 75 ili qeyd ediləcək. Artıq indidən şəhər özünün bayram ab-havasına köklənib, bəzəkləri ilə göz oxşayır. Sumqayıtın parlaq gecə görüntüləri xüsusilə cazibədardır.**






Hər dəfə Sumqayıtdan söz düşəndə unudulmaz şairimiz Nəbi Xəzrinin on illər öncə gənclik şəhərinin şəninə yazdığı misraları xatırlayıram:

***Sumqayıt, əzizim, gözlərin aydın,***
***Sənin hər addımın böyük hünərdi.***
***Deyirəm, bəlkə də sən olmasaydın,***
***Yer üzü nə qədər boş görünərdi.***



Sumqayıt addım-addım böyüyərək, ötən dövr ərzində zəngin inkişaf yolu keçərək Cənubi Qafqazın 2-ci böyük sənaye mərkəzinə çevrilib. Paralel olaraq burada sırf şəhər atributları da yaradılıb, mədəniyyət, elm, təhsil, səhiyyə, idman və digər sahələr genişlənib. Sumqayıt Azərbaycanın mədəni və intellektual potensialının gücləndirilməsinə sanballı töhfələr verir.

Qarşıdakı yubileylə bağlı Sumqayıt Şəhər İcra Hakimiyyəti geniş tədbirlər planı hazırlayıb və həyata keçirir. Bu tədbirlərin, hələlik, ən diqqətçəkəni şəhərin möhtəşəm gecə görüntüləri ilə bəzədilməsidir. Əsas küçə və prospektlərdə xüsusi bəzək-işıqlandırma sistemi quraşdırılıb, parklar, meydanlar və digər ictimai məkanlar yeni dekorativ-vizual elementləri ilə göz-könül sevindirir. Sumqayıtın əsrarəngiz gecə mənzərələri sakinləri və qonaqları valeh edir. Şəhərin müxtəlif yerlərində quraşdırılan işıq effektləri, "75" rəqəminin elektron manipulyasiyaları şəhərin görkəminə əlavə rəng qatır. Sanki ulduzlar göydən enərək Sumqayıtın əlvan boyunbağısına çevrilib. Gecə şəfəqləri gündüzün göyqurşağını xatırladır.



Heyrət doğuran bütün bu gözəllikləri əsl zövq sahibləri yaradıblar.

***Əli NƏCƏFXANLI***
***XQ***

# XV Bakı Beynəlxalq Film Festivalı başlandı

**Nizami Kino Mərkəzində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin dəstəyi ilə keçirilən XV Bakı Beynəlxalq Film Festivalının təntənəli açılışı oldu.**



Mərasimdə Mədəniyyət Nazirliyinin rəsmiləri, xarici ölkələrin Azərbaycandakı səfirliklərinin nümayəndələri, festivalın beynəlxalq tərkibli münsiflər heyətinin üzvləri, həmçinin mədəniyyət və incəsənət xadimləri iştirak edirdilər. Məclisi giriş sözü ilə açan Bakı Beynəlxalq Qısa Filmlər Festivalının direktoru, prodüser Fehruz Şamıyev festival iştirakçılarını salamladı və onlara sənət uğurları arzuladı.

Azərbaycan Respublikası Kino Agentliyinin baş direktoru Orxan Fikrətoğlu çıxışında dedi: "Kinematoqrafiyanın inkişafına təkan verən hər bir festivalı alqışlayırıq. Çox şadıq ki, belə uğurlu layihələrdən biri də, 15 illik böyük yol qət etmiş bugünkü festivaldır. Bu festivalın ənənəvi olaraq keçirilməsində əməyi olan hər kəsə təşəkkür edirəm. Gənc Kinematoqrafçılar Mərkəzinin 2004-cü ildə təsis etdiyi bu festival əvvəlki illərdə "START" adı ilə fəaliyyət göstərib. Ölkəmizin ən uzunömürlü festivalı bu illərdə həm də Kan, Venesiya, Berlin film festivallarında, "OSKAR"da mükafat və uğur qazanmış filmlərin nümayiş məkanına çevrilib".

Sonra Azərbaycan kinosundakı xidmətlərinə görə kino xadimlərindən aktrisa Həmidə Ömərova və Şükufə Yusupova "Qızıl nar" mükafatına layiq görüldülər.

Festivala daxil olan filmlərdən kadrlar nümayiş olundu.

Bu il festival çərçivəsində - 5 gün müddətində ümumilikdə 26 ölkəni əhatə edən 79 film nümayiş olunacaq. Tamaşaçılarla 15-ci görüşə gələn festival bu ildən tammetrajlı filmlərin müsabiqəsini də keçirir. Beynəlxalq müsabiqədə ilk dəfə tammetrajlı bədii və qısa filmlər yarışır. Yerli müsabiqəyə qısametrajlı bədii, sənədli filmlər və sosial çarxlar qəbul olunub. Ümumilikdə isə bu müsabiqədə 25 ekran əsərinin nümayişi gözlənilir. Festivalda müsabiqədənkənar proqramlar da tamaşaçıların ixtiyarına verilir.

**Münsiflər heyətinin üzvü Zümrə Ərtürk XQ-yə açıqlamasında dedi:**

– Builki festivalda münsiflər heyətinin üzvlərindən biri kimi iştirak edirəm. Bakıda belə möhtəşəm festivalın keçirilməsi və bu tədbirdə yer almağım məni çox qürurlandırır. Bu cür festivallar yeni insanlarla tanış olmaq, istedadlı şəxsləri kəşf etmək və onlarla birgə əməkdaşlıq etmək üçün olduqca əhəmiyyətlidir. Bir daha festivalın təşkilatçılarına təşəkkür edirəm.

Türksoy baş katibliyinin beynəlxalq kino üzrə müşaviri Maira Kasarpaeva isə bildirdi:

– Festivalda Türk dünyasından 6 ölkə - Qazaxıstan, Qırğızıstan, Azərbaycan, Türkiyə, Özbəkistan və Türkmənistan iştirak edir. Biz bu festivalda "Türk dünyası kinemotoqrafiyasının tarixinə səyahət" adlı sənədli filmi də izləyəcəyik. Bir neçə gün bundan əvvəl "Baku Cinema Breeze" Film Festivalında iştirak etdik. Ölkənizdə film sənayesinin parlaq gələcəyi var.

***Fidan SALMANOVA***
***XQ***

# Azərbaycan alimlərinin Daşkənd görüşləri

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova və bu ali məktəbin Azərbaycan dili kafedrasının müdiri, dosent Könül Səmədova Daşkənddəki Yunus Rəcəbi adına Muğam İnstitutunun qonağı olublar.**



Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə keçirilən görüşdə Muğam İnstitutunun prorektoru Davlat Ximbətov qonaqları salamlayaraq yeni yaradılan musiqi təhsili ocağı haqqında məlumat verib. O, ölkələrimiz arasında bütün sahələrdə mehriban dostluq münasibətlərindən danışaraq qeyd edib ki, ötən il prezidentlər Şavkat Mirziyoyevin Azərbaycana, bu ilin yayında isə İlham Əliyevin Özbəkistana səfərləri əlaqələrimizin daha da dərinləşməsinə təkan verib.

Cizzak Universitetinin 50 illiyi ilə bağlı konfransda iştirak etmək üçün Özbəkistana gəlmiş Mahirə Hüseynova qardaş ölkənin ali təhsil sistemi ilə tanışlığın zəngin təəssüratından söz açıb: "Daşkənddəki bir neçə universitetdə də görüşlər keçirdik. Hər yerdə hörmətlə, mehribanlıqla qarşılandıq. Qürur duyduq ki, biz qardaş xalqlarıq, dilimiz, dinimiz, mədəniyyətimiz, adət-ənənələrimiz oxşardır. Folklorumuz, ədəbiyyatımız da çox yaxındır. Hələ qədim zamanlardan alimlərimiz, şairlərimiz dostluq ediblər".

Azərbaycanlı alimlər Daşkənd Dövlət Şərqşünaslıq Universitetində də olublar. Onlar burada yaradılmış "Azərbaycanşünaslıq mərkəzi" ilə tanış olublar, mərkəzə kitablar hədiyyə ediblər.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Mərkəzi Asiya müxbiri***

**Daşkənd**

# Möminə xatın türbəsi bərpa olunacaq



**"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"na uyğun olaraq Möminə xatın türbəsinin bərpası və ərazinin abadlaşdırılması ilə bağlı layihələndirmə işlərinin aparılması məqsədilə "Atelier Erich Pummer GMBh" şirkətilə müqavilə bağlanıb.**

Bu məqsədlə şirkətin rəhbəri Erik Pumer və işçi qrup Naxçıvana gəlib, Möminə xatın türbəsinin mövcud vəziyyətinin hərtərəfli tədqiqi və ölçmə işlərinin aparılması üçün ilkin baxış keçirilib.

Qeyd edək ki, şirkət Azərbaycanda bu sahədə 15 ildən artıqdır ki, fəaliyyət göstərir.

***Səbuhi HƏSƏNOV***

**Maraq dünyamız**

# Nijni Novqorod – ərazisi, əsasən, meşə və parklardan ibarət olan şəhər

**Uşaq vaxtı "Qaz 21" markalı "Volqa" avtomobilini çox sevirdim. Onun gözəlliyinə saatlarla baxsam da, yenə "doymurdum". Bizdən 5-6 yaş böyük olan həmkəndlilərimdən biri mənim həmin sevgimdən xəbər tutanda demişdi ki, mən 2 il o maşınların istehsal edildiyi Qorki şəhərində hərbi xidmətdə olmuşam. Sonra danışmışdı ki, o şəhərdə də Moskvadakı boyda olmasa da, Kreml var, Volqa və Oka çayları o şəhərdə birləşir, orada çox böyük Nevski kilsəsi var, "Qaz" maşınlarının hamısı orada istehsal olunur və s. O söhbətlər "Qaz 21"-ə olan sevgimin yarısını Qorki şəhərinə yönəltmişdi. Qorkini görməyi necə arzulayırdımsa, bir Allah bilir.**

Aradan neçə on illər keçəndən sonra jurnalist qrupunun üzvü kimi Nijni Novqorod (keçmiş Qorki) şəhərində oldum. Allah qələmi mənə çox görmədiyi kimi, həmin istəyimə çatmağıma da şans verdi. Təbii ki, Qorki Avtomobil Zavodunu (QAZ) görə bilmədik. Çünki SSRİ dağılandan sonra bir çox iri sənaye müəssisələri kimi QAZ-da öz funksiyasını və fəaliyyət istiqamətini dəyişməli olmuşdu. Ancaq Volqa ilə Okanın qovuşduğu məkanı seyr etdim, həmin ərazidəki adanın üstündə tikilmiş Aleksandr Nevski kafedral kilsəsinin fotosunu çəkdim, Nijninin Kremlini gördüm, Bakıdan getmiş musiqiçilərin "Lokomotiv" stadionunda verdiyi konsertin təhlükəsizliyini qoruyan atlı milislərin hər şeyə necə nəzarət etdiyinin şahidi oldum.



Yeri gəlmişkən, 2015–2018-ci illərdə həmin stadionun yerində "Nijni Novqorod" adlı yeni, daha böyük və müasir stadion tikilmişdir. Elə Qorki şəhərinin "Lokomotiv" komandasını da indi "Volqa" komandası əvəz edir. Yəni bizim gördüyümüz köhnə stadiondan indi Rusiya Premyer Liqasında təmsil olunan Nijni Novqorod şəhərinin "Volqa" klubu istifadə edir.



Nijnidə (yerli sakinlərin demək olar ki, hamısı şəhərin tam adını çəkmir, məhz belə, qısa adlandırırlar) məni iki məqam daha çox maraqlandırmışdı. Birinci, köhnə Rusiyanın bu qədim şəhərində park və meşələrin çox olması, ikinci, bu şəhərdə istehsal olunan bütün məhsulların üstündə iri şriftlərlə "Nijni" yazılması idi.

Bu zəngin ticarət şəhəri həm qədim, həm də çarizmdən sonrakı Rusiyada öz zəngin mədəniyyəti, memarlığı ilə məşhurdur. Böyük ədib Maksim Qorki burada anadan olmuş və uşaqlıq illərini Nijni Novqorodda keçirmişdir. Yeri gəlmişkən, şəhər 1932–1990-cı illərdə məhz onun – ən "böyük proletar ədibi"nin adını daşıyırdı.

Şəhərin əsas hissəsi Volqanın sağ sahilində yerləşir. Oka çayı isə onu iki yerə bölür. Okanın aşağı sol sahilində Nijni Novqorod yarmarka kompleksi, Spasski Köhnə Yarmarka Kafedralı, Aleksandr Nevski Yeni Yarmarka Katedralı, anbarlar və Moskvadan qatarların gəldiyi dəmiryol stansiyası var. Bir az aralıda Çay stansiyası, Nijni Novqorod Kremli, Çkalov pilləkənləri, piyadalar üçün Bolşaya Pokrovskaya küçəsi və muzeylər var.

Bu şəhərin ərazisinin beşdən birini park və meşələrin təşkil etdiyini dedik. Ancaq çox təəssüf ki, təkcə şəhərin deyil, bütövlükdə, Nijni Novqorod vilayətinin havası kimi su ehtiyatları da dəhşətli dərəcədə çirklənmişdir. Çünki şəhərdə bütün dövrlərdə çoxlu sənaye müəssisələri olub, indi də var. Oka çayının buradan keçən hissəsi vilayətin ən çirkli su ehtiyatları kimi tanınır.

Daha bir maraqlı məqam isə ondan ibarətdir ki, Nijnidəki 20-yə yaxın parkdan birinin adı "İsveçrə"dir. Rus jurnalistlər həmin parkı nəzərdə tutaraq zarafatla yazırlar ki, "İsveçrə"də də hava sudan çirklidir, su havadan: "Təbiətin bəxş etdiyi ucsuz-bucaqsız meşələr isə bu ekoloji problemlərin həllinə heç cür kömək edə bilmir".

***İttifaq MİRZƏBƏYLİ***

**Estetik etüdlər**

# Sənət sənət üçündürmü?

## *Onda nə kitab lazımdır, nə də oxucu*

**Elə bir zamana gəlib çatmışıq ki, artıq "sənət sənət üçündür" fikri öz aktuallığını itirməkdədir. Bu yaxınlarda jurnalist dostlardan biri mənə bu barədə sual verdi, cavabım belə oldu: Sənət insanların zövqünə xidmət edir. Əgər sənət sənət üçündürsə, kitablar niyə satışa çıxarılır? Xalq üçün olmayan sənət kimə lazımdır ki?**



Təbii ki, xalqın da elitar təbəqəsi var. Bu deyim klassizmə məxsus bir anlayışdır. Ötən əsrin əvvəllərində simvolizm nümayəndələri burjuaziyanı müdafiə edirdilər və bu baxımdan sənəti kütlədən ayırıb elitarlaşdırmağın tərəfdarı idilər. Amma indi zaman başqadır, sənət insanımıza xidmət etməlidir. Kommunikasiya əsrində yaşayırıq və bu zamanda sənəti məhdudlaşdırmaq heç mümkün də deyil.

Bu sualın cavabını bir cümlə ilə də vermək olar: sənət fərdlər üçündür. Vəssalam. İnsanın individual inkişafı birbaşa zehni fəaliyyətlə bağlıdır, zehni fəaliyyət yazı sənəti deməkdir. Zərgərlik kimi, misgərlik kimi, aktyorluq da, xanəndəlik də, yazıçılıq da sənətdir və bu sənəti yaşadan fərdlərdir. Hər bir sənət ona ehtiyac olduğu qədər mövcuddur, tələbat olmasa, sənət mövcud olmaz.

Yazı sənətinə gəldikdə isə, bu, insanın mənəvi dünyasını qidalandıran sahədir və əslində roman, hekayə, şeir də qida məhsulu sayılır. Buna mənəvi qida deyirik və yazıçı da istehsal edəndir. Kitab əmtəə sayılırsa və kitab industriyası anlayışı mövcuddursa, demək, bu bazarın yaranması birbaşa alıcıya bağlıdır. Biz çox vaxt kitab sözünün bazar sözüylə yanaşı yazılmasını qəbul edə bilmirik, amma kapitalist cəmiyyətlərində nəşriyyatlar öz işlərini yazıçı-naşir-oxucu tandemi üzərində qururlar. Bazar yazıçının uğurunu şərtləndirən vacib göstəricilərdəndir. Müəllif yazdığı mətnin daha çox oxucuya yetişməsini istəyir, naşir üçün satış göstəriciləri vacibdir, oxucu isə bu sənayenin onurğa sütunudur. Belə bir sistemdə "sənət sənət üçündür" deyimi ən yaxşı halda gülüş doğurur.



Sözsüz, bütün dünyada qeyri-ciddi, yüngül ədəbiyyatın oxucuları çoxluq təşkil edir. Orta xətti tutan yazıçılar da var ki, həm geniş oxucunun marağını nəzərə alaraq əsərinin süjet xəttinə dedektiv, fentezi elementlərini əlavə etməklə, mətnin nüvəsinə ciddi mətləbləri yerləşdirir.

Oxumaq həkim resepti kimidir. Hər kəsə eyni resept verilməz. Ağrıkəsicidən hər kəs istifadə edə bilər, amma şəkər xəstəliyinə aid olan dərmanı yalnız o xəstəliyin daşıyıcısı olan adam qəbul edə bilər. Mütaliə məsələsində də vəziyyət bu cürdür, hər bir insanın oxuma sistemi fərqli olmalıdır. Macəra ədəbiyyatına meyilli adama Ceyms Coysu, Marsel Prustu, Borxesi təklif edə bilməzsən, çünki onları həzm edə bilməz. Oxucu əvvəlcə niyə oxumalı sualına cavab verməli, sonra necə oxumalı mərhələsinə adlamalıdır. Bu necə oxumalı mərhələsi ən kritik dönəmdir, yanlış addım hədəfdən sapmalara səbəb ola bilər. Körpəyə birdən-birə ağır yeməklər vermək olmaz. Nağıllar, əfsanələr, rəvayətlər, mifoloji mətnlər ilkin mərhələdə vacibdir, çünki bunlar oxucu üçün təməl baza yaradır.

Bu baza onu ciddi mətnlərə aparıb çıxaran naviqator rolunu oynayır. Elə oxucular var ki, özünü mətnin içində hiss edir, obrazla empati hissi qurur, oxucu da var ki, mətnə kənardan baxır, mətnlə özü arasında daim məsafə saxlayır. Bu tipli oxucular Orxan Pamukun diliylə desək, düşüncəli oxuculardır. Birinci kateqoriyada saf oxucular dayanır, yəni inanan oxucular. Düşüncəli oxucu isə sanki mətni yenidən yazır.

Yuxarıda orta xətt tutmuş yazıçılardan bəhs etdik. Onlar oxucunu ciddi mətnlərə hazırlayan keçid mətnlər yazan müəlliflərdir. Rus ədəbiyyatında əslən gürcü olan Boris Akuninin yaradıcılığı buna bariz nümunədir. Onun kitabları Rusiyada ən çox satılan kitablar "list"əsindədir (siyahısındadır–red). O, Rusiyanın tarixi taleyinə güzgü tutan yazıçılardandır və süjet xəttinə toxuduğu macəralar simvolik yüklüdür, bu əsərlərin alt qatına varmaq üçün oxucudan müəyyən hazırlıq, bilik tələb edir, eyni zamanda, Akunin üst qatın cazibəsiylə daha çox oxucu kütləsi toplamağı bacarır.

Yazıçı məqsədyönlü şəkildə bu taktikanı seçib və göründüyü kimi, uğur qazanıb. Əslində, bu fəndin özü də oxucunu yetişdirməyə xidmət edir və maarifçiliyin yeni mərhələsidir. Mövzu Akunin yaradıcılığı deyil, sadəcə, misal olaraq onun adını çəkdim. Dünya ədəbiyyatında xeyli sayda bu tipli yazıçılar var ki, onların yaradıcılığı həm də ciddi ədəbiyyata xidmət edir.

Yazıçı müştəbehliyi ədəbiyyatın, sənətin xeyrinə işləmir, əksinə, oxucunu kitabdan uzaqlaşdırır. "Sənət sənət üçündür" deyimi, əslində, oxucuya yuxarıdan aşağı baxmaq kimi görünür. Ədəbiyyat müstəvisində sənət oxucu üçündür.

***Kənan HACI,***
***yazıçı-publisist***

# Hörümçək ovlayan göbələk

**Tədqiqatçılar yeni aşkar etdikləri göbələyi Gibellula adlandırıblar. Qeyd edək ki, bu, məkrli göbələk əsasən hörümçəkləri yoluxdurur və bununla da onları özünə tabe edir. Gibellula qurbanını öldürməzdən əvvəl onu "zombi"yə çevirir.**



Gibellula göbələyi həşəratın bədənini içəridən yeyir və sonra sporları yaymaq və yeni qurbanı yoluxdurmaq üçün üzə çıxır.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 219 (30623) 6 oktyabr 2024-cü il, bazar

## İdman xəbərləri

## Boksçularımız 4 medal qazanıblar

**Azərbaycan boksçuları Qazaxıstanın Aktau şəhərində keçirilən beynəlxalq turnirdə 4 medal qazanıblar.**



Azərbaycan Boks Federasiyasından verilən məlumata görə, yığmanın heyətində Sərxan Əliyevlə (71 kiloqram) Məhəmməd Abdullayev (+92 kiloqram) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə yüksəliblər. Yalnız finalda uduzan Nəbi İsgəndərov (71 kiloqram) ikinci yeri tutub. Tayfur Əliyev (60 kiloqram) isə bürünc mükafata yiyələnib.

Qeyd edək ki, Aktauda Azərbaycanı hakimlərdən İlqar Qasımzadə təmsil edib.

## Gimnastımız Dünya Kubokunun finalında

**Azərbaycanın idman gimnastı Nazənin Teymurova Macarıstanın Sombatxey şəhərində davam edən "Challenge" seriyasına aid Dünya Kubokunda finala vəsiqə qazanıb.**



Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, o, dayaqlı tullanma proqramı üzrə yarışda uğurlu nəticəyə imza atıb.

Qeyd edək ki, yarış oktyabrın 6-da başa çatacaq.

## Astanada konkisürmə memorialı

**Qazaxıstanın Astana şəhərində keçirilən fiqurlu konkisürmə üzrə Denis Ten Memorialı davam edir. Kişilərin fərdi yarışında artıq mükafatçılar bəlli olub.**



Azərbaycan idmançısı Vladimir Litvintsev yarışda uğurla çıxış edib. Qısa proqramda 3-cü olan idmançımız sərbəst çıxışda da 3-cü yeri tutub. O, 161,97 xal toplayıb.

Bu, Vladimirə iki hərəkətin yekununda 246,00 xal yığmağa imkan verib. Nəticədə idmançımız yekunda 2-ci yeri tutub və gümüş medal qazanıb. Yarışın qalibi isə qazaxıstanlı Mixail Şaydorov olub – 262,33 xal.

Qeyd edək ki, bu gün buz üzərində rəqslərdə isə Maksin Ueterbi və Aleksandr Kolosovski dueti də sərbəst proqramda çıxış edəcək.

*LA ZAD*
*XQ*

### Media-tur

# Mərdəkanın pəhləvanlar məktəbi

*Gördüklərimiz burada gələcəyin olimpiyaçılarının yetişəcəyinə inam yaratdı*

**Milli idman növümüz olan güləşin inkişafına və bu sahədə qədim ənənələrin nəsildən-nəslə ötürülməsinə ölkəmizdə böyük qayğı göstərilir. Mərdəkan qəsəbəsində yerləşən Süleyman Rüstəm adına Gimnaziyada pəhləvanlıq məktəbinin davamçılarının yetişdirilməsi üçün yaradılan geniş imkanlar bu baxımdan diqqətəlayiqdir.**



Təhsil ocağında 2024-cü ilin yanvar ayından fəaliyyət göstərən güləş bölməsinə artıq ölkəmizin hər yerindən uşaq pəhləvanlar gəlirlər. Azərbaycan Güləş Federasiyasının təşəbbüsü ilə gimnaziyaya təşkil edilən media-tur zamanı əmin olduq ki, təhsil ocağında gələcəyin ustad pəhləvanları yetişir.

Gimnaziyanın direktoru Tural Mirzəliyev məlumat verdi ki, bu təhsil ocağı 1960-cı ildən fəaliyyət göstərir. Əvvəlcə başqa statusa malik olub. Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edildikdən sonra 2021-ci ildən hazırkı statusunda



fəaliyyət göstərir. Bir neçə ildir ki, Elm və Təhsil Nazirliyi tərəfindən mərkəzləşdirilmiş imtahan vasitəsilə burada şagird qəbulu həyata keçirilir. Respublikanın müxtəlif yerlərindən 813 şagird hazırda gimnaziyada təhsil alır.

Əvvəlcə sərbəst güləşçilərin məşqini izlədik. Balaca pəhləvanların bir-birindən maraqlı fəndləri çevik hərəkətlə icra etmələri diqqətimizi cəlb etdi.

*U-17 milli komandanın böyük məşqçisi Əsgərxan Novruzov brifinqdə burada məşğul olan uşaqların hər birinin adlı-sanlı güləşçilər kimi yetişməsi üçün böyük potensialı olduğunu dedi. Məşqçi gimnaziyanın ölkə güləşinin inkişafına töhfə verəcəyinə inandığını vurğuladı:*

– Təhsil ocağının imkanlarından istifadə edib, ən istedadlıları burada məşğul olması üçün səy göstəririk. Avqust ayında yenidən seçimlər etdik. Hazırda 44 sərbəst güləşçi gimnaziyanın imkanlarından yararlanır. Bu məktəbi hətta güləş akademiyası da adlandırmaq olar. Layihə federasiyamızın güləşin inkişafı üçün atdığı ən önəmli addımlardan biridir. Gələcəkdə bunun bəhrəsini görəcəyik. Bu il əsasən 5–7-ci siniflər üzrə seçim etdik. Perspektivli uşaqları seçmişik.

Yeniyetmə güləşçilərin fikirləri də bizim üçün maraqlı idi.

*Bəhram Cəfərov İmişlidəndir. Əvvəllər rayonun 1 saylı orta məktəbində təhsil alıb. Onun sözlərinə görə, məşqlər ürəyincədir:*

– Gimnaziyada təhsillə yanaşı, güləşlə məşğul olmaq üçün yaxşı imkanlar yaradılıb. Bu şəraitdən istifadə edib gələcəkdə yüksək nailiyyətlər əldə etmək istəyirik. Məşqçilərimizin verdiyi tapşırıqları vaxtında yerinə yetirməyə çalışırıq.

*Oğuz Paşayev Qaradağ rayonundandır. 13 yaşı var. Sərbəst güləş üzrə ilk məşqlərə Azad Umudovun rəhbərliyi ilə başlayıb. Ən böyük arzusu ustad güləşçi kimi yetişməkdir:*

– Burada ən çox xoşuma gələn odur ki, dərslərimizlə yanaşı, güləşə də istədiyimiz qədər vaxt ayıra bilirik. Başa düşürük ki, təhsil ocağının imkanlarından maksimum yararlanmalıyıq. Nizam-intizama riayət edir, məşqçilərin tapşırıqlarını yerinə yetirməyə çalışırıq.

*Zaldan çıxarkən balaca, çəlimsiz bir uşaq bizə yaxınlaşaraq fikirlərini bildirmək istədiyini deyir. Məmnuniyyətlə mikrofonu ona uzadırıq. Öyrənirik ki, Elmir Allahverdiyev Qazaxdan gəlib. Bu rayonun adlı-sanlı pəhləvanlarının davamçısı olmaq istəyir. Atası Elnur Allahverdiyev də güləşçi olub. Onda bu qədim idman növünə marağı elə atası oyadıb:*

– İndiyədək bir çox yarışlarda iştirak etmişəm, çempion da olmuşam. Ən böyük arzum yaxşı güləşçi kimi yetişməkdir. İstəyirəm ki, böyük yarışlarda qalib adını qazanım.

Daha sonra güləşçilərin yerləşdirildiyi yataqxana ilə tanış oluruq. Burada yataq, tədris, istirahət otaqları, camaşırxana, sanitar qovşağı, yeməkxana və tibb məntəqəsi var. Gimnaziyada güləş bölməsində 4 məşqçi, 3 nəzarətçi, 5 tərbiyəçi, psixoloq, həkim və tibb bacısı çalışır. Məlumat verildi ki, gimnaziya 1029 şagird yerlikdir. Yeni binada sinif və laboratoriya otaqları, informatika, hərbi hazırlıq kabinetləri, kitabxana da var.

Yunan-Roma güləşçilərinin açıq məşqini də böyük maraqla izlədik.

*Yunan-Roma güləşi üzrə böyük məşqçi Taleh İsrafilov jurnalistlərə açıqlamasında dedi:*

– Gimnaziyada güləşin sirlərinə yiyələnən şagirdlər Azərbaycan idmanında ilk addımlarını atırlar. Düşünürəm ki, onların arasında gələcəkdə Avropa, Dünya və təbii ki, Olimpiya çempionlarını görə biləcəyik.

*Yunan-Roma güləşi üzrə 15 yaşlılar arasında 57 kiloqram çəkidə Azərbaycan çempionu, Avropa çempionatının mükafatçısı Hüseyn Vəlizadə burada təhsil aldığı üçün şanslı olduğunu bildirdi:*

– Həm məşqlərimiz, həm də dərslərimiz ürəyimizcədir. Güləşlə məşğul olan şagirdlərin hər biri vaxtını səmərəli keçirir. Bu idman növü üzrə böyük nailiyyətlər qazanmaq üçün geniş imkanlar yaradılıb. Eyni zamanda, dərslərimizi yaxşı oxuyaq deyə, bizə hər bir dəstək göstərilir. Bu etimadı doğrultmaq üçün biz də öz növbəmizdə səy göstəririk. Gələcəkdə Avropa, Dünya çempionatlarında, Olimpiya Oyunlarında ölkəmizi layiqincə təmsil etmək istəyirik.

Zalda məşqlər davam edirdi. Gimnaziyanın həyətində isə şagirdlərin ixtiyarında olan futbol və idman meydançaları ilə də tanış olduqdan sonra gənc güləşçilərə yeni uğurlar diləyərək təhsil ocağından ayrılırıq. Əminik ki, gimnaziyada gələcəyin olimpiyaçıları yetişəcək.

*Leyla QURBANOVA,*
*Cavid QAÇAYEV (foto)*
*XQ*

## Soydaşlarımız "Tbilisoba" bayramına qoşulublar

**Dünən Gürcüstan paytaxtında ənənəvi "Tbilisoba" bayramı başlanıb. Dost gürcü xalqının bu əziz bayramına bu bölgədə yaşayan milli azlıqların nümayəndələri də qoşulublar.**



Gürcüstanda yaşayan soydaşlarımız Tbilisinin mərkəzindəki Heydər Əliyev Parkının yanında, "Meydan" ərazisində iki guşə yaradıblar. Hər iki guşədə milli mədəniyyətimizin və mətbəximizin nümunələri nümayiş etdirilir. Buraya gələn qonaqlar samovar çayı ilə şəkərbura və paxlavanın, "Borçalı qatlaması"nın, plovun, qutabların və digər milli təamlarımızın dadına baxırlar. Aşıq Nargilə Mehtiyeva Azərbaycan milli mahnılarını ifa edib. Azərbaycanın bu ölkədəki səfirliyinin əməkdaşları, iş adamları da guşələrə baxıb, təşkilatçılara dəstək nümayiş etdiriblər.

Qeyd edək ki, əsası 1979-cu ilin oktyabr ayında qoyulan "Tbilisoba" bayramı zəngin proqramla iki gün davam edəcək. Bayram çərçivəsində paytaxt Tbilisinin mərkəzində kənd təsərrüfatı, yeyinti sənayesi və yüngül sənaye məhsullarının satış yarmarkası təşkil olunub. Gürcüstanın dövlət və hökumət rəsmiləri bayram tədbiri keçirilən küçə və parkları gəzib, xalqı təbrik ediblər. Bayram günləri çərçivəsində maraqlı konsert proqramı da təşkil olunub.

*XQ*



## Payızın 3-cü bazar günü

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən mediaya verilən məlumata görə, sabah mülayim cənub-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 14-18° isti, gündüz 22-26° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 765 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 70-80 faiz, gündüz 45-55 faiz olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsasən şərq rayonlarında arabir güclənəcək.

Havanın temperaturu gecə 14-18° isti, gündüz 23-28° isti, dağlarda gecə 2-7° isti, gündüz 13-18° isti olacaq.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 4002 |
| SİFARİŞ | 2234 |
| QİYMƏTİ | 60 qəpik |

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00